RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 2 (10022) 7 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycan dövlətçiliyinin konseptual inkişaf xəritəsi

### Bu xəritədə hərbi güc diplomatiya ilə, iqtisadi inkişaf sosial ədalətlə, milli birlik qlobal mövqe ilə uzlaşdırılır

Tarixdə hərbi qələbələr çox baş verib. Ancaq hərbi qələbəni beynəlxalq hüquq və siyasi reallıq müstəvisində təsdiqləmək hər ölkəyə nəsib olmur. Prezidentin müraciətində xüsusi vurğulanan əsas məqamlardan biri də məhz budur: Azərbaycan Vətən müharibəsində qazandığı Zəfəri yalnız silah gücü ilə deyil, ardıcıl, məqsədyönlü və uzaqgörən diplomatik fəaliyyətlə möhkəmləndirmişdir.

Bu mərhələdə Azərbaycan diplomatiyasının əsas strategiyası üç istiqamət üzrə formalaşmış, qələbənin hüquqi əsaslarının beynəlxalq auditoriyaya izahı, münaqişə anlayışının beynəlxalq gündəlikdən çıxarılması, postmünaqişə dövründə sülh təşəbbüskarı kimi çıxış etmək istiqamətlərinin hər birində Azərbaycan mühüm nəticələr qazanmışdır. Dövlət rəhbərimizin də vurğuladığı kimi, bu gün bütün dünya Azərbaycanın haqlı olduğunu qəbul edir. Bu, sadəcə, siyasi bəyanat olmayıb, illərlə düzgün məcrada aparılmış hüquqi-siyasi mübarizənin nəticəsidir. Xüsusilə qeyd edilməli məqam həm də ondan ibarətdir ki, Azərbaycan başqa ölkələrin torpaqlarında gözü olmayan bir dövlətdir. Silahdan istifadə yalnız öz ərazi bütövlüyünü bərpa etmək məqsədi daşıyıb. Bu yanaşma beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqeyini ciddi şəkildə gücləndirmişdir.

Ötən ilin ən ciddi nailiyyətlərindən biri ATƏT-in Minsk qrupunun faktiki olaraq tarixin arxivinə göndərilməsi oldu. Bununla 30 ilə yaxın davam etmiş beynəlxalq vasitəçilik modelinin iflası rəsmən etiraf edildi. Məlumdur ki, Minsk qrupu bu illər ərzində "münaqişənin həlli" adı altında, əslində, status-kvonu qoruyan, işğalı faktiki olaraq legitimləşdirməyə çalışan mexanizmə çevrilmişdi. Azərbaycan isə bu modeli qəbul etmədi, münaqişənin yeganə real həllinin beynəlxalq hüququn tətbiqindən keçdiyini hər zaman bildirdi və ordumuzun gücü ilə beynəlxalq hüquq normalarının yerinə yetirilməsini özü təmin etdi.

Vətən müharibəsindən sonra yaranmış yeni reallıq Minsk qrupunun mövcudluğunu mənasızlaşdırdı. Prezidentin vurğuladığı kimi, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir. Bu, Azərbaycan üçün də, ümumən regionumuz üçün də tarixi dönüş nöqtəsidir. Çünki 30 il ərzində ölkənin əsas siyasi gündəmi olan məsələ artıq bağlanmış hesab edilir.

Bu mərhələdə Azərbaycan qalib ölkə kimi Ermənistana sülh əli uzatdı. Bu addım beynəlxalq aləmdə yüksək qiymətləndirildi və Azərbaycanın məsuliyyətli regional aktor imicini daha da möhkəmləndirdi.

6

## Azərbaycan ilə İordaniya arasında 2025-2027-ci illər üçün İcraedici Əməkdaşlıq Proqramı təsdiqlənib



2025-ci il noyabrın 27-də Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2025-2027-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı" təsdiqlənib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, İcraedici Əməkdaşlıq Proqramı qüvvəyə mindikdən sonra Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etməlidir. Xarici İşlər Nazirliyi isə proqramın qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İordaniya Haşimilər Krallığı Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, İcraedici Əməkdaşlıq Proqramı ötən il noyabrın 27-də Bakıda Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclası başa çatdıqdan sonra imzalanıb.

Bu sənəd Azərbaycan ilə İordaniya arasında elm, təhsil, mədəniyyət, arxeologiya, idman, səhiyyə və media sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinə imkan yaradacaq.

2

## Birinci vitse-prezident Mehriban Əliyeva Milad bayramı ilə bağlı paylaşım edib




## Azərbaycanın strateji mövqeyi: D-8-dən Mərkəzi Asiyaya

### İlham ƏLİYEV: "Bizim rolumuz artıq böyük layihələri icra edə bilən ölkə kimi artacaq"

Prezidentin təbirincə desək, Azərbaycan nə əhali, nə də iqtisadi göstəricilər baxımından böyük dövlətlər sırasında yer almasa da, bu nüfuzlu təşkilatda rəsmi şəkildə təmsil olunması ölkəmizə göstərilən etimadın və yürüdülən müstəqil, balanslaşdırılmış siyasətin nəticəsi kimi qiymətləndirilir. D-8 çərçivəsində birləşən ölkələrin ümumi əhalisinin 1 milyarddan, ümumi iqtisadi potensialının isə 4 trilyon dollardan artıq olması təsisatın qlobal miqyasını aydın şəkildə ortaya qoyur. Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan üzv qəbul edildikdən dərhal sonra fəal mövqe tutaraq təşəbbüskar fəaliyyətə başlayıb. Məhz Bakının təşəbbüsü ilə ölkəmizdə media, iqlim, ekologiya, energetika və nəqliyyat sahələrini əhatə edən D-8 mərkəzlərinin yaradılması Azərbaycanın bu təşkilatda fəal və iddialı üzv olacağını açıq şəkildə nümayiş etdirir. Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi daha bir gerçəyi ortaya qoyur. Bu, ölkəmizin islam dünyasında və yüksələn iqtisadi gücə malik ölkələr arasında artan nüfuzunun artmasının göstəricisidir. İqtisadi potensial baxımından mühüm dövlətləri birləşdirən bu təşkilat Azərbaycanın yeni bazarlara çıxışı, ticarət əlaqələrinin şaxələndirilməsi və investisiya əməkdaşlığının genişləndirilməsi üçün əlavə imkanlar yaradır.

7

## ABŞ-Azərbaycan əlaqələrində tarixi mərhələ



Ağ Ev lideri Azərbaycan Prezidentinin Vaşinqtona səfəri zamanı - ötən il 8 avqustda ölkəmizin rəhbərinin III Şuşa Qlobal Media Forumunda özü ilə bağlı etdiyi çıxışını xüsusi jest olaraq yenidən paylaşması da bunu təsdiqlədi.

Ötən il iyulun 19-da III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Donald Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqət çəkən İlham Əliyev vurğulamışdı ki, o, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır.

ABŞ-yə tarixi səfər zamanı Ağ Ev rəhbərinin Prezident İlham Əliyevə xüsusi rəğbət göstərməsi də diqqətlərdən yayınmadı. İstər Ağ Evin rəmzi açarının dövlətimizin başçısına təqdim edilməsi, istərsə də "Azadlığa Dəstək Aktı"na edilən ədalətsiz 907-ci düzəlişdən Azərbaycan Prezidentinin iştirakı ilə oval ofisdə imtina edilməsi rəmzi məna daşıyırdı.

Yerli televiziya kanallarına müsahibəsi zamanı ölkəmizin rəhbəri söylədi ki, Tramp administrasiyası çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə: "Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər".

5

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I); 2024, № 3, maddə 247; 2025, № 1, maddə 14, № 3, maddə 215, № 6, maddə 536, № 8, maddə 738) 79-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 79.1.1-ci maddədən "kənd təsərrüfatı," sözləri çıxarılsın;

1.2. 79.1.2-ci maddəyə "quyuların" sözündən sonra "(kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilənlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.3. 79.1.6-cı maddəyə "tikililərin" sözündən sonra "(kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilənlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.4. 79.1.10-cu maddəyə "istixanaların" sözündən sonra "(kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilənlər istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 2.** "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 128 (Cild I); 2024, № 3, maddə 250) 14-cü və 17-ci maddələrinin birinci hissələrindən, 20-ci maddəsinin ikinci hissəsindən "(uqodiyalarının)" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2025-2027-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il noyabrın 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2025-2027-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən İcraedici Əməkdaşlıq Proqramı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İcraedici Əməkdaşlıq Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İordaniya Haşimilər Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 yanvar 2026-cı il*

# Azərbaycanın güclü ordusu və qüdrətli hərbi müttəfiqləri var

## İndiki gərgin dünyada bunlar vacib şərtlərdir

**Yeni dünya düzəninin qurulması prosesi beynəlxalq münasibətləri son dərəcə gərginləşdirib. Üstəlik, bu gərginlik gündən-günə genişlənməkdə və dərinləşməkdə davam edir. Buna görə də dünyada tanınan nüfuzlu siyasi analitiklər, hərbi mütəxəssislər üçüncü dünya müharibəsinin başlanmasından bəhs edirlər, bəziləri isə haqlı olaraq artıq bu prosesin başlandığını deyirlər.**

Qarşı-qarşıya duran ölkələrin nüvə silahına malik olması isə bəşəriyyəti real məhvolma riski qarşısında qoyur. O üzdən dünyada yenidən sürətli silahlanma müşahidə olunur. Hazırda dövlətlər büdcələrindən bu istiqamətə daha çox vəsait ayırırlar, nəinki sosial məsələlərin həllinə. Bu yarışmada iri dövlətlərlə yanaşı, kiçik ölkələr də iştirak edir. Nə etmək olar, göz gördüyündən qorxar. Özü də bu zaman söhbət ondan getmir ki, bir anda kimsə digərinin torpaqlarını işğal edəcək, hərçənd indiki zamanda bu da istisna olunmur. Odur ki, gələcək təhlükələrdən özünü qorumaq istəyən ölkələri anlamaq çətin deyil. Belə ölkələrdən biri də Azərbaycandır və ölkəmiz hərbi cəhətdən hazırlıqsız olmağının ağrı-acısını öz yaxın tarixindən yaxşı bilir.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa etdiyi müraciətində ölkəmizin güclü ordusunun olmasının zəruriliyini bildirərək demişdir: "Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda xaricdən aldığımız silah və texnikanı ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir. Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq".

Beynəlxalq arenada baş verən qlobal siyasi proseslər silahlanmaqla yanaşı, praqmatik diplomatiyanı, dünyada real güc sahibi olan dövlətlərlə yaxın münasibətlərin qurulmasını tələb edir. Co Bayden administrasiyası Azərbaycana qarşı apardığı neqativ siyasəti ilə yadda qaldı. Onun prezidentliyi dövründə ölkəmizə qarşı qərəzli münasibət sərgiləndi. Ermənistan-Azərbaycan münaqişəsində beynəlxalq hüquqa görə ölkəmiz haqlı olduğu halda ermənipərəst siyasət aparıldı, işğalçını qınamaq əvəzinə işğala məruz qalan Azərbaycana qarşı sanksiyalar, siyasi təzyiqlər göstərildi. İş o yerə çatdı ki, ABŞ-nin qərəzli münasibəti üzündən iki ölkə arasında münasibətlər, yumşaq desək, xeyli sərinlədi.

Azərbaycan-ABŞ siyasi, hərbi və iqtisadi əlaqələrə mane olan əsas sənəd bədnam 907-ci düzəlişdir. Bu sənəd 1992-ci ildə elə Co Bayden və onun kimi erməni lobbiçilərinin fəal iştirakı ilə qəbul edilmişdir. Bədnam düzəliş üstəlik, ABŞ administrasiyasını ölkəmizlə siyasi, hərbi və iqtisadi əlaqələr qurmasını əngəlləyirdi.

Amma dünya ədalətdən xali deyil. Donald Tramp ikinci dəfə hakimiyyətə gəldikdən sonra ABŞ Cənubi Qafqaz və Azərbaycanla bağlı aparılan yanlış siyasətdən imtina etdi. Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibəsində Donald Trampın ölkəmizlə qurduğu siyasi münasibətləri yüksək qiymətləndirərək demişdir: "Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə. Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır.

Bundan başqa, Amerika ilə Azərbaycan arasında strateji işçi qrupunun yaradılması sənədi imzalanmışdır. Bu işçi qrupunun əsas fəaliyyəti strateji tərəfdaşlıq xartiyasını hazırlamaqdır və artıq bu istiqamətdə də fəal iş başlamışdır. Təbii ki, uzun illər arzuladığımız Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz həmin gün reallaşdı".

İki ölkə arasında münasibətlərin istiləşməsində Vaşinqtonun Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanmasında vasitəçi olması önəmli rol oynadı. Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ-nin şahidliyi ilə Ermənistanla Azərbaycan arasında Zəngəzur dəhlizinin açılması barədə sənəd də imzalandı. Ölkəmiz və dünya üçün önəmli olan Orta dəhlizin bir qolu onun Zəngəzur dəhlizinin açılması barədə razılığa gəlinməsi tarixi bir hadisə idi. Bu razılığın əldə olunmasında göstərdiyi böyük dəstəyə görə dəhlizə Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu (TRIPP) adının verilməsi də ədalətlidir.

Yaşadığımız bu gərgin dövrdə dünyanın supergücü olan ABŞ ilə strateji əlaqələrin qurulmasının ölkəmiz üçün böyük əhəmiyyəti var. Ən azından Co Bayden administrasiyası dövründəki neqativ münasibətlərdən sığortalanmışıq, üstəlik, iki ölkə münasibətləri gələcəkdə üst səviyyəyə qaldırmaq barədə qərarlıdır. Bu da ölkəmizə dünya siyasətində xüsusi status qazanmağa imkan verir.

Prezident İlham Əliyevin apardığı xarici siyasət çoxvektorludur. Təkcə Qərb ölkələri ilə deyil, bizimlə əməkdaşlıq etmək istəyən bütün dövlətlərlə milli mənafeyimizə uyğun əlaqələr qururuq. Bu gün Azərbaycanın həm də güclü iki hərbi müttəfiqi var - Türkiyə ilə Pakistan. Hər iki ölkə dünyada böyük hərbi güc sayılır. Ordumuzun silahlanmasında və hərbi personalımızın güclənməsində bu iki qardaş ölkənin böyük rolu var. Bu isə indiki gərgin vaxtda hərbi güvənliyimizin daha etibarlı olması deməkdir. Bu barədə Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibəsində demişdir: "...bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi dünya mediasının diqqət mərkəzindədir




**Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi dünya mediasının diqqət mərkəzindədir.**

AZƏRTAC-ın xəbərinə görə, nüfuzlu "Reuters" agentliyinin, ABŞ-nin "US News", "The Straitstimes", "Econotimes" qəzetlərinin, "Global Banking and Finance" internet resursunun, habelə beynəlxalq analitik portal olan "Al-Monotor"un dərc etdiyi "Azərbaycan Qəzzaya sülhməramlı kontingent göndərməyəcək" sərlövhəli xəbərlərdə qeyd olunur ki, Prezident İlham Əliyev Azərbaycan hərbçilərinin ölkənin hüdudlarından kənarda heç bir hərbi əməliyyatlarda iştirak etmədiyini və bunun gələcəkdə də nəzərdə tutulmadığını bildirib. Materialda bununla bağlı yanlış məlumatları təkzib edən dövlətimizin başçısının sözləri sitat gətirilir: "Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur".

Türkiyənin aparıcı media orqanları da Azərbaycan Prezidentinin yerli televiziya kanallarına verdiyi müsahibəni geniş şəkildə işıqlandırıb. Qardaş ölkənin televiziya kanalları, xəbər agentlikləri və qəzetləri Azərbaycan liderinin Türk Dövlətləri Təşkilatı çərçivəsində müdafiə əməkdaşlığının vacibliyi ilə bağlı fikirlərinə, eləcə də Prezident İlham Əliyevin Türkiyə ilə müttəfiqlik əlaqələrinin dərinləşdirilməsi ilə bağlı açıqlamalarına diqqət yetiriblər.

Azərbaycan Prezidentinin türk dövlətləri ilə münasibətlərin inkişafı ilə bağlı mövqeyi də diqqət mərkəzində olub.

Xəbərlərdə və reportajlarda dövlətimizin başçısının qlobal proseslər, Zəngəzur dəhlizinin işə salınması və Ermənistanla münasibətlərin normallaşdırılması da daxil olmaqla müxtəlif cari məsələlərə dair fikirləri də yer alıb.

Gürcüstan mediası da Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəni geniş şəkildə işıqlandırıb.

Nüfuzlu "resonancdaily.com", "bpn.ge", "interpress.ge", "qafqazturk.com", "aktual.ge", "24news.ge", "realnews.ge" informasiya portalları, eləcə də "1tv.ge" televiziyası və onun rəsmi internet saytı mövzu ilə bağlı silsilə xəbərlər yayımlayıb.




Əksəriyyəti AZƏRTAC-a istinadla yayılan xəbərlərdə və reportajlarda dövlətimizin başçısının Qəzzaya sülhməramlı qüvvələrin göndərilməyəcəyi, Zəngəzur dəhlizinin işə salınması, Çindən və Orta Asiyadan yüklərin bu dəhliz vasitəsilə daşınması, eləcə də qlobal proseslər və Ermənistanla münasibətlərin normallaşdırılması da daxil olmaqla müxtəlif cari məsələlərə dair fikirləri də yer alıb.

Yaxın Şərqin ortaq portalı olan "Salem", həmçinin "Europa Press" qəzetinin materiallarında qeyd olunur ki, Prezident İlham Əliyev Bakıda Azərbaycan hökumətinin maliyyə dəstəyi ilə Fələstinin səfirliyinin də fəaliyyət göstərdiyini qeyd etməklə yanaşı, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özlərinin həll etməli olduğunu bildirib. Prezident əlavə edib: "Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-nin BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz".

Nüfuzlu "əş-Şarq əl-Avsət", "əl-Quds əl-Arabi", "əl-Dustur", "əl-Şuruq", "samanyus", eləcə də Fələstinin informasiya portalları, bir sıra televiziya kanalları mövzu ilə bağlı silsilə xəbərlər yayımlayıb.

Ərəb mediasında yayılan xəbərlərdə və reportajlarda dövlətimizin başçısının Azərbaycanın Qəzzada sülhməramlı qüvvələrin tərkibində iştirakla bağlı mövqeyi, eləcə də qlobal proseslər və ABŞ-la münasibətlər əsas diqqət mərkəzində olub.

İspandilli "Demcrata", "Notimersa", "Portaltela", "Teleprensa", "İtongadol", "İnfobae" agentlik və portallarında dərc olunan xəbərlərdə də Azərbaycanın dövlət başçısının Qəzzada hər hansı əməliyyatlarda iştirak etməyin qeyri-mümkün olması ilə bağlı fikirləri yer alıb. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycan sülhməramlılarının əvvəllər Kosovo və Əfqanıstanda sülhməramlı missiyalar zamanı da heç bir hərbi əməliyyatda iştirak etmədiyini diqqətə çatdırıb.

Beynəlxalq iqtisadiyyat portalı "İnvesting.com", İsrailin "The Jerusalem Post", "Israelhayom", "Time of Israel" qəzetləri, rus dilində nəşr olunan "Vesti İzrail" portalı, Bolqarıstanın "Dnevnik" nəşri, Yunanıstanın "Skai" internet resursu da Azərbaycan Prezidentinin Yaxın Şərqdə münaqişələrə dair fikirlərini dərc edib. Materiallarda qeyd olunub ki, Prezident İlham Əliyev Qəzza zolağına sülhməramlıların göndərilməsi ilə bağlı yayılan yanlış məlumatları təkzib edib və bu xəbərlərin ilk mənbəyi olan ABŞ tərəfinə diplomatik kanallarla 20 sualdan ibarət müraciət çatdırdığını, həmçinin bununla bağlı təəssüfləndiyini bildirib.

Prezident İlham Əliyevin müsahibəsindəki əsas məqamlara Pakistanın "Ummat", "Dawn", Hindistanın "Shafaqna India", İranın "Mehr" agentliyi, "Tahlil İran" və "Vista" portallarının dərc etdikləri materiallarda da geniş yer verilib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı öz ölkəsinin Fələstinlə bağlı İslam Əməkdaşlıq Təşkilatının qərarlarına qoşulduğunu bildirib, amma Qəzzada, ümumiyyətlə, hər hansı xarici məkanda heç bir əməliyyatlarda iştirakın nəzərdə tutulmadığını bəyan edib.

# Leyla Əliyeva Maskatda Oman Sultanlığının Vəliəhdi Sayyid Theyazin bin Haitham Al Saidlə görüşüb

**Leyla Əliyevanın Omana səfəri davam edir. AZƏRTAC xəbər verir ki, Omana səfəri çərçivəsində Leyla Əliyeva Oman Sultanlığının Vəliəhdi, mədəniyyət, idman və gənclər naziri Sayyid Theyazin bin Haitham Al Saidlə görüşüb.**

Leyla Əliyeva Azərbaycanda mədəniyyətin və tarixi irsin qorunması, təbliği, eləcə də gənclər və idman siyasəti ilə bağlı dövlət tərəfindən həyata keçirilən ardıcıl tədbirlərdən danışıb. Oman Sultanlığının Vəliəhdi Azərbaycan ilə əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirib.

Görüşdə Azərbaycan ilə Oman arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluq bildirilib, münasibətlərimizin gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə edilib.



# Leyla Əliyeva Maskatda Sultan Qabus Böyük Məscidini də ziyarət edib





**Maskata səfəri çərçivəsində Leyla Əliyeva Sultan Qabus Böyük Məscidini də ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, mərhum Sultan Qabus bin Səidin təşəbbüsü ilə inşa edilən və 2001-ci ildə açılan məscid ölkənin ən möhtəşəm dini-memarlıq abidələrindən biridir. Təxminən 20 min nəfərin ibadət edə bildiyi məscid Maskatın memarlıq rəmzinə çevrilib.

# Leyla Əliyeva Maskat şəhərində Omanın Turizmin İnkişafı Şirkəti tərəfindən həyata keçirilən layihələrlə tanış olub









Leyla Əliyeva Maskat şəhərində Omanın Turizmin İnkişafı Şirkətində ("OMRAN" - "Oman Tourism Development Company") bu qurum tərəfindən həyata keçirilən layihələrlə tanış olub. AZƏRTAC xəbər verir ki, 2005-ci ildə yaradılmış bu şirkət Sultanlığın əsas turizm inkişaf şirkətlərindən biridir və ölkənin turizm imkanlarını dünya səviyyəsində tanıtmaq, onun iqtisadiyyatını şaxələndirmək məqsədi daşıyır.

# Leyla Əliyeva Maskatda Omanın Kiçik və Orta Müəssisələrin İnkişafı Qurumunun sədri ilə görüşüb

**Leyla Əliyeva Oman Sultanlığının Kiçik və Orta Müəssisələrin İnkişafı Qurumunun sədri Hayma Al Zari ilə də görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Oman arasında kiçik və orta sahibkarlığın inkişafı, qadınların iqtisadi fəallığının artırılması, gənclərin biznes təşəbbüslərinin dəstəklənməsi və innovasiyayönümlü layihələrin təşviqi məsələləri müzakirə olunub.

Leyla Əliyeva Azərbaycanda qeyri-neft sektorunun, o cümlədən sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən dövlət proqramlarından və ictimai təşəbbüslərdən danışıb.

Hayma Al Zari Omanın Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu deyib. Söhbət zamanı biznes nümayəndələri arasında birbaşa əlaqələrin qurulması və gələcəkdə konkret əməkdaşlıq mexanizmlərinin formalaşdırılması barədə razılıq əldə olunub.





**Qarabağ və Şərqi Zəngəzur bu gün Azərbaycanın ən genişmiqyaslı bərpa və quruculuq layihələrinin həyata keçirildiyi əsas bölgələrə çevrilib. Uzun illər işğal, dağıntı, talan və vandalizmə məruz qalan bu ərazilər indi yeni inkişaf mərhələsinə qədəm qoyub. Viran edilmiş şəhər və kəndlərin yerində müasir yaşayış məntəqələri salınır, infrastruktur yenidən qurulur, sosial və iqtisadi həyat ardıcıl şəkildə canlandırılır. Bu proses təkcə yenidənqurma deyil, həm də tarixi ədalətin bərpası, dövlət gücünün və milli iradənin real təzahürüdür.**



# Bu günün və gələcəyin inkişaf məkanı

## Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq Azərbaycanın qüdrətinin göstəricisidir

Azadlığına qovuşmuş ərazilərdə görülən bütün işlər planlı, mərhələli və uzunmüddətli strateji yanaşmaya əsaslanır. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr Azərbaycanın daxili imkanları hesabına maliyyələşdirilir və bu fakt ölkənin iqtisadi dayanıqlılığını açıq şəkildə nümayiş etdirir. Bu miqyasda quruculuq işlərinin qısa müddətdə aparılması yalnız güclü siyasi iradə, səmərəli idarəetmə və milli həmrəylik sayəsində mümkün olub. İşğal dövründə bu torpaqlar məqsədli şəkildə dağıdıldığına görə bərpa prosesinin miqyası daha genişdir. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində həmin dövrün acınacaqlı mənzərəsini xatırladaraq deyib: "İşğal dövründə oradakı vəziyyət acınacaqlı idi. Siz hamınız - Azərbaycan vətəndaşları o bölgələrdə olarkən, xüsusilə işğaldan azad ediləndən sonrakı ilk aylar ərzində görürdük ki, vəziyyət çox acınacaqlı idi. Hətta mən özüm də dəfələrlə orada olarkən özümə sual verirdim: bəs bu qədər milyonlar, yüz milyonlarla telemarafonlar, - ermənilər hər il yüz milyonlarla pul yığırdılar, - bu pul hara gedirdi? Mən onu orada görmədim".

Bərpa strategiyasının ilk mərhələsində bölgələrarası bağlantıların yaradılması prioritet vəzifə kimi müəyyən edilmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində azad edilmiş ərazilər artıq mərkəzi infrastrukturla faktiki olaraq birləşdirilib. Enerji sahəsində yaradılan dairəvi sistem Qarabağ və Şərqi Zəngəzuru istehlakçıdan istehsalçıya çevirib. Son beş il ərzində 307 meqavat gücündə su-elektrik stansiyalarının yaradılması bölgənin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ölkə üzrə enerji balansına da töhfə verir.

Su təchizatı məsələsi bərpa prosesinin əsas dayaqlarından biridir. Prezident İlham Əliyevin vurğuladığı kimi, su təchizatı olmadan heç kim o torpaqlara köçməz, orada yaşamaz. Bu məqsədlə Sərsəng, Suqovuşan, Köndələnçay və Xaçınçay su anbarları əsaslı şəkildə bərpa edilib, Zabuxçay su anbarı isə sıfırdan inşa olunub. Bu layihələr böyük maliyyə vəsaiti və peşəkar işçi qüvvəsi tələb edir. Prezidentin qeyd etdiyi kimi, Kəlbəcər dağlarında sərt iqlim şəraitində elektrik xətlərinin çəkilməsi, körpülərin və onlarla kilometr uzunluğunda tunellərin inşası əsl qəhrəmanlıq nümunəsidir.

Yol-nəqliyyat infrastrukturu da regionun inkişafında həlledici rol oynayır. Artıq bir neçə yol layihəsi icra olunub. O cümlədən Bərdə-Ağdam dəmir yolu xətti bərpa olunub, Ağdam-Xankəndi istiqamətində işlər davam etdirilir. Eyni zamanda Cəbrayıl, Laçın, Kəlbəcər, Hadrut və Şuşanı birləşdirən avtomobil yolları və magistrallar inşa edilir. Şuşa-Laçın yolunda yeni tunellərin istifadəyə verilməsi isə məsafəni xeyli qısaldaraq hərəkət müddətini 20-25 dəqiqəyə endirib. Bu, region daxilində mobilliyi artırır, əmək bazarının genişlənməsinə və sosial əlaqələrin möhkəmlənməsinə şərait yaradır.

Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının istifadəyə verilməsi Qarabağ və Şərqi Zəngəzurun regional və beynəlxalq əhəmiyyətini daha da artırıb. Bu hava limanları bölgənin iqtisadi, turizm və logistika potensialının inkişafında mühüm rol oynayacaq. Artıq Xankəndi və Ağdam azad edilmiş ərazilərin əsas şəhərlərinə çevrilir, ölkənin müxtəlif bölgələrindən insanlar bu şəhərlərə gəlir, işləyir və yaşayırlar.

Bərpa prosesinin mərkəzində insan amili dayanır. "Böyük qayıdış" proqramı çərçivəsində minlərlə keçmiş məcburi köçkün doğma yurdlarına qayıdıb. Prezident İlham Əliyev müsahibəsində qeyd edib ki, insanların təhlükəsiz, layiqli və rahat şəraitdə yaşaması dövlətin əsas prioritetidir. Bu məqsədlə yaşayış evləri ilə yanaşı, məktəblər, uşaq bağçaları, xəstəxanalar, mədəniyyət ocaqları və digər sosial obyektlər paralel şəkildə tikilir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında salınan yaşayış məntəqələri ekoloji tarazlıq və dayanıqlı inkişaf prinsiplərinə əsaslanır.

Qarabağda həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri yalnız infrastrukturun yenidən qurulması ilə məhdudlaşmır, eyni zamanda bölgənin zəngin tarixi və mədəni irsinin dirçəldilməsini də əhatə edir. Uzun illər ərzində məqsədli şəkildə dağıdılmış, təhqir edilmiş məscidlər, dini ziyarətgahlar, tarixi abidələr və qəbiristanlıqlar bu gün dövlətin xüsusi nəzarətindədir və beynəlxalq standartlara uyğun şəkildə bərpa olunur. Hər bir abidənin yenidən qurulması təkcə daş və divarların bərpası deyil, həm də xalqın tarixi yaddaşının, milli kimliyinin və mənəvi dəyərlərinin yenidən canlandırılması deməkdir.

Bu proses tarixi ədalətin bərpası baxımından da mühüm əhəmiyyət daşıyır. İşğal dövründə məqsədli şəkildə vandalizmə məruz qalmış mədəni irs nümunələrinin bərpası dünyaya Azərbaycanın öz tarixinə, irsinə və dəyərlərinə necə həssas yanaşdığını nümayiş etdirir. Eyni zamanda Qarabağda təkcə islam mədəni irsinə deyil, digər dinlərə və mədəniyyətlərə aid abidələrin də qorunması Azərbaycanın multikulturalizm siyasətinin real təzahürüdür. Bu torpaqlarda əsrlər boyu formalaşmış birgəyaşayış ənənələrinin bərpası dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilər yalnız iqtisadi və sosial baxımdan deyil, həm də mənəvi və mədəni baxımdan yenidən dirçəlir. Tarixi abidələrin bərpası gələcək nəsillərə keçmişin dərslərini ötürmək, milli-mənəvi dəyərləri yaşatmaq və bölgəni sülh, tolerantlıq və mədəni müxtəlifliyin məkanına çevirmək məqsədi daşıyır. Bu yanaşma Qarabağın gələcək inkişafının möhkəm mənəvi təməl üzərində qurulduğunu bir daha təsdiqləyir.

Qarabağ və Şərqi Zəngəzur keçmişin ağrılı xatirələrindən bu günün və gələcəyin inkişaf məkanına çevrilir. Burada həyata keçirilən bərpa və quruculuq işləri sübut edir ki, Azərbaycan dövləti öz torpaqlarının sahibidir və bu torpaqlarda əbədi yaşayacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Vilayət Eyvazov Quba rayonunda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvarın 5-də və 6-da Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Quba rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra polis şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 276 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

General-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 223 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Azərbaycan"*

# 907-ci düzəlişin icrasının dayandırılması Prezident İlham Əliyevin siyasi uğurudur

**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində "Azadlığa Dəstək Aktı" barədə və ABŞ-Azərbaycan münasibətlərinə dair fikir bildirib. O, müxtəlif dövrlərdə ABŞ administrasiyaları tərəfindən 907-ci düzəlişin Azərbaycana təzyiq vasitəsi kimi istifadə edildiyini və bu düzəlişin tamamilə ləğvinin labüdlüyünü əsaslandırıb. Torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə ABŞ Konqresi Azərbaycanın guya Ermənistana "blokada" tətbiq etməsini bəhanə kimi göstərərək, Azərbaycana ABŞ-dən dövlət yardımının göstərilməsini qadağan edən düzəlişi təsdiqləyib.**



Bunu AZƏRTAC-a müsahibəsində Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib.

"Aktın 907-ci maddəsi Birinci Qarabağ müharibəsindən başlayaraq 30 il ərzində müxtəlif dövrlərdə Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olunub. Dövlətimizin başçısı isə bu prosesdə xüsusi aktiv olan şəxsin o dövrdə senator kimi, sonra vitse-prezident, daha sonra Prezidentliyi dövründə Co Bayden olduğunu bildirib. Belə ki, Bayden administrasiyası Əfqanıstan əməliyyatlarından sonra nankorcasına 907-ci düzəlişi yenidən canlandırıb, bunu Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıb. Ancaq Azərbaycan Əfqanıstan missiyasına erkən qoşulan, hərbi kontingent göndərən və onu artıran, eyni zamanda ABŞ üçün həyati əhəmiyyət daşıyan nəqliyyat-logistika dəstəyini təmin edən etibarlı tərəfdaş olub. Buna baxmayaq, ABŞ qoşunları Əfqanıstanı tərk etdikdə Azərbaycanın dəstəyi heç olmamış kimi unudulub. Aktın 907-ci düzəlişinin, sonrakı dövrlərdə dərin ikili standartlarla Azərbaycana qarşı görülən tədbirlər və təşəbbüslərin həmmüəllifləri arasında ermənipərəst Senator Bob Memendez və Frank Peloni kimi şəxslər də olub. Onlar müxtəlif dövrlərdə 907-ci düzəlişin dayandırılması və ləğvinin Prezident səlahiyyətlərindən çıxarılmasına çalışıblar. Bob Menendez həmçinin uzun illər ərzində Azərbaycan haqqında mənfi narrativlərin formalaşdırılmasında mərkəzi rol oynayıb. ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri kimi o, ABŞ-Azərbaycan əməkdaşlığına ardıcıl şəkildə qarşı çıxıb, 907-ci düzəlişlə bağlı məhdudiyyətləri qətiyyətlə dəstəkləyib, açıq şəkildə Azərbaycanı insan hüquqlarının pozulmasında və aqressiyada ittiham edib. B.Menendez sonradan federal səviyyədə rüşvət və korrupsiya ittihamları ilə məhkum edilib və siyasi etibarlılığını birdəfəlik itirib. Frank Peloni də ABŞ Konqresində, xüsusilə də qanunvericilik müstəvisində, Azərbaycanla bağlı mənfi siyasi narrativin formalaşdırılmasında ən fəal fiqurlardan biri olub. Ermənipərəst konqres üzvü kimi tanınan F.Peloni erməni diasporu səbəbindən daim birtərəfli qaydada Azərbaycana qarşı lobbi aparıb. 2020-ci il Vətən müharibəsi zamanı və sonrakı mərhələlərdə Azərbaycanın əleyhinə sərt mövqedən çıxış edib", - deyə deputat vurğulayıb.

P.Vəliyeva 2025-ci il avqustun 8-də Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin yeni səviyyəyə yüksəldiyini deyib. O qeyd edib ki, Vaşinqtonda imzalanan Birgə Bəyannamə bunun əyani sübutudur. "Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında qurulan uğurlu əməkdaşlığın nəticəsi olaraq "Azadlığa Dəstək Aktı"nın 907 saylı düzəlişinin icrasını dayandıran sənəd imzalanıb. Həmçinin Azərbaycan-ABŞ strateji tərəfdaşlığı enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə, müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsi olmaqla üç əsas istiqaməti əhatə edir. Strateji İşçi Qrupu isə regional bağlantılar infrastrukturunun və enerji sahəsində sərmayələrinin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilədilməsi, həmçinin süni intellektin inkişafı kimi vacib məsələlərlə məşğul olacaq. ABŞ-Azərbaycan strateji tərəfdaşlığı ABŞ texnologiyasının və sərmayəsinin ölkəmizə gəlməsi, ABŞ-nin ölkəmizdəki iqtisadi fəallığı deməkdir", - deyə deputat əlavə edib.

# Azərbaycan həm iqtisadi, həm də hərbi baxımdan güclənib



**Azərbaycan Prezidenti İlham Əliyev həm Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində, həm də yanvarın 5-də yerli televiziyalara verdiyi müsahibəsində müasir dünyada güc amilinin oynadığı rol ilə bağlı fikirlərini səsləndirdi. Dövlət başçısı bildirdi ki, onun sözləri indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir.**

Milli Məclisin deputatı Elman Nəsirov qəzetimizə açıqlamasında xatırladıb ki, Prezident İlham Əliyev bügünkü dünyada "kim güclüdür, o haqlıdır" prinsipinin işlədiyini deyib: "Ölkə rəhbəri, xüsusilə vurğuladı ki, Azərbaycan Vətən müharibəsində güc faktoru hesabına qalib gəlib. Çünki uzun bir tarixi dövrdə beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək torpaqlarımızın işğaldan azad olunması ilə bağlı danışıqlar aparsaq da, qarşı tərəf danışıqlara yalnız vaxt uzatmaq üçün yanaşıb, onların bizim torpaqları sülh yolu ilə qaytarmaq fikri olmayıb. ATƏT-in Minsk qrupu da sadəcə bu münaqişəni dondurmaqla məşğul idi".

Deputat qeyd edib ki, Azərbaycan müntəzəm şəkildə həm iqtisadi, həm də hərbi baxımdan güclənib. Güc faktoru və siyasi yolla torpaqlarımızın azadlığını, suverenliyimizi təmin etdik. Dünyada baş verən son hadisələr də bu faktı bir daha təsdiqləyir ki, güc amili həlledicidir.

Prezident İlham Əliyevin təsdiqlədiyi 2026-cı ilin dövlət büdcəsində də eyni yanaşmanın şahidi oluruq. 2025-ci ilə Azərbaycanın hərbi və təhlükəsizlik büdcəsi 8,4 milyard manat təşkil edirdisə, 2025-ci ildə daha 318 milyon manat əlavə edilərək, bu rəqəm 8,7 milyard manata çatıb. Bu, çox yüksək göstəricidir, həm də onun təsdiqidir ki, güc həlledici amildir. "Güclüsənsə heç kimin sənin torpağında gözü ola bilməz. Bu məntiqlə də bu gün Azərbaycanın hərbi təhlükəsizlik büdcəsi formalaşdırılıb və bizim 41 milyard 700 milyonluq xərclərimizin 21 faizi məhz bu istiqamətə ayrılıb. Bu, həm də onun ifadəsidir ki, biz həmişə güclü olmalıyıq. Bu gün dünyada gedən poseslər də, ayrı-ayrı böyük dövlətlərin davranışları da göstərir ki, indiki dünya düzənində hüququn gücü deyil, gücün hüququ işləyir. Prezident İlham Əliyev bu reallığı dəfələrlə öz çıxışlarında bildirib. Ölkə rəhbərinin sözləri praktiki baxımdan da həyatda təsdiqini tapır", - deyə E.Nəsirov bildirib.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

*Türkiyəli ekspert:*

## "Azərbaycan-Türkiyə xətti Avropa üçün strateji dayağa çevrilir"



**"Müasir dövrdə qlobal enerji siyasətləri sürətlə şaxələnir və enerji resurslarına sahiblik dövlətlərin geosiyasi mövqeyini müəyyən edən əsas amillərdən biri olaraq qalır".**

Bunu AZƏRTAC-a açıqlaması zamanı Türkiyənin Qaziantep Universitetinin professoru Ali Fuat Gökçe deyib.

Onun sözlərinə görə, Birinci Dünya müharibəsinin, əsasən, kömür enerji mənbələrinə nəzarət uğrunda aparılması, İkinci Dünya müharibəsinin isə hidrokarbon enerji resurslarına sahib olmaq mübarizəsi fonunda baş verdiyi nəzərə alınarsa, enerji qaynaqlarının strateji əhəmiyyəti aydın şəkildə görünür.

"Hazırda dünya yeni mərhələyə qədəm qoyub və bu mərhələdə kritik minerallar və nadir torpaq elementlərinə sahiblik uğrunda rəqabət aparıcı güclər arasında qarşıdurmanı dərinləşdirir. Kritik minerallar və nadir torpaq elementlərinin sənaye məhsullarına çevrilməsi üçün yüksək texnologiyalı avadanlıqlara, həmin avadanlıqların işləməsi üçün isə məhz neft və təbii qaz kimi hidrokarbon enerji mənbələrinə ehtiyac var. Bu baxımdan hidrokarbon enerji hələ də qlobal enerji sisteminin əsas dayaqlarından biri olaraq qalır", - deyə A.F.Gökçe qeyd edib.

Ekspert bildirib ki, Azərbaycanın zəngin neft və təbii qaz ehtiyatlarına malik olması ölkəni strateji baxımdan son dərəcə mühüm mövqeyə yüksəldir: "Avropada müşahidə olunan enerji çatışmazlığı qitə ölkələrini asılı vəziyyətə salır. Maliyyə imkanlarının mövcudluğuna baxmayaraq, enerji resurslarının məhdudluğu Avropa dövlətlərinin müstəqil və çevik strateji qərarlar qəbul etməsini çətinləşdirir. Məhz bu səbəbdən Avropa uzunmüddətli perspektivdə enerji ehtiyaclarını təmin edə biləcək etibarlı, hidrokarbon baxımından zəngin tərəfdaşlar axtarır və Azərbaycan bu tələblərə tam cavab verir", - deyə professor vurğulayıb.

Ali Fuat Gökçe sonda əlavə edib ki, Azərbaycan qazının Türkiyə üzərindən Avropa bazarlarına çatdırılması iki qardaş ölkənin koordinasiyalı şəkildə hərəkət etməklə Avropa üçün mühüm enerji və təhlükəsizlik aktorlarına çevrildiyini nümayiş etdirir.



# ABŞ-Azərbaycan əlaqələrində tarixi mərhələ

**Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq münasibətlərinin 33 ildən artıq tarixi var. Lakin iki ölkənin əlaqələrinin hazırda özünün ən yüksək mərhələsini yaşadığı da danılmaz reallıqdır. Çünki müstəqilliyini yenicə qazanan ölkəmizin işğal faktı ilə üz-üzə qaldığı ağır dövrdə "Azadlığa Dəstək Aktı"na edilən 907-ci düzəliş kimi ədalətsiz qərar ötən dövrdə Vaşinqton-Bakı münasibətlərinin üstünə daim kölgə salırdı. Bu münasibətlər Bayden-Blinken administrasiyasının fəaliyyəti dövründə isə siyasi böhran həddinə çatmışdı.**

Amerika-Azərbaycan arasında ikitərəfli əlaqələr yalnız Prezident Donald Trampın Ağ Evə hər iki rəhbərliyi dönəmində müsbət dinamika qazanmışdı. Ağ Ev rəhbəri Donald Tramp və Prezident İlham Əliyev arasındakı səmimi dostluq münasibətlərindən bəhrələnərək inkişaf edən bu əlaqələr liderlərin xüsusi səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməkdədir.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan-Amerika münasibətlərindən geniş bəhs edən Prezident İlham Əliyev bu kontekstdə 2025-ci ilin tarixi il sayıla biləcəyini vurğuladı: "Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar".

## Ölkəmizlə əməkdaşlıq ABŞ üçün də önəmlidir

Donald Tramp administrasiyasının obyektiv və konstruktiv fəaliyyəti ilə Azərbaycan-ABŞ münasibətləri çoxşaxəli inkişaf mərhələsinə qədəm qoyub.

Ötən ilin 7-8 avqust tarixlərində Prezident İlham Əliyevin Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin olduqca zəngin və məhsuldar keçməsi də ölkələrimiz arasında əlaqələrin qarşılıqlı etimada, dostluğa dayandığını göstərirdi.

Ağ Ev lideri Azərbaycan Prezidentinin Vaşinqtona səfəri zamanı - ötən il 8 avqustda ölkəmizin rəhbərinin III Şuşa Qlobal Media Forumunda özü ilə bağlı etdiyi çıxışını xüsusi jest olaraq yenidən paylaşması da bunu təsdiqlədi.

Ötən il iyulun 19-da III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Donald Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqət çəkən İlham Əliyev vurğulamışdı ki, o, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır.

ABŞ-yə tarixi səfər zamanı Ağ Ev rəhbərinin Prezident İlham Əliyevə xüsusi rəğbət göstərməsi də diqqətlərdən yayınmadı. İstər Ağ Evin rəmzi açarının dövlətimizin başçısına təqdim edilməsi, istərsə də "Azadlığa Dəstək Aktı"na edilən ədalətsiz 907-ci düzəlişdən Azərbaycan Prezidentinin iştirakı ilə oval ofisdə imtina edilməsi rəmzi məna daşıyırdı.

Yerli televiziya kanallarına müsahibəsi zamanı ölkəmizin rəhbəri söylədi ki, Tramp administrasiyası çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə: "Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər".

Prezident İlham Əliyevin ötən il Vaşinqtona etdiyi tarixi səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı. Azərbaycan-ABŞ strateji tərəfdaşlığı - enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə, müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq kimi üç istiqaməti əhatə edir.

Müsahibəsində dövlətimizin rəhbəri söylədi ki, uzun illər arzuladığımız Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz 8 avqust tarixində reallaşdı: "Yəni Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir".

## Ağ Ev Azərbaycanın sülh səylərini daim dəstəkləyir

ABŞ Azərbaycanın regionda sülh səylərini də daim dəstəkləyir. Bu baxımdan, ötən ilin 8 avqust tarixində Ağ Evdə Ermənistanla normallaşma prosesi çərçivəsində əldə olunan razılaşmalar, Birgə Bəyannamənin imzalanması, həmçinin sülh sazişi mətninin paraflanması mühüm əhəmiyyətə malik oldu.

Dövlətimizin başçısı söylədi ki, keçən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi, əlbəttə ki, investisiyalar üçün, xüsusilə Amerika Birləşmiş Ştatlarından gələn investisiyalardan danışdıqda böyük imkanlar açır: "Biz bunun üzərində fəal işləyirik. Eyni zamanda Azərbaycanın Birləşmiş Ştatlara yatırdığı investisiyaların artıq müəyyən tarixi var. Biz, əsasən, qiymətli kağızlara investisiya yatırmışdıq. Lakin indi, iki ölkə arasında olan münasibətlərin bu yeni mərhələsindən sonra biz real iqtisadiyyatın layihələrinə investisiya yatırmaq üçün müxtəlif seçimləri nəzərdən keçiririk".

Təbii olaraq, hazırda Azərbaycanın gözləntisi ABŞ Konqresinin ədalətsiz 907-ci düzəlişi tamamilə aradan qaldırması ilə əlaqədardır. 1992-ci ilin oktyabrında qəbul edilən 907-ci düzəliş guya Azərbaycanın Ermənistanı blokadaya salmasına görə idi. Ancaq həmin zaman nəinki Ermənistan blokadada idi, əksinə, yürütdüyü işğal siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası blokada altına düşmüşdü. Ancaq erməni lobbisi və onun əhatə dairəsində olan senator və konqresmenlər belə bir ədalətsiz düzəlişi qəbul etmişdilər.

Sözügedən müsahibəsində bu tarixi faktlara toxunan Prezident İlham Əliyev söylədi ki, ABŞ-nin eks prezidenti Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir: "Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi. Obama-Bayden administrasiyası ilə əlaqələr kifayət qədər məsafəli idi, Bayden-Blinken administrasiyası isə bizim əlaqələrimizi faktiki olaraq böhrana salmışdı".

Prezident İlham Əliyev müsahibəsi zamanı onu da dedi ki, əgər 907-ci düzəlişin formal səbəbi blokada idisə, bu gün bu artıq yoxdur: "...Biz gözləyirik ki, Tramp administrasiyası öz imkanlarından istifadə edərək konqres üzvlərini, xüsusilə Respublikaçılar partiyasının üzvlərini inandıra biləcək ki, bu düzəliş tamamilə aradan qaldırılmalıdır və buna ümid etmək üçün bizim kifayət qədər səbəblərimiz var. Bu gün bu, yenə də simvolik xarakter daşısa da, necə deyərlər, masanı tamamilə keçmişin bu qalıqlarından təmizləmək üçün konqres bunu birdəfəlik ləğv etməlidir".

Göründüyü kimi, Amerika-Azərbaycan əlaqələri özünün tarixi mərhələsini yaşayır və getdikcə dərinləşir. Bu münasibətlər xüsusilə iki ölkə liderinin şəxsi səyləri ilə daha da inkişaf edərək perspektivli gələcək vəd edir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycana dünyada böyük hörmətlə yanaşılır



**Prezident İlham Əliyevin 2025-ci ilin yekunlarına dair müraciəti Azərbaycanın müasir inkişaf mərhələsinin əsas siyasi, iqtisadi, təhlükəsizlik və xarici siyasət prioritetlərini sistemli şəkildə əks etdirən mühüm tezis xarakteri daşıyır. Müraciətdə ötən il ərzində əldə olunmuş nailiyyətlərə diqqət çəkilməklə yanaşı, eyni zamanda ölkənin gələcək inkişaf istiqamətləri və strateji hədəfləri aydın şəkildə ifadə olunur.**

Milli Məclisin deputatı Zaur Şükürov qəzetimizə açıqlamasında bildirib ki, dövlət başçısının müraciətində 2025-ci ilin Azərbaycan üçün ümumilikdə uğurlu il olduğu qeyd edilərək, xalqımızın sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşadığı vurğulanır. Həqiqətən də, bu qiymətləndirmə ölkədə daxili sabitliyin qorunmasını, ictimai-siyasi mühitin dayanıqlılığını və dövlət idarəçiliyinin effektivliyini əks etdirir. "2025-ci il Vətən müharibəsində qazanılmış tarixi zəfərin beşinci ildönümü ilə də əlamətdar olub. Prezidentimiz müraciətində bu məsələyə xüsusi yer ayıraraq, Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi qələbəmizin bizimlə əbədi olacağını qeyd etdi. Otuz ilə yaxın davam etmiş işğala son qoyan, ərazi bütövlüyümüzün və suverenliyimizin tam şəkildə bərpası ilə nəticələnmiş bu zəfərin Azərbaycan xalqının milli ləyaqətinin və tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət daşıyır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Zəfərin beşinci ildönümü münasibətilə keçirilmiş hərbi parad Azərbaycan Silahlı Qüvvələrinin son illər ərzində keçdiyi inkişaf yolunu nümayiş etdirib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, son beş il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırıb. Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni silah və texnikanın istismara verilməsi, eləcə də şəxsi heyətin peşəkarlığının artırılması nəticəsində Azərbaycan Ordusu bu gün istənilən vəzifəni yerinə yetirmək iqtidarındadır. Xüsusi təyinatlı qüvvələrin sayının artırılması və komando qüvvələrinin formalaşdırılması ordunun döyüş qabiliyyətinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini göstərir. Bununla yanaşı, Prezident İlham Əliyev Azərbaycanın hərbi siyasətinin müdafiə xarakteri daşıdığını xüsusi vurğuladı. Dövlət başçısının sözlərinə görə, biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Eyni zamanda müraciətdə qeyd olunur ki, müasir beynəlxalq münasibətlər sistemində beynəlxalq hüquq normalarının effektiv işləmədiyi, qlobal miqyasda silahlanma prosesinin genişləndiyi bir şəraitdə hər bir dövlət öz təhlükəsizliyini təmin etməlidir. Bu kontekstdə Azərbaycanın güclü orduya malik olması milli təhlükəsizliyin əsas təminatçısı kimi dəyərləndirilir.

Deputatın sözlərinə görə, Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycanın əsas prioritetlərindən biri əldə edilmiş zəfərin beynəlxalq-siyasi müstəvidə möhkəmləndirilməsi olub: "Bu istiqamətdə aparılan ardıcıl siyasət nəticəsində Azərbaycanın haqlı mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün mandat verilmiş, lakin səmərəli fəaliyyət göstərməmiş Minsk qrupu və əlaqəli orqanların ləğv edilməsi və Qarabağ məsələsinin beynəlxalq gündəlikdən çıxarılması məhz bu siyasətin məntiqi nəticəsidir. Azərbaycan qalib dövlət kimi regionda davamlı sülhün təmin olunmasında maraqlı olduğunu bəyan edib və Ermənistana sülh təşəbbüsü ilə çıxış edib. Prezident İlham Əliyev bu mövqeni belə ifadə edir: "Biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur". Ermənistanla paraflanmış sülh müqaviləsi Cənubi Qafqazda uzunmüddətli sabitliyin yaradılması baxımından mühüm siyasi hadisə kimi dəyərləndirilir".

Z.Şükürov qeyd edib ki, müraciətdə Azərbaycanın xarici siyasət sahəsində əldə etdiyi nailiyyətlərə də toxunulur. 2025-ci ildə ölkəmizin D-8 beynəlxalq təşkilatına üzv qəbul edilməsi, həmçinin Orta Asiya ölkələrinin Məşvərət Şurasında tamhüquqlu üzv statusu qazanması Azərbaycanın beynəlxalq nüfuzunun artdığını göstərir. "Prezident İlham Əliyev də bildirdi ki, bu faktlar Azərbaycana dünyada böyük hörmətlə yanaşıldığını bir daha təsdiqləyir. Ölkədə keçirilmiş beynəlxalq tədbirlər də Azərbaycanın regional və qlobal əməkdaşlıq platformalarında fəal rol oynadığını nümayiş etdirir. Xankəndidə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü və Qəbələdə təşkil olunmuş Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü Azərbaycanın həm regional, həm də türk dünyası miqyasında əməkdaşlıq proseslərinə verdiyi töhfənin göstəricisidir", - deyə o əlavə edib.

İqtisadi sahədə əldə edilmiş nəticələrin müraciətdə xüsusi yer tutduğunu diqqətə çatdıran deputat deyib ki, Prezident İlham Əliyev Azərbaycanın valyuta ehtiyatlarının 80 milyard dolları ötərək tarixi maksimum səviyyəyə çatdığını bildirib: "Xarici borcun ÜDM-in 6,3 faizini təşkil etməsi ölkənin maliyyə dayanıqlılığını və iqtisadi müstəqilliyini nümayiş etdirir. Prezidentin qeyd etdiyi kimi, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir. Bu göstəricilər beynəlxalq reytinq agentlikləri tərəfindən də müsbət qiymətləndirilib və Azərbaycanın kredit reytinqi yüksəldilib. Nəticə etibarilə, Prezident İlham Əliyevin 2025-ci ilin yekunlarına dair müraciəti Azərbaycanın güclü dövlətçilik əsaslarına malik olduğunu, müstəqil və milli maraqlara əsaslanan siyasət yürütdüyünü və gələcəyə inamla baxdığını bir daha nümayiş etdirir".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Ötən il Türkiyədən Azərbaycana olan məhsul ixracının həcmi açıqlanıb

**Ötən il Türkiyədən Azərbaycana 2,4 milyard dollarlıq məhsul ixrac edilib.**

AZƏRTAC xəbər verir ki, bu göstərici 2024-cü ilin göstəricisi (3,1 milyard dollar) ilə müqayisədə 7 milyon dollar və ya 22,6 faiz azdır. 2025-ci ildə Türkiyənin qonşuları Azərbaycan, Bolqarıstan, Gürcüstan, İraq, İran, Suriya və Yunanıstana ixracı əvvəlki illə müqayisədə 4,6 faiz artımla 28 milyard 352 milyon 370 min dollara çatıb. Bu rəqəm 2024-cü ildə 27 milyard 92 milyon 772 min dollar təşkil edib.

Türkiyənin ən çox məhsul ixrac etdiyi ölkə 10,3 milyard dollarla İraq olub. Daha sonra siyahıda 4,7 milyard dollarla Bolqarıstan, 3,5 milyard dollarla Yunanıstan və 2,6 milyard dollarla Suriya qərarlaşıb.



2025-ci ildə ən yüksək illik ixrac artımı qeydə alınan ölkələr təxminən 70 faizlə Suriya, 6,8 faizlə Bolqarıstan və 4,5 faizlə Yunanıstan olub. İxracda "kimyəvi maddələr və məhsullar" sektoru birinci yeri tutub. Bu sektor üzrə 4 milyard 342 milyon 989 min dollarlıq məhsul ixrac edilib. Ən az ixrac isə 38 milyon 43 min dollarla "dekorativ bitkilər və məhsullar" üzrə qeydə alınıb.

Qeyd edək ki, Naxçıvanla bağlı rəsmi məlumat olmadığı üçün hesablamaya daxil edilməyib.

# Azərbaycan dövlətçiliyinin konseptual inkişaf xəritəsi

## Bu xəritədə hərbi güc diplomatiya ilə, iqtisadi inkişaf sosial ədalətlə, milli birlik qlobal mövqe ilə uzlaşdırılır

**Tarix bəzən hadisələrlə yanaşı, həmin hadisələrin necə ifadə olunması ilə də yazılır. Dünyanın müxtəlif ölkələrində dövlət başçılarının il dəyişikliyi anında xalqa müraciətləri bu baxımdan sadəcə bayram təbriki kimi yox, müəyyən bir dövrün siyasi fəlsəfəsini, ideoloji çərçivəsini və gələcəyə dair strateji baxışı əks etdirən mühüm sənədlər kimi görünür.**

**Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti tarixi Zəfərimizdən sonrakı 5 möhtəşəm ildə formalaşan yeni Azərbaycan reallığının sistemli izahı, dövlətçilik fəlsəfəsinin açıq manifesti kimi yadda qaldı.**

### Vahid ideoloji xətt üzərində

2025-ci il Azərbaycanın müasir tarixində artıq təkcə müharibədən sonrakı bərpa mərhələsi kimi deyil, Zəfərin tam legitimləşdirildiyi, suverenliyin beynəlxalq miqyasda möhkəmləndiyi və dövlətin yeni güc mərhələsinə keçdiyi il kimi dəyərləndirilir. Prezidentin müraciətində bu xətt ardıcıl şəkildə aparılır: daxili sabitlikdən başlayaraq, hərbi gücə, diplomatik qələbədən iqtisadi dayanıqlığa, milli birlikdən qlobal mövqeyə qədər bütün istiqamətlər vahid ideoloji xətt üzərində birləşdirilir.

2025-ci ilin Azərbaycan üçün uğurunu müəyyən edən əsas göstəricilər sülhün, təhlükəsizliyin, əmin-amanlığın qorunaraq daha da möhkəmləndirilməsidir. Bu anlayışlar tarixi Zəfərimizdən sonrakı dövr üçün həssas siyasi göstəriciləridir. Müharibədən çıxmış ölkələr üçün ən böyük çağırış, adətən, daxili sabitliyi qorumaq sayılır. Azərbaycan bu mərhələdə sabitliyi qorumaqla yanaşı, onu inkişafın əsas dayağına çevirə bilmişdir.

Prezident xüsusi olaraq xalq-iqtidar birliyi anlayışını ön plana çəkir və bunu ölkəmizin nailiyyətlərinin əsas amili kimi təqdim edir. Bu vurğu da təsadüfi deyil. Müasir dövlətçilikdə legitimliyin əsas mənbəyi yalnız hüquqi mexanizmlərlə məhdudlaşmır, eyni zamanda məhz ictimai etimada söykənir. Azərbaycan modelində bu ictimai etimad müharibə dövründə formalaşan milli həmrəylik üzərində daha da möhkəmlənmişdir.

Xalq-iqtidar birliyi burada yalnız emosional çağırış kimi nəzərə çarpmır, siyasi sabitliyin institusional əsaslandırılması kimi diqqəti çəkir. Dövlət rəhbərimiz bu birliyi gələcəyin təminatı kimi təqdim edərək 2026-cı ilin də ölkəmiz və xalqımız üçün uğurlu keçəcəyinə əminliyini bildirdi. Bu əminlik əsla ritorik optimizm deyil, əvvəlki nəticələrə əsaslanan siyasi proqnozdur.

### Zəfərin 5 ili - dövlət yaddaşına çevrilən tarix

2025-ci ilin ən mühüm siyasi-simvolik hadisələrindən biri Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfərin beşinci ildönümünün qeyd edilməsi oldu. Dövlətimizin rəhbəri də bu faktı böyük fəxarət hissi ilə xatırladı və vurğuladı ki, bu Zəfər bizimlə əbədi qalacaqdır.

Zəfər təkcə hərbi nəticə olmayıb, artıq Azərbaycan xalqının milli identikliyinin ayrılmaz hissəsidir. Otuz il davam etmiş işğalın sona çatdırılması Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə yanaşı, milli ləyaqətimizin də bərpasıdır.

Cənab İlham Əliyevin təbrik nitqində vurğuladığı digər mühüm məqam ötən illərdə ordu quruculuğu sahəsində görülmüş işlərdir. Zəfərin 5 illiyinə həsr olunmuş hərbi paradda nümayiş etdirilən texnika, silahlı qüvvələrimizdə aparılmış struktur dəyişiklikləri də Azərbaycanın təhlükəsizlik siyasətinin mahiyyətini nümayiş etdirərək həm texnoloji modernləşmə, həm də insan resurslarının gücləndirilməsi baxımından ordumuzun inkişaf nailiyyətlərini göstərir. Yerli istehsal olan silahlardan istifadə ilə xaricdən alınmış müasir texnikanın sintezi Azərbaycanın müdafiə sənayesindəki balanslı yanaşmanın uğurudur. Xüsusi Təyinatlı Qüvvələrin say tərkibinin bir neçə dəfə artırılması, yeni yaradılmış Komando Qüvvələrinin say tərkibinin minlərlə əsgər və zabitdən ibarət olması ordumuzun çevik, peşəkar və yüksək döyüş qabiliyyətinə malik struktur kimi formalaşdırıldığını sübuta yetirir.

Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan qətiyyən yeni müharibəyə hazırlaşmır. Lakin bununla yanaşı, müasir dünyada təhlükəsizliyin yalnız niyyətlə deyil, güclə də qorunduğu reallıqdır. "Kim güclüdür, o da haqlıdır" prinsipinin qlobal səviyyədə yayılması fonunda Azərbaycan öz seçimlərini və suverenliyini qorumağa hazır olmalıdır.

Azərbaycan Prezidenti xalqa müraciətində Vətən müharibəsi zamanı şəhid olmuş hərbçiləri xüsusi ehtiramla xatırladı. Prezident bununla ölkəmizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda etmiş Vətən övladlarının əziz xatirəsinə əbədi hörmətlə şəhidlərimizə ehtiram yaddaşını dövlətin kollektiv şüurunun bir hissəsinə çevirmiş oldu. Bu, postmüharibə dövründə milli kimliyin konsolidasiyası baxımından son dərəcə mühüm məqamdır.

### Bu gün bütün dünya Azərbaycanın haqlı olduğunu qəbul edir

Tarixdə hərbi qələbələr çox baş verib. Ancaq hərbi qələbəni beynəlxalq hüquq və siyasi reallıq müstəvisində təsdiqləmək hər ölkəyə nəsib olmur. Prezidentin müraciətində xüsusi vurğulanan əsas məqamlardan biri də məhz budur: Azərbaycan Vətən müharibəsində qazandığı Zəfəri yalnız silah gücü ilə deyil, ardıcıl, məqsədyönlü və uzaqgörən diplomatik fəaliyyətlə möhkəmləndirmişdir.

Bu mərhələdə Azərbaycan diplomatiyasının əsas strategiyası üç istiqamət üzrə formalaşmış, qələbənin hüquqi əsaslarının beynəlxalq auditoriyaya izahı, münaqişə anlayışının beynəlxalq gündəlikdən çıxarılması, postmünaqişə dövründə sülh təşəbbüskarı kimi çıxış etmək istiqamətlərinin hər birində Azərbaycan mühüm nəticələr qazanmışdır. Dövlət rəhbərimizin də vurğuladığı kimi, bu gün bütün dünya Azərbaycanın haqlı olduğunu qəbul edir. Bu, sadəcə siyasi bəyanat olmayıb, illərlə düzgün məcrada aparılmış hüquqi-siyasi mübarizənin nəticəsidir. Xüsusilə qeyd edilməli məqam həm də ondan ibarətdir ki, Azərbaycan başqa ölkələrin torpaqlarında gözü olmayan bir dövlətdir. Silahdan istifadə yalnız öz ərazi bütövlüyünü bərpa etmək məqsədi daşıyıb. Bu yanaşma beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqeyini ciddi şəkildə gücləndirmişdir.

Ötən ilin ən ciddi nailiyyətlərindən biri ATƏT-in Minsk qrupunun faktiki olaraq tarixin arxivinə göndərilməsi oldu. Bununla 30 ilə yaxın davam etmiş beynəlxalq vasitəçilik modelinin iflası rəsmən etiraf edildi. Məlumdur ki, Minsk qrupu bu illər ərzində "münaqişənin həlli" adı altında, əslində, status-kvonu qoruyan, işğalı faktiki olaraq legitimləşdirməyə çalışan mexanizmə çevrilmişdi. Azərbaycan isə bu modeli qəbul etmədi, münaqişənin yeganə real həllinin beynəlxalq hüququn tətbiqindən keçdiyini hər zaman bildirdi və ordumuzun gücü ilə beynəlxalq hüquq normalarının yerinə yetirilməsini özü təmin etdi.

Vətən müharibəsindən sonra yaranmış yeni reallıq Minsk qrupunun mövcudluğunu mənasızlaşdırdı. Prezidentin vurğuladığı kimi, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir. Bu, Azərbaycan üçün də, ümumən regionumuz üçün də tarixi dönüş nöqtəsidir. Çünki 30 il ərzində ölkənin əsas siyasi gündəmi olan məsələ artıq bağlanmış hesab edilir.

Bu mərhələdə Azərbaycan qalib ölkə kimi Ermənistana sülh əli uzatdı. Bu addım beynəlxalq aləmdə yüksək qiymətləndirildi və Azərbaycanın məsuliyyətli regional aktor imicini daha da möhkəmləndirdi.

### Sülhə doğru

Prezidentin müraciətində xüsusi vurğulanan məqamlardan biri də ötən ilin avqustunda, Vaşinqtonda, Ağ Evdə Ermənistanla sülh müqaviləsinin paraflanmasıdır. Tarixi baxımdan bu hadisənin əhəmiyyəti olduqca böyükdür. Çünki Azərbaycan cəmi beş il ərzində müharibədən sülh mərhələsinə keçə bilmişdir. Bu fakt iki mühüm həqiqəti də ortaya qoyur: Azərbaycan hər zaman müharibəni məqsəd deyil, vasitə kimi görmüş, tarixi qələbəmizlə məqsədə çatdıqdan sonra əsas prioritet məhz sabitlik və inkişaf olmuşdur.

Azərbaycan Prezidentinin "Biz əbədi müharibə aparmaq fikrində deyilik" fikri bu kontekstdə xüsusi məna kəsb edir. Dövlətimiz öz gələcəyini qətiyyən münaqişə üzərində deyil, məhz sülh və əməkdaşlıq üzərində qurmaq niyyətindədir. Bu yanaşma region üçün də yeni imkanlar açır.

Sülh müqaviləsinin cəmi beş il sonra paraflanması Azərbaycan dövlətinin həm siyasi iradəsinin, həm də diplomatik çevikliyinin göstəricisidir. Bu, postsovet məkanında nadir rast gəlinən bir presedentdir.

Prezident müraciətində Azərbaycanın öz Qələbəsini dünyanın ən mötəbər siyasi məkanlarından birində - Ağ Evdə, ABŞ Prezidentinin iştirakı ilə möhürlədiyini xüsusi vurğu ilə qeyd etdi. Bu detalın qeyd olunması əsla təsadüfi deyildir. Ağ Ev faktoru burada Azərbaycanın qələbəsinin qlobal güc mərkəzləri tərəfindən qəbul edilməsi, postmünaqişə reallığının beynəlxalq siyasi sistemə inteqrasiyası, Azərbaycanın regional aktordan qlobal etibarlı tərəfdaşa çevrilməsi və sair bu kimi çox əhəmiyyətli məqamları özündə ehtiva edir. Bu mühüm hadisə ilə 30 il ərzində Azərbaycanın qarşısında duran əsas vəzifə - ərazi bütövlüyünün bərpası və bunun dünya tərəfindən qəbul edilməsi tam şəkildə öz həllini tapmışdır.

### Gələcək inkişafın platforması

Prezident İlham Əliyev müraciətində 2025-ci ildə Azərbaycanda keçirilmiş beynəlxalq tədbirlərə xüsusi yer ayırdı. Ölkəmizin evsahibliyi etdiyi qlobal tədbirlər Azərbaycanın getdikcə güclənən beynəlxalq mövqeyini, regional əhəmiyyətini, ölkəmizə olan etimadı göstərir və Azərbaycan bu tədbirlərlə təkcə iştirakçı deyil, gündəm formalaşdıran aktor olduğunu nümayiş etdirir.

Xüsusilə ötən il Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə Görüşünün keçirilməsi tarixi-siyasi baxımdan son dərəcə əhəmiyyətlidir. Xankəndi uzun illər separatizmin və beynəlxalq hüquqsuzluğun simvolu kimi təqdim edilirdi. Bu şəhərdə beynəlxalq zirvənin keçirilməsi isə Azərbaycanın suverenliyinin artıq mübahisə mövzusu olmadığını, fakt və reallıq səviyyəsində qəbul edildiyini göstərir.

Bu tədbir eyni zamanda postmünaqişə mərhələsində Azərbaycanın regional əməkdaşlıq mərkəzinə çevrilmək iddiasını açıq şəkildə ortaya qoyur. Qarabağ artıq yalnız keçmiş münaqişənin xatirəsi deyil, gələcək inkişafın platforması kimi təqdim olunur.

Prezident müraciətində Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilmiş Zirvə görüşünü də ayrıca qeyd etdi. Bu vurğu Azərbaycan üçün türk dünyasının strateji birlik platforması olduğunu göstərir.

Türk Dövlətləri Təşkilatı son illər ərzində simvolik birlikdən real siyasi-iqtisadi əməkdaşlıq mexanizminə doğru sürətlə inkişaf etməkdədir. Qəbələ Zirvəsi bu prosesdə mühüm mərhələ kimi qiymətləndirilir. Azərbaycanın bu prosesdə fəal və təşəbbüskar mövqedə çıxış etməsi ölkənin regional liderlik gücünü də nümayiş etdirir.

Burada diqqət çəkən məqam həm də ondan ibarətdir ki, Azərbaycan öz xarici siyasətini yalnız bir istiqamət üzrə deyil, çoxvektorlu və balanslaşdırılmış şəkildə aparır. Türk dünyası ilə yaxınlaşma digər beynəlxalq tərəfdaşlıqlara alternativ deyil, onları tamamlayan strateji xətt kimi təqdim olunur.

### Müstəqil siyasətin iqtisadi təminatı

Prezidentin nitqində xüsusi vurğulanan məqamlardan biri də Azərbaycanın heç bir xarici diktəni qəbul etməməsi ilə bağlıdır. Bu, müasir beynəlxalq münasibətlər sistemində olduqca önəmli siyasi mövqedir. "Biz heç vaxt imkan verməmişik ki, kimsə bizim işimizə qarışsın" fikri Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən birini açıq şəkildə ifadə edir: bu, suveren qərarvermə hüququdur. Bu prinsip təkcə siyasi ritorika deyil, praktiki siyasətdə də ardıcıl şəkildə tətbiq olunur.

Azərbaycan öz tərəfdaşları ilə münasibətləri bərabərhüquqlu əsasda qurur. Bu yanaşma ölkənin həm Qərb, həm Şərq, həm də regional aktorlarla münasibətlərində özünü göstərir. Son illərdə təzyiq cəhdlərinin tədricən azalması isə Prezidentin qeyd etdiyi kimi, Azərbaycanın artan gücünün və müstəqil siyasətinin nəticəsidir.

Azərbaycanın artan gücü isə yalnız hərbi potensialla məhdudlaşmır, bura güclü siyasi iradə, xalq-iqtidar birliyi, iqtisadi imkanlar, düzgün enerji siyasəti, nəqliyyat-logistika üstünlükləri və onlardan məqsədyönlü istifadə strategiyası da daxildir. Bu amillərin sintezi Azərbaycanın müasir dövrdə regional gücdən orta ölçülü qlobal aktora doğru inkişaf edərək irəlilədiyini göstərir. Xüsusilə enerji və nəqliyyat layihələri Azərbaycanın beynəlxalq sistemdəki rolunu gücləndirən əsas amillərdəndir.

Prezidentin müraciətində təqdim olunan iqtisadi göstəricilər də diqqəti çəkir. 80 milyard dollardan artıq valyuta ehtiyatları, xarici borcun ÜDM-in cəmi 6,3 faizini təşkil etməsi Azərbaycanın iqtisadi dayanıqlığını açıq şəkildə göstərir.

Bu rəqəmlər dövlətin müstəqil qərarvermə qabiliyyətinin iqtisadi təminatıdır. Xarici borcun az olması, valyuta ehtiyatlarının isə onu dəfələrlə üstələməsi Azərbaycanı xarici təsirlərdən qoruyur. Beynəlxalq reytinq agentliklərinin Azərbaycanın kredit reytinqini yüksəltməsi bu reallığın beynəlxalq maliyyə dairələri tərəfindən də qəbul edildiyini sübut edir.

### Böyük qayıdış - yeni sosial həyat modeli

Prezidentin müraciətində xüsusi yer tutan mövzulardan biri də Böyük qayıdış proqramıdır. Bu proqram sosial və infrastruktur layihəsi olmaqla yanaşı, həm də tarixi ədalətin bərpasının institusional mexanizmidir. Otuz ilə yaxın müddətdə doğma yurdlarından didərgin salınmış insanların geri dönüşü Azərbaycan dövlətçiliyinin mənəvi borcu idi və bu borc sistemli şəkildə yerinə yetirilir.

Artıq 70 minə yaxın insan işğaldan azad edilmiş ərazilərdə yaşayır, çalışır, təhsil alır. Bu rəqəm postmünaqişə dövrü üçün son dərəcə əhəmiyyətlidir. Çünki müharibədən sonra ərazilərin bərpası qədər, insanların orada real və dayanıqlı şəkildə yerləşdirilməsi də əsas məsələdir. Keçmiş məcburi köçkünlərin 32 kənd, qəsəbə və şəhərdə yerləşdirilməsi göstərir ki, proses simvolik deyil, genişmiqyaslı və mərhələli şəkildə aparılır. Bu, dövlətin planlı inkişaf modelinin açıq göstəricisidir.

Böyük qayıdış yalnız evlərin tikintisi ilə məhdudlaşmır, Qarabağda, Şərqi Zəngəzurda yeni sosial həyat modeli formalaşdırılır. Bu modelin əsas xüsusiyyətləri müasir infrastruktur, təhsil və səhiyyə xidmətlərinə çıxış, daimi iş yerlərinin yaradılması, rəqəmsal və "yaşıl" texnologiyaların tətbiqidir.

İşğaldan azad edilmiş torpaqlarımız artıq keçmişin ağrısını daşıyan məkan yox, gələcəyin nümunəvi həyat modeli sayılır. Burada yaradılan şərait insanların yalnız fiziki deyil, psixoloji və sosial reinteqrasiyasını da təmin edir. Dövlət keçmiş məcburi köçkünləri layiqli vətəndaş həyatına qaytarır.

Prezidentin də bəyan etdiyi kimi, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının taleyi Azərbaycan dövləti üçün önəmlidir. Bu yanaşma Azərbaycan diasporunu milli varlığın qlobal şəbəkəsi kimi təqdim edir. Bununla Azərbaycan dövləti göstərir ki, xaricdə yaşayan vətəndaş və soydaşlarımızın hüquqları, təhlükəsizliyi və ləyaqəti onun diqqət mərkəzindədir.

Prezident İlham Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi və Yeni il münasibətilə xalqa müraciəti mahiyyət etibarilə müasir Azərbaycan dövlətçiliyinin tam konseptual xəritəsini təqdim etmiş oldu. Bu xəritədə hərbi güc diplomatiya ilə, iqtisadi inkişaf sosial ədalətlə, milli birlik qlobal mövqe ilə uzlaşdırılır.

Bu müraciət göstərir ki, Azərbaycan artıq yalnız keçmişin problemlərini həll edən ölkə deyil. O, gələcəyini planlayan, öz yolunu müəyyən edən, regional və qlobal miqyasda söz sahibi olan dövlətdir.

Zəfər geridə qalmayıb - o, dövlətin özünəinamına çevrilib, sülh təmin edilmiş reallığa qovuşub, milli birlik praktik siyasətin əsas dayağı kimi möhkəmlənib.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*



# Prezident bir daha bəyan etdi

## "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

**Yola saldığımız 2025-ci ildə dövlətimizin sosial siyasətinin nəticələri necə olub. Bu il əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması üçün hansı layihələr həyata keçiriləcək. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələdən də bəhs edib.**

Dövlətimizin başçısı sosial məsələnin həmişə siyasətimizin ana xəttini müəyyən edən istiqamət olduğunu bir daha vurğulayıb: "Mən uzun illərdir deyirəm və bunu əməli işlərdə də biz görürük ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu, sadəcə olaraq, şüar deyil. Bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Hər ikisi arasında çox həssas balans, tarazlıq olmalıdır. Əgər olmasa, onda heç bir ölkə uğur qazana bilməz, bu birincisi. İkincisi, həmişə çalışmışam və bu gün də çalışıram populizmdən uzaq olum və mümkün olmayan vədləri verməyim. Mümkün olan inkişafla bağlı Azərbaycan ictimaiyyətini müntəzəm olaraq məlumatlandırıram. Əgər son 20 ilin statistikasına baxsaq, təkcə onu demək kifayətdir ki, minimum əməkhaqqı Azərbaycanda 40 dəfədən çox artıb. Düzdür, ilkin baza çox aşağı idi, amma bu artım da əldə edilmiş vəsait hesabına mümkün olmuşdur".

Bu istiqamətdə qazanılan nailiyyətlər aparılan iqtisadi islahatların, həyata keçirilən neft-qaz layihələrinin, bir sözlə, iqtisadi gücün artması, maddi imkanların çoxalması nəticəsində mümkün olub. Dövlət əldə edilən gəlirləri, ilk növbədə, sosial sahəyə yönəldir. Torpaqlarımız işğal altında olarkən 300 mindən çox köçkün yeni evlərlə, mənzillərlə təmin edildi, 100-dən çox şəhərcik salındı.

Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, son 7 il ərzində 5 sosial islahat paketi icra olunub. Bu islahatlar 4 milyon insanı əhatə edib və təqribən 8 milyard manata yaxın olan vəsait təşkil edib. Təkcə keçən il bu məqsədlər üçün 1,4 milyard büdcə vəsaiti xərclənib. Başqa sözlə, maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Prezident gələcəkdə sosial sahəyə daha çox vəsait ayrılacağını da bildirib: "Əlbəttə, istərdik ki, daha da çox olsun. Amma bir atalar sözü var: "Gərək ayağını yorğanına görə uzadasan". Yenə də deyirəm, biz heç vaxt populizmlə məşğul olmamışıq, heç vaxt həlli mümkün olmayan vədlər verməmişik, heç vaxt gələcək nəsilləri borca salmaq üçün haradansa böyük məbləğdə pul alıb onu paylamamışıq. Biz strateji inkişafla bağlı tam, necə deyərlər, aydın mənzərəyə sahibik. Ona görə ölkə iqtisadiyyatı inkişaf etdikcə, ölkənin valyuta ehtiyatları artdıqca, əlbəttə ki, sosial sahəyə daha da böyük vəsait ayrılacaq".

Ölkəmizdə yeni iş yerlərinin yaradılması daimi bir prosesdir. Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin təqdim etdiyi bir neçə rəqəmi misal gətirək. Təkcə keçən ilin 9 ayı ərzində Azərbaycanda 77,7 min yeni iş yeri yaradılıb. Bunların 91,4 faizi qeyri-dövlət sektorunda açılıb. Yeni iş yerləri iqtisadi rayonların hamısında, həm yeni, həm də mövcud müəssisə və təşkilatlarda yaradılıb.

Əhalinin işlə təmin olunması sahəsində özünüməşğulluq da özünə geniş yer alır. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verir. Əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan uğurlu addımlardan biri də ictimai iş yerlərinin yaradılmasıdır.

Dövlətimizin başçısı sözügedən müsahibədə də bu mövzudan bəhs edib: "Biz bir neçə ildir ki, özünüməşğulluq proqramı ilə məşğuluq, əgər belə demək mümkündürsə və 100 mindən çox insan bu proqramla əhatə olunub. Yəni cəmiyyətdə ələbaxımlılıq olmamalıdır. Bunu tam aradan qaldırmışıq? Yox, yenə də var. İş yerləri yaradılır, o cümlədən Qarabağ və Şərqi Zəngəzur da böyük tikinti meydançasıdır. Yəni işləmək istəyən Azərbaycanda özü üçün iş tapa bilər, ya inşaatda, ya kənd təsərrüfatında, ya başqa sahələrdə. İşsizlik aşağı səviyyədədir, ancaq işsizlər var və bu, hər bir ölkədə var. İnkişaf etmiş ölkələrdə bizdən də böyük faizlə ölçülən işsizlik var. Amma mənim sözüm odur ki, bu gün Azərbaycan kimi ölkədə, geniş imkanları olan ölkədə iş tapmaq o qədər də çətin məsələ deyil. Sadəcə olaraq, bəziləri bəlkə də onlara təklif olunan işlərlə razı deyillər, ona görə iş axtarmağa davam edirlər. Özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilərlər".

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə özünüməşğulluq proqramlarının icrası zamanı şəhid ailələrinə və qazilərə üstünlük verilir. Yeri gəlmişkən, son illərdə 16 min şəhid ailəsi və müharibə əlili, onların ailələri dövlət tərəfindən mənzillə təmin olunub.

"Burada da Azərbaycan qədər bu sahəyə diqqət yetirən ikinci ölkə yoxdur. Müharibələr olub, İkinci Dünya müharibəsi, ondan sonrakı müharibələr. Mən bilmirəm hansı ölkədə şəhid olanlara dövlət tərəfindən mənzillər verilir, bəlkə verilir, amma mən bilmirəm, eşitməmişəm. Minik avtomobilləri verilir. Biz müharibə zamanı əlil olmuş hərbçiləri dövlət tərəfindən ən müasir protezlərlə təmin etmişik. Beş yüzdən çox insan protezlərlə təmin edilib və normal həyata qayıdıblar. Bu, ən son model protezlərdir. Müntəzəm olaraq onlara xidmət göstərilməlidir, dəyişdirilməlidir. Çünki bunu fizioloji nöqteyi-nəzərdən dəyişməyə ehtiyac var. Əlbəttə, biz bunu edirik, o insanlar qarşısında bizim vətəndaşlıq borcumuzdur", - deyə dövlətimizin başçısı bəyan edib.

Çoxsaylı sosial infrastruktur layihələrinin həyata keçirilməsi də dövlətimizin sosial-iqtisadi siyasətinin mühüm və ayrılmaz bir hissəsidir. Son 20 il ərzində Azərbaycanda 3 min 600 məktəbin, yüzlərlə xəstəxananın tikildiyini və əsaslı təmir edildiyini xatırlatmaq kifayətdir.

Prezidentimiz bu dəfə də deyib ki, iqtisadiyyatımız nə qədər artsa, ilk növbədə, o qədər də sosial məsələlərə diqqət yetiriləcək və maliyyə ayrılacaq. Deməli, dövlətimizin siyasətinin mərkəzində həmişə olduğu kimi, yenə də Azərbaycan vətəndaşı dayanır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ordumuzun təchizatı və texnoloji modernləşmə

## Azərbaycanın müdafiə sənayesi sürətli inkişaf yolundadır



**Müasir dünyada müdafiə sənayesi hərbi təhlükəsizlik anlayışı ilə məhdudlaşmır. Bu sahə dövlətlərin siyasi çəkisini artıran, texnoloji inkişafı sürətləndirən, həmçinin gəlir gətirən strateji istiqamətə çevrilib. Azərbaycan da bu reallıqları nəzərə alaraq müdafiə sənayesinə yanaşmasını son illərdə əsaslı şəkildə yenidən formalaşdırıb.**

Uzun müddət Azərbaycan müdafiə sənayesinə klassik dövlət modeli ilə yanaşırdı. Bu sahə əsasən daxili tələbatın ödənilməsinə yönəlmişdi. Lakin zaman göstərdi ki, beynəlxalq təcrübədə ən uğurlu modellərdən biri dövlət nəzarəti ilə özəl sektorun fəal iştirakının uzlaşdırılmasıdır. Məhz bu yanaşma son iki ildə Azərbaycanda tətbiq olunmağa başlayıb.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində vurğuladığı kimi, son iki il ərzində bu sahədə dövlət şirkəti ilə bərabər özəl şirkətlərə də imkanlar yaradıldı. Bu qərar həm maliyyə yükünün azalmasına, həm də istehsal imkanlarının daha çevik və effektiv qurulmasına şərait yaratdı. Hazırda bu sahə ciddi lisenziya mexanizmi ilə tənzimlənir və indiyədək 15 özəl şirkətə fəaliyyət icazəsi verilib, onların 7-si artıq hərbi təyinatlı məhsul istehsalına başlayıb.

Müdafiə sənayesinin real gücü rəqəmlərdə özünü açıq şəkildə göstərir. 2024-2025-ci illər ərzində yeni istehsal sahələrinin yaradılması və mövcud müəssisələrin genişləndirilməsi üçün 1 milyard manat sərmayə qoyulub. Bu vəsaitin təxminən yarısı özəl sektorun payına düşür ki, bu da sahəyə biznes marağının artdığını göstərir.

İstehsal həcmləri də diqqətçəkicidir. Dövlətimizin başçısı müsahibəsində deyib ki, keçən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal olunub. Bu məhsulların əsas hissəsi Azərbaycan Silahlı Qüvvələrinin təminatına yönəlsə də, ölkəmizin ixracatında da hərbi sənaye mühüm yer tutur. Azərbaycan bu gün hərbi təyinatlı məhsullarını 20-yə yaxın ölkəyə ixrac edir. Bu fakt göstərir ki, ölkəmiz həm istehlakçı, həm də regional və beynəlxalq bazarlarda tanınan istehsalçıya çevrilməkdədir. Beləliklə, müdafiə sənayesi artıq təhlükəsizlik məsələsi ilə yanaşı, eyni zamanda gəlir gətirən sahədir. "Biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq", - deyə Prezident İlham Əliyev bildirib. Xüsusilə qlobal silah bazarında qiymətlərin kəskin artması fonunda bu sahə Azərbaycan üçün alternativ valyuta mənbəyi rolunu oynaya bilər. Qarşıya qoyulan qısamüddətli hədəf isə kifayət qədər iddialıdır: "Qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır". Bu hədəfin 3-4 il ərzində reallaşdırılması real hesab olunur.

Müdafiə sənayesinin inkişafı yalnız məhsul istehsalı ilə məhdudlaşmır. Azərbaycan dünyanın aparıcı müdafiə sənayesi şirkətləri ilə birgə müəssisələr yaradaraq pilotsuz uçuş aparatları, artilleriya qurğuları və müxtəlif silah-sursat növlərinin istehsalını planlaşdırır. Prezidentin sözləri ilə desək: "Biz bu sahəyə bir neçə prizmadan baxırıq… müasir kadr potensialı yaratmaq və ixrac imkanlarımızı genişləndirmək".

Bu yanaşma uzunmüddətli perspektivdə ölkənin texnoloji müstəqilliyini gücləndirəcək və ixtisaslı kadrların formalaşmasına xidmət edəcək. Azərbaycanın müdafiə sənayesi artıq ilkin mərhələdəki "idxaldan asılılığı azaltmaq" məqsədini geridə qoyub. Müdafiə sənayesi Silahlı Qüvvələrimizin təchizatı ilə yanaşı, iqtisadi inkişafın, ixracın və texnoloji modernləşmənin mühüm alətinə çevrilir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, bu proses sürətlə genişlənir və yaxın illərdə cəmiyyət bu sahədə əldə olunan nəticələri daha açıq şəkildə görəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan internet xidmətləri üzrə dünyanın TOP-5 ölkəsi sırasında yer alıb

**"Dünya Bankının "Business Ready" (B-READY) 2025" hesabatına əsasən, Azərbaycan kommunal xidmətlər sahəsində, xüsusilə internet xidmətləri üzrə yüksək nəticə əldə edib.**

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyindən (İKTA) AZƏRTAC-a bildirilib ki, hesabata görə, Azərbaycan internet xidmətlərinin əməliyyat effektivliyi üzrə 101 ölkə arasında 5-ci yerdə qərarlaşıb (31.05 xal ilə 5-ci yer). Eyni zamanda tənzimləyici keyfiyyət (30.83 xal ilə 17-ci yer) və idarəetmə-şəffaflıq göstəriciləri (29.17 xal ilə 27-ci yer) üzrə də ölkə ilk 30-luqda yer alıb.

Ümumilikdə kommunal xidmətlər indikatoru üzrə Azərbaycan 83.05 xal ilə 25-ci mövqedə qərarlaşıb və bu nəticə ilə region ölkələrini qabaqlayıb. Qeyd edək ki, kommunal xidmətlər sahəsində ölkəyə ən çox töhfə verən alt-indikator məhz internet xidmətləri olub.

"Business Ready" qiymətləndirməsi dövlət xidmətlərinin keyfiyyəti, tənzimləmə mühiti və əməliyyat effektivliyini ölçən beynəlxalq metodologiyaya əsaslanır və 2025-ci il hesabatında 101 ölkəni əhatə edir.



# Azərbaycanın strateji mövqeyi: D-8-dən Mərkəzi Asiyaya

## İlham ƏLİYEV: "Bizim rolumuz artıq böyük layihələri icra edə bilən ölkə kimi artacaq"

**2025-ci il Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi baxımından əlamətdar il kimi tarixə düşdü. Qısa müddət ərzində ölkəmizin həm D-8, həm də Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına üzv qəbul edilməsi Bakının regional çərçivələri aşan diplomatik fəallığını aydın şəkildə nümayiş etdirdi. Təbii ki, bu addım yalnız formal üzvlük deyil, eyni zamanda Azərbaycanın iqtisadi əməkdaşlıqdan siyasi dialoqa qədər söz sahibi olmaq niyyətinin göstəricisidir.**

Öncə xatırladaq ki, D-8-in yaranma ideyası İslam Əməkdaşlıq Təşkilatının 1996-cı il oktyabrın 22-də İstanbulda keçirilmiş toplantısında irəli sürülüb və növbəti il iyunun 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının Zirvə görüşündə rəsmi olaraq təsis edilib. Quruma Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxildir. Təşkilatın üzvlərindən ikisi - Türkiyə və İndoneziya "Böyük iyirmilər"in (G-20) üzvüdür. D-8-in fəaliyyətinin əsas məqsədi üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri gücləndirməkdir. 2017-ci ilin aprel ayından D-8-ə müşahidəçi ölkə statusunda qoşulan Azərbaycan təşkilatın 2024-cü ilin dekabrında Misirin paytaxtı Qahirədə baş tutan XI sammiti zamanı yekdilliklə ona üzv seçilib. Bununla da təşkilatın sıraları ilk dəfə genişlənməyə başlayıb. D-8 ölkələrinin böyük və tanınmış qeyri-hökumət təşkilatları, adətən, sosial və iqtisadi sahələrdə əməkdaşlıq edirlər. Belə əməkdaşlıq mühiti və D-8-in beynəlxalq çəkisi Azərbaycanın təşkilata üzv qəbul edilməsinin təsadüfi olmadığını göstərir.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə D-8-ə üzvlüklə bağlı səsləndirdiyi fikirlərdə də bu məqam aydın şəkildə ifadə olunur: "Biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər".

Prezidentin təbirincə desək, Azərbaycan nə əhali, nə də iqtisadi göstəricilər baxımından böyük dövlətlər sırasında yer almasa da, bu nüfuzlu təşkilatda rəsmi şəkildə təmsil olunması ölkəmizə göstərilən etimadın və yürüdülən müstəqil, balanslaşdırılmış siyasətin nəticəsi kimi qiymətləndirilir. D-8 çərçivəsində birləşən ölkələrin ümumi əhalisinin 1 milyarddan, ümumi iqtisadi potensialının isə 4 trilyon dollardan artıq olması təsisatın qlobal miqyasını aydın şəkildə ortaya qoyur. Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan üzv qəbul edildikdən dərhal sonra fəal mövqe tutaraq təşəbbüskar fəaliyyətə başlayıb. Məhz Bakının təşəbbüsü ilə ölkəmizdə media, iqlim, ekologiya, energetika və nəqliyyat sahələrini əhatə edən D-8 mərkəzlərinin yaradılması Azərbaycanın bu təşkilatda fəal və iddialı üzv olacağını açıq şəkildə nümayiş etdirir. Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi daha bir gerçəyi ortaya qoyur. Bu, ölkəmizin islam dünyasında və yüksələn iqtisadi gücə malik ölkələr arasında artan nüfuzunun artmasının göstəricisidir. İqtisadi potensial baxımından mühüm dövlətləri birləşdirən bu təşkilat Azərbaycanın yeni bazarlara çıxışı, ticarət əlaqələrinin şaxələndirilməsi və investisiya əməkdaşlığının genişləndirilməsi üçün əlavə imkanlar yaradır. Enerji, nəqliyyat və logistika sahəsində strateji üstünlüklərə malik olan Azərbaycan D-8 çərçivəsində istehlakçı və təşəbbüskar tərəfdaş kimi çıxış etmək niyyətini ortaya qoyur.

D-8 çərçivəsində iqtisadi təşəbbüskarlıq nümayiş etdirən Azərbaycan üçün növbəti mühüm istiqamət Mərkəzi Asiya məkanıdır. Məhz bu kontekstdə ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına üzvlüyü xüsusi əhəmiyyət kəsb edir. Məhz bu amili dövlət başçısı sözügedən müsahibədə xüsusi qeyd edib: "Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə görüşündə artıq tamhüquqlu üzv seçildik".

Qeyd edək ki, bu platforma Mərkəzi Asiya ölkələrinin liderlərinə regional əməkdaşlığı inkişaf etdirmək, sabitliyi təmin etmək və iqtisadi məsələləri müzakirə etmək imkanı yaradır. 2018-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə təsis olunan platforma çərçivəsində Daşkənd, Nur-Sultan, Aşqabad və digər şəhərlərdə baş tutan görüşlərdə iştirakçılar regional məsələlər və beynəlxalq əməkdaşlıq gündəliyini müzakirə ediblər. Ötən il noyabrın 16-da isə Özbəkistanın paytaxtı Daşkənddə "Mərkəzi Asiya + Azərbaycan" formatında Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirildi. Bu toplantıda Azərbaycanın Mərkəzi Asiya ölkələrinin məşvərət görüşləri formatına tamhüquqlu üzv olaraq qəbul edilməsi barədə qərar rəsmi şəkildə təsdiqləndi.

Bu gün Mərkəzi Asiya - Azərbaycan birliyi həm region, həm də qlobal miqyasda ciddi strateji əhəmiyyət daşıyır. Müasir beynəlxalq münasibətlərdə bağlantılar, nəqliyyat və logistika əsas geosiyasi alətlərdən birinə çevrildiyi dövrdə Mərkəzi Asiyanı Qərblə etibarlı şəkildə birləşdirə bilən yeganə real ölkə məhz Azərbaycandır. Fakt olaraq alternativ marşrutlardan danışmaq mümkün olsa da, mövcud geosiyasi reallıqlar fonunda bu variantların Qərb üçün qəbul edilən olmadığı artıq aydın görünür. Məhz bu səbəbdən Azərbaycanın "canlı körpü" və etibarlı tərəfdaş kimi rolu sürətlə artır. Ölkəmiz təkcə tranzit ərazisi deyil, böyük regional layihələri icra edən əsas mərkəz kimi diqqət çəkir. Bunun əməli nəticələri də göz önündədir: Azərbaycan ərazisindən keçən yüklərin həcmi davamlı şəkildə artır və ilk dəfə olaraq 100 min ədəd konteyner tranzit yük kimi ölkəmizin ərazisindən keçib. Üstəlik, bu rəqəm son nöqtə də deyil. Artan tələbat fonunda Azərbaycan nəqliyyat infrastrukturunun genişləndirilməsinə əlavə investisiyalar yönəldilir.

Strateji əməkdaşlıq yalnız nəqliyyatla məhdudlaşmır. 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri arasında Bakıda imzalanan enerji kabeli layihəsi regionlararası inteqrasiyanın yeni mərhələsindən xəbər verir. Xəzərin dibi ilə çəkiləcək fiber-optik kabel və digər kommunikasiya layihələri Mərkəzi Asiya ilə Azərbaycan arasında fiziki və rəqəmsal bağlantıları daha da gücləndirəcək. "Ona görə Azərbaycanı bu qrupa rəsmən qəbul etməklə Mərkəzi Asiya ölkələri, onların rəhbərləri həm bizə böyük hörmət göstərmiş oldular, həm də ki, öz uzaqgörənliklərini nümayiş etdirdilər. Çünki bu, bölgədə olan geosiyasi vəziyyəti tamamilə dəyişir", - deyə Prezident İlham Əliyev məlum müsahibədə vurğulayıb.

Hər iki təşkilata paralel üzvlük Azərbaycanın bir tərəfdən İslam dünyası və Qlobal Cənub ölkələri ilə iqtisadi əməkdaşlığını gücləndirir, digər tərəfdən isə türk dünyası və Mərkəzi Asiya ilə siyasi və strateji əlaqələrini dərinləşdirir. Nəticə etibarilə, D-8 və Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasında təmsilçilik Azərbaycanın beynəlxalq sistemdə artan çəkisinin növbəti təsdiqidir. 2025-ci il bu baxımdan Azərbaycanın yalnız iştirakçı deyil, proseslərə təsir göstərən ölkə kimi mövqeyini möhkəmləndirdiyi bir dövr kimi qiymətləndirilə bilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Regional və qlobal reallıqlar "907-ci düzəliş"in ləğvini şərtləndirir

**1992-ci ildə Amerika Birləşmiş Ştatları Konqresi tərəfindən qəbul edilən və "Azadlığa Dəstək Aktı"na əlavə olunan 907-ci düzəlişin ləğv olunma prosesi real siyasi müzakirə mərhələsindədir. ABŞ Administrasiyası və Konqresdə bu məsələ artıq gündəmdədir. 2025-ci ilin avqust ayında ABŞ Prezidenti Donald Tramp tərəfindən "Azadlığa dəstək qanununa" 907-ci düzəlişin tətbiqinin müvəqqəti olaraq dayandırılması ilə bağlı sərəncam imzalanıb. Həmin ilin dekabrın 10-da isə ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib.**

"907-ci düzəliş" - Amerika Birləşmiş Ştatlarının 1992-ci il "Azadlığa Dəstək Aktı"na daxil edilmiş bir maddədir. Bu maddə ABŞ tərəfindən Azərbaycana birbaşa yardım göstərilməsini uzun illər məhdudlaşdırıb. Sözügedən düzəliş Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, etnik təmizləmə aparması və BMT qətnamələrini pozmasına baxmayaraq, işğalçı Ermənistana deyil, təcavüzə məruz qalmış Azərbaycana sanksiya tətbiq edirdi ki, bu da beynəlxalq hüquq və ədalətlə qətiyyən uzlaşmırdı. Məntiqlə təcavüzə məruz qalmış, torpaqlarının 20 faizi işğal edimiş, soyqırımı və qətliamlarla üzləşmiş Azərbaycan yox, həqiqi təcavüzkar Ermənistan cəzalandırılmalı idi. Ancaq əfsuslar olsun ki, dövlətimiz dəfələrlə olduğu kimi, "907-ci düzəliş" məsələsində də Qərbin qərəzli yanaşması ilə üzləşmişdi. O baxımdan, 907-ci düzəlişin ən tez müddətdə ləğvinə nail olmaq, ilk növbədə, ABŞ-nin əvvəlki hökumətlərinin yanlışlarının, qeyri-obyektiv münasibətlərinin də aradan qaldırılması anlamına gəlir.

2025-ci il 8 avqust tarixində Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyan arasında imzalanmış mühüm sənədlər, o cümlədən sülh sənədinin mətninin paraflanmasının özü də Ağ Evin sülh prosesinə töhfəsini zəruri edir. Yeni reallıqlar fonunda ABŞ-nin balanslı və obyektiv siyasət yürütməsi gözlənilləndir. Digər yandan, ikitərəfli siyasi, iqtisadi və hərbi əlaqələrin inkişafı üçün "907-ci düzəliş" adlı maneə mütləq aradan qaldırılmalıdır. Sülh təşəbbüslərinin qarşısında siyasi və hüquqi əngəllər olmamalıdır. Bugünkü regional və qlobal geosiyasi reallıqlar bu ədalətsiz qərarın ləğvini zərurət halına gətirir. ABŞ Konqresi bu düzəlişi ləğv etməklə təkcə gecikmiş ədaləti bərpa etməyəcək, həm də Cənubi Qafqazda uzunmüddətli sabitliyə mühüm töhfə verəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində 907-ci düzəlişin qəbul edildiyi ağır dövrdən və bu düzəlişin ləğvini zəruri edən faktorlardan danışıb. Dövlət başçısı haqlı olaraq "907-ci düzəlişi" mənfur sənəd adlandırıb: "Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında birnömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi - Amerikadakı anti-Azərbaycan qüvvələrin fəaliyyəti, erməni lobbisinin fəaliyyəti nəticəsində. Azərbaycan tərəfindən belə cəhdlər dəfələrlə göstərilmişdir".

"907-ci düzəliş"in qəbuluna əsas kimi guya "Ermənistana qarşı blokada" iddiası irəli sürülmüşdü. Lakin Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu gün reallıq tamam fərqlidir və Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklərin getdiyi, yolların açıldığı və hətta Azərbaycanın neft məhsullarının Ermənistana ixrac edildiyi şəraitdə blokada anlayışından söhbət gedə bilməz: "Bizə qarşı böyük ədalətsizlik olmuşdur. Çünki 907-ci düzəliş 1992-ci ilin oktyabrında qəbul edildi. O vaxt bizim torpaqlarımız artıq işğal altında idi, Şuşa, Laçın işğal altında idi. Ermənistan dövləti tərəfindən Xocalı soyqırımı törədilmişdi, xalqımıza qarşı hərbi cinayət törədilmişdi və Azərbaycanın torpaqlarının işğal altında olması, təbii ki, Ermənistanı blokadaya almaq imkanlarını da sıfra endirirdi. Yəni ki, hansı blokadadan söhbət gedə bilərdi?! Nəzərə alsaq ki, Ermənistanın Gürcüstanla, İranla sərhədləri açıq idi, hətta Türkiyə-Ermənistan sərhədi 1993-cü ildə bağlanmışdır. Ona görə hər hansı bir blokadadan söhbət gedə bilməzdi. Ancaq erməni lobbisi və onun əhatə dairəsində olan senator və konqresmenlər belə bir ədalətsiz düzəlişi qəbul etdilər".

Hazırkı gündəmdə Azərbaycan və Ermənistan arasındakı keçmiş münaqişə yox, aktiv sülh gündəliyi müzakirə olunmaqdadır. Tərəflər sülh prosesində kifayət qədər uğurlu məsafə qət ediblər və mühüm nəticələr əldə olunub. Cənab Prezident televiziya kanallarına müsahibəsində bu məqamı diqqətə çatdırıb. Dövlət başçısı qeyd edib ki, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması və Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması "907-ci düzəliş"in ləğvini şərtləndirir: "Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır".

Azərbaycan regionda sülh və əməkdaşlıq platformasının əsas təşəbbüskarlarından biridir. Ermənistanla münasibətlərin normallaşması, yolların açılması və iqtisadi inteqrasiya istiqamətində atılan addımlar, Azərbaycanın sülhə nə qədər sadiq olduğunu göstərir. Bu kontekstdə 907-ci düzəlişin aradan qaldırılması təkcə hüquqi deyil, həm də siyasi və mənəvi ədalətin bərpası olardı. Belə bədnam bir düzəlişin hüquqi və siyasi olaraq qüvvədə saxlanılması sülh prosesinə ziddir və eyni zamanda ABŞ-nin regionda obyektiv vasitəçi olmaq statusuna xələl gətirir. 907-ci düzəlişin ləğvi istiqamətində addımların atılması sadəcə Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası münasibətlərində yeni mərhələnin başlanğıcı yox, eyni zamanda Ağ Evin Cənubi Qafqaz regionunda mövcud reallıqları daha obyektiv dəyərləndirməyə başladığının siyasi siqnalı kimi də başa düşülməlidir. Dövlətimizə qarşı ədalətsiz və birtərəfli yanaşmanın hüquqi simvoluna çevrilmiş 907-ci düzəlişin faktiki olaraq neytrallaşdırılması yönündə başladılan təşəbbüs regionda güc balansının dəyişdiyinin, Azərbaycanın diplomatik, hərbi və geosiyasi baxımdan daha güclü aktora çevrildiyinin bariz göstərici və nəticəsidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*













● Dövlət siyasəti



# Gənclər Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti dəstəkləyirlər

**Gündən-günə inkişaf edən, getdikcə dünyada nüfuz qazanan, regionda söz sahibi olan Azərbaycanın dayanıqlı inkişafında, siyasi və mədəni həyatında, cəmiyyətin aparıcı qüvvəsi sayılan gənclik aparıcı rol oynayır. Azərbaycan gəncləri dövlət quruculuğunda, ictimai-siyasi həyatda, ordu quruculuğunda, elm və təhsil sahələrində fəal iştirak edir, ürəkaçan uğurlar qazanırlar.**

Dövlətin yaratdığı geniş imkanlar sayəsində gənclər cəmiyyətin avanqard qüvvəsinə çevriliblər. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində fəal çalışaraq siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində bacarıq nümayiş etdirir, şəxsi keyfiyyətləri, bacarıqları, istedadları ilə xalqımızın hörmət və etimadını qazanırlar. Bütün bunlar onu göstərir ki, daim axtarışda olan, yeniliklə nəfəs alan gənclərimiz vətənpərvərdirlər, dövlətə, xalqa, Vətənə sadiqdirlər.

Azərbaycanda gənclər siyasəti dövlətin davamlı diqqət yetirdiyi, qayğı göstərdiyi aparıcı sahələrdəndir. Gənclərimiz də dövlətin onlar üçün yaratdığı bütün imkan və şəraitdən bacarıqla istifadə edərək cəmiyyətin inkişafına, dövlətimizin, dövlətçiliyimizin daha da möhkəmlənməsinə əməli işləri ilə böyük töhfələr verir, çalışdıqları sahələrdə uğurlar qazanırlar.

Milli-mənəvi dəyərlərə dərindən yiyələnmiş bu nəsil Vətənimizi uğurlu gələcəyə aparan, tükənməyən gücə malik olan bir qüvvədir. Ölkə gənclərinin yüksək bilikli, savadlı, sağlam ruhda tərbiyə olunması və böyüməsi üçün Heydər Əliyev zaman-zaman lazımi tədbirlər görmüş, bu istiqamətdə mühüm qərarlar qəbul etmişdir. Ulu Öndər Heydər Əliyev hər zaman xalqına arxalanır, cəmiyyətin aparıcı qüvvəsi olan gəncliyə böyük ümidlər bəsləyirdi.

Bu gün də gənclərimiz Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətçiliyimizin daha da möhkəmlənməsində çalışdıqları sahələrdə uğurlar qazanırlar. Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Dövlətin göstərdiyi diqqət və qayğı nəticəsində Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatındakı fəaliyyəti, rolu gündən-günə artır. Ölkəmizin evsahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlərdə, istər ölkə daxilində, istərsə də xaricdə keçirilən forum və konfranslarda fəal iştirak edən gənclərimiz əməli işləri ilə bir daha göstərirlər ki, onlar vətənpərvərdirlər, dövlətini, xalqını sevirlər. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsidir ki, Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Gənclər də dövlət qayğısını daim hiss edərək uğurları ilə onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Gənclərimizin bu çalışqanlığı bütün sahələrdə hiss olunur.

Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin mərkəzində Azərbaycan gənclərinin Vətənə, doğma el-obaya sədaqət ruhunda tərbiyə edilməsi dayanır. 44 günlük Vətən müharibəsində gənclərimizin qəhrəmanlığı bir daha göstərdi ki, Azərbaycan Ordusunun zabit və əsgərləri Şuşanın sıldırım qayalarında, Qarabağ torpaqlarında yazdıqları qəhrəmanlıq salnaməsinin bünövrəsində azərbaycançılıq ideologiyası ilə yanaşı, Vətənə, yurda sədaqət, torpağa dərin köklərlə bağlılıq amilləri də böyük rol oynayır. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən və böyük qəhrəmanlıq göstərən oğulların əksəriyyəti gənclər idi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev zabit və əsgərlərimizin İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqlardan danışarkən demişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər".

Prezident İlham Əliyev daim gənclərə diqqət və qayğı göstərir. Ölkə gəncləri də Prezident İlham Əliyevin uğurla apardığı daxili və xarici siyasəti dəstəkləyir, onun həyata keçməsi, inkişaf etməsi üçün yorulmadan çalışırlar. Bu isə onları yeni uğurlara ruhlandırır.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində gənclərimiz başqa sahələrlə yanaşı, təhsildə də uğurlar qazanırlar. Onlar dərindən dərk edirlər ki, gələcək inkişafları təhsillə bağlıdır. Buna görə də daim öz üzərlərində çalışırlar. Qazandıqları bilikləri və təcrübələri ilə cəmiyyətin aparıcı qüvvəsinə çevrilirlər.

Qazanılan uğurlar onu deməyə əsas verir ki, gənclərin cəmiyyətdə fəal iştirakını, elmli-bilikli, təhsilli olmağını təmin etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər müsbət nəticələr verir. 2005-2009-cu, 2011-2015-ci və 2017-2021-ci illəri əhatə edən və bu gün də uğurla davam edən dövlət proqramları cəmiyyət üçün bilikli, peşəkar, istedadlı gənclərin yetişməsinə əlverişli təminat yaradır. Uğurla həyata keçirilən dövlət proqramları çərçivəsində gənclərimiz dünyanın müxtəlif ölkələrində təhsil alırlar. Prezident İlham Əliyev çıxışlarının birində Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inam ifadə edərək demişdir: "Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

Bakıda və regionlarda istifadəyə verilən "Gənclər ev"ləri, olimpiya idman mərkəzləri gənclərin maraq dairəsini xeyli genişləndirməklə yanaşı, həm də onların asudə vaxtlarının səmərəli təşkili üçün yeni imkanlar açır. Bunun nəticəsidir ki, onların cəmiyyətdə, ictimai həyatda fəallığı daha da artır. Gənc idmançılarımız müntəzəm olaraq beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edir, uğur qazanırlar.

Dövlətimiz tərəfindən gənclərə göstərilən daha bir diqqət və qayğı isə ondan ibarətdir ki, ölkəmizin şəhərləri Azərbaycanın "Gənclər paytaxtı" elan edilir. Bu ənənə 2012-ci ildən başlayıb. Həmin ildən hər il Bakı istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri "Gənclər paytaxtı" elan olunur. "Gənclər paytaxtı" seçilən şəhərlərdə bir il müddətində gənclərin ölkənin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Tədbirlərdə gənclərin intellektual və yaradıcılıq potensialının artırılması üçün əlverişli şərait yaradılır. Belə layihələrin uğurla reallaşdırılması bütövlükdə, Azərbaycan dövlətinin gənclərin ictimai-siyasi fəallıqlarına, müxtəlif sahələrdə qazandıqları əhəmiyyətli uğurlara verdiyi yüksək qiymətdir.

Bu gün uğurla həyata keçirilən dövlət proqramları, müxtəlif layihələr gənclərin fəallığına, onların ölkə üçün, xalq üçün dəyərli vətəndaş kimi yetişməsinə hesablanıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün işlərin məqsəd və amalı Azərbaycan gəncliyini ölkənin uğurlu inkişafına istiqamətləndirməkdir. Dövlət başçısının gənclərlə görüşləri və onların qarşısında mühüm vəzifələr qoyması Azərbaycanın parlaq gələcəyinə hesablanır. Torpağını, vətənini canından çox sevən Azərbaycan gəncləri isə onlara göstərilən bu dövlət qayğısını yüksək qiymətləndirirlər.

Azərbaycan gəncləri onlara göstərilən etimadı doğrultmaq üçün böyük əzmkarlıqla çalışırlar. İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında doğma torpaqlarımızın işğalına son qoyan, Qarabağı və Şərqi Zəngəzuru azad edən Azərbaycan gəncliyi bu əzmkarlığa ən yaxşı nümunədir. İnanırıq ki, gənclərimiz həmişə olduğu kimi 2026-cı ildə qazandıqları uğurları ilə xalqımızı sevindirəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Yurdu yaşadan qəhrəmanlar

# Cəsur oğullar elə bir tarix yazdılar ki...

**Əsrlərdən bəridir ki, insanları yurdu qorumağa və onun uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərməyə sövq edən Vətən sevgisidir. İgidlikləri ilə adlarını tarixin səhifələrinə əbədi yazanlar zaman-zaman Vətən sevgisindən güc alıblar. Həmişə şücaətləri ilə öyündüyümüz, adlarını əzizləyə-əzizləyə çəkdiyimiz, qürur duyub fəxr etdiyimiz cəsur oğullar Vətən sevgisinin dupduru bulağından su içiblər.**

Deməli, Vətən sevgisinə yüksək dəyər verənlər yanılmayıblar. Vətən sevgisi ona görə müqəddəs və alidir ki, o, insanları qələbə əzmi ilə düşmən üzərinə aparır, zəfərlərə səsləyir və sonda uğurlara qovuşdurur. Bu çağırış hamımızı yurdun müdafiəsinə səfərbər edir, qələbələrə ruhlandırır.

## Sərhədsizdir, hüdudsuzdur Vətən sevgisi

El qeyrəti çəkən oğul və qızlarımız həmişə Vətən sevgisindən ilhamlanaraq onun



Bugünkü nəsillər də daim Vətən sevgisindən güc alaraq İkinci Qarabağ müharibəsində sələflərinin döyüş yollarını şərəflə davam etdirdilər, düşməni diz çökdürüb Zəfər qazandılar. Qəhrəmanlıqları və igidlikləri ilə həm Qarabağı, həm də işğal olunmuş başqa rayonlarımızı azad edərək tarix yazdılar. Elə bir tarix ki, həmişə xalqımıza başucalığı gətirəcək. Elə bir tarix ki, zaman-zaman onlar iftixarla xatırlanıb ehtiramla yad ediləcəklər, igidlikləri, cəsarətləri və qəhrəmanlıqları ilə gələcək nəsillərə nümunə olacaqlar.

Bütün bunlar içində yaşadığımız zamanın tələbi idi. Qazanılan Zəfər, yazılan tarix həm də gələcəkdə bizim yolumuzu cəsarətlə davam etdirəcək gənclərin qarşısına əbədi və müqəddəs borc qoyub.

## Tarixin heç zaman pozulmayan ənənəsi

Yaşamaq, daim var olmaq üçün millətə Vətən lazımdır. Vətənə sevgi, məhəbbət heç vaxt qınına qoyulmayan qılınc kimidir. Həmişə ayaqdadır, həmişə döyüşə, savaşa hazır vəziyyətdədir. Olduqca iti və kəsərlidir.

Tarixin yaşanmış və sınaqlardan çıxmış təcrübəsi, pozulmayan ənənəsi var. Əgər bir məkanda bünövrə qazdınsa, yer-yurd saldınsa, həmin ərazini göz bəbəyi kimi qorumalısan. Qorumalısan ki, yağılar, yadellilər o yerlərə ayaq basa bilməsinlər. "Vətən" deyib əzizlədiyin və üstündə yaşadığın o torpaqları əlindən almasınlar. Əgər döyüşdən geri çəkilib qəsblə barışsan, onda Vətən işğal altında qalıb yağmalanacaq, sərvətləri talanacaq. Buna görə də daim mövcud olmaq naminə torpaq qorunmalıdır. Bütün dövrlərdə Vətən sevgisi xalqı yumruq kimi birləşdirib. Tarixdə həmişə belə olub, xalq birləşəndə çox güclü və məğlubedilməz qüvvəyə çevrilib.

Necə ki, 44 günlük Vətən müharibəsində xalqımız yumruq kimi birləşərək erməni işğalçılarına qalib gəldi. 30 ilə yaxın düşmən işğalında qalmış torpaqlarını azad etdi.

çağırışına hay vermiş, yurda əsgər olmuşlar. Onlar ürəklərindəki Vətən sevgisinin odunun, alovunun işığında və istisində gecə-gündüz qorxu bilmədən torpaqlarımızı qəsbkarlardan qorumuşlar. Çətin sınaqlarından şərəflə çıxmış tarixi ənənə bu gün daha da güclü axarla davam etməkdədir. İkinci Qarabağ müharibəsindən Zəfərlə çıxmış Silahlı Qüvvələrimizin şəxsi heyəti bu gün yenə də göz qırpmadan yurdumuza keşik çəkir. Getdikcə gücünü artırıb qüdrətlənən ordumuz xalqımızın şərəfinin, azadlığının müdafiəçisidir, ərazi bütövlüyümüzün və suverenliyimizin ən etibarlı təminatçısıdır. Həm də böyüməkdə olan nəsillərin mərdlik, igidlik və qəhrəmanlıq simvoludur. İgid zabit və əsgərlərimiz 2020-ci ilin sentyabrında erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində və ondan sonra müxtəlif zamanlarda keçirilmiş antiterror əməliyyatlarında böyük hünər göstərərək düşmənə sarsıdıcı zərbələr endirmiş, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdilər.

Vətəni qoruyan əsgərlərə bütün dövrlərdə rəğbətlə yanaşılıb, onlar həmişə hörmətlə qarşılanıb. Bu da təbiidir, çünkü döyüşçülər Vətənin etibarlı müdafiəçiləri, yurdun qorxmaz keşikçiləridir, torpağın xilaskarlarıdır. Onlar yaxşı bilir və dərindən dərk edirlər ki, bu gün xalqımız yurdun taleyini onlara tapşırıb.

Bəlkə də bütün sevgilərin hüdudu və sərhədi var, amma Vətən sevgisinin nə sonu, nə də sərhədi var. O, göylər qədər uca, okeanlar və dənizlər qədər sonsuz və hüdudsuzdur. O, yerlər qədər dərindir. İnsan nə qədər ki, həyatda var, onun ürəyində, qəlbində qoynunda dünyaya göz açıb yaşadığı torpağa sevgisi də boy atıb böyüyəcək. Çünki bu sevgi əbədidir, məşəl kimi parlaq və sönməzdir. Yandıqca yanır, şöləndikcə şölələnir. Onun gur işığına, istisinə milyonlarla insan toplaşır.

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

# Şuşakənd ilk əsgərini qarşılayıb

**Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, kəndin ilk əsgəri Famil Hüseynov hərbi xidmətini başa vuraraq doğma yurduna qayıdıb.**

Bu əlamətdar hadisə Şuşakənd sakinləri üçün təkcə bir ailənin sevinci deyil, həm də illərlə həsrətində olduqları Vətənə qayıdışın, dirçəlişin və davamlı həyatın rəmzi kimi dəyərləndirilir.

Qeyd edək ki, əsgər Famil Hüseynov Ağcabədi rayonundan hərbi xidmətə yola düşüb. Xidmətini başa vurmuş Familin qarşılanması Şuşakənddə duyğulu anlarla yadda qalıb. Valideynlər üçün bu görüş həm övlad, həm də torpaq həsrətinin bitdiyi an olub. Bu hadisəni daha da mənalı edən maraqlı bir tarixi paralel də var. Familin atası Kamal Hüseynov da 38 il əvvəl elə bugünkü tarixdə hərbi xidmətini başa vuraraq məhz bu kəndə qayıdıb. İllər sonra eyni yol oğul tərəfindən təkrarlanıb.

Şuşakənddə ilk əsgərin qarşılanması azad edilmiş ərazilərdə həyatın bərpasının canlı göstəricisidir. Bu gün bu torpaqda dalğalanan bayraq, yaşanan sevinc, insanların üzündəki təbəssüm sabaha olan inamı daha da möhkəmləndi-



rir. Famil Hüseynovun doğma yurda dönüşü əslində Şuşakəndin gələcəyinə atılan ümidli bir addımdır. Bu tarixi gün həm bir ailənin qüruru, həm də azad Şuşakəndin yeni həyatının simvolu kimi yaddaşlara yazılıb.

# Gənc alim beynəlxalq reytinqdə üçüncü yerə layiq görülüb

**Azərbaycanlı gənc alim Sona Quliyeva aerokosmik tədqiqatlar üzrə nüfuzlu beynəlxalq "Top 100 Women in Aerospace & Aviation 2025" reytinqində üçüncü yerə layiq görülüb. O, dünya üzrə 200-dən artıq namizəd arasından seçilərək aerokosmik və aviasiya sahəsində fəaliyyət göstərən tanınmış qadın mütəxəssislər sırasında yer alıb.**

Sona Quliyeva beynəlxalq uğuru ilə bağlı AZƏRTAC-a bildirib: "Mənim üçün bu tanınma artıq nominasiyada iştirak və finalçıların siyahısına düşməklə başlamışdı. Açığı, üçüncü yerə la-




yiq görüləcəyimi gözləmirdim. Bu, dürüst və ardıcıl əməyin görünən, seçilmiş yolun və görülən işin mənalı olduğunu bir daha təsdiqlədi. Mən bu nəticəni dərin minnətdarlıq və məsuliyyət hissi ilə qəbul edirəm", - deyə o qeyd edib.

Gənc alim reytinq nəticələrini bayramın ilk günü səhər saatlarında ailəsi ilə videobağlantı zamanı öyrəndiyini və üçüncü yerin onun üçün gözlənilməz olduğunu bildirib. "Bu sahədə fəaliyyətimə verilən yüksək qiymət təkcə mənə deyil, eyni zamanda mənə dəstək göstərən və yoluma davam etməyin vacibliyini xatırladan hər kəsə aiddir", - deyə Sona Quliyeva vurğulayıb.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 16 iyun (Bazar ertəsi günü) tarixli 205-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 17 ramazanül-mübarək sənə 1337. 16 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

1919[-cu il] həziranın 16-cı günü bazar ertəsi saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

* * *

Müharibə meydanına göndərilmiş Azərbaycan əsgərləri üçün tərtib olunacaq cəmiyyətlər və xəstə ya ki yaralı əsgərlərə müavinətlər xüsusunda məsləhət olunmaq üçün iyun 16 bazar ertəsi saat 10-da Birinci Ünas [Qızlar] məktəbinə (Nijni Kladbişinski və Zavedenski küçələrin küncündə) ümumi müsəlman xanımları dəvət olunurlar.

*T-150*

## DİQQƏT

Bununla bildirməliyəm ki, Nikolayevski və Bazarnı caddələrin küncündə köhnə "Kaspi" idarəsi ilə rubəru [üzbəüz] təzə təmir edilmiş "Mübarək" lokantasında [yeməkxanasında] məşhur aşpaz Kazım vasitəsilə münasib qiymətə pək ləziz və pakizə yeməklər hazır olunur. Möhtərəm qarein [oxucular] cənabları təşrif gətirib və məmnun olacaqlarına ümidvaram.

*"Mübarək lokantası"*
*10238*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Qərardadi-məcburi**

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918 sənəsi 23 həziranında verdiyi qərarına istinadən Daxiliyyə nazirinin Hərbiyyə naziri ilə biletilaf [razılıqlı, birgə] nəşr etdiyi məcburi qərardaddır.

1) Əsgərlikdən boyun qaçıranları gizlətməkdə müttəhim edilən xüsusi şəxslərin olduğu kimi, əsgərlikdən qaçanları iadə eyləmənin [geri qaytarmağın, təhvil verməyin] öhdələrinə tərəttüb etdiyi [öhdələrinə düşdüyü] köy idarələri məmurini-rəsmiyyəsi [rəsmi məmurları] dəxi 10 min manata qədər cərimeyi-nəqdiyyə və 6 aya qədər həbsə məhkum olacaqlardır.

2) Əsgərlikdən qaçmış olanın kəndisi ilə bərabər götürmüş olduğu dövləti təslimat [dövlət əmanətləri] və əlbisə taqımının dəyəri aid olduğu qiteyi-əsgəriyyə ətrafından [hərbi hissə tərəfindən] onların qiyməti haqqında məlumat alınar-alınmaz şu fiyatın iki misli ən əvvəla əsgərlikdən qaçana aid əmvaldan [mallardan], onun böylə bir mala malik bulunmadığında əqrəbasından, əks təqdirdə məzkur [deyilən] əsgəri gizlətmiş olanlardan, bunların da biçiz [yoxsul] bulunduqlarında əsgərlikdən qaçanın gizlənmiş bulunduğu köy əhalisi arasında təqsim edilir [bölünür] və alınır.

3) İşbu qərardadın birinci maddəsində göstərilən cəraimə [cərimələrə]; xidməti-əsgəriyyəyə yarayıb-yaramadığını müayinə və tədqiq üçün Əxzi-əsgər [Hərbi çağırış] idarəsinə gəlməsi icab edib də, Əxzi-əsgər idarəsinə gəlməmiş olanın ailəsinin ən böyük üzvü dəxi düçar olduğu kimi, əsgərlikdən boyun qaçıranları gizləyənlərlə xidməti-əsgəriyyə ilə müvəzzəf [mükəlləf] olanların Əxzi-əsgər idarəsinə müntəzəmən gəlmələrinə nəzarət etməyə müvəzzəf olan köy idarələri məmuruni-rəsmiyyəsi dəxi düçar olurlar.

İşbu qərardadın mövqeyi-icraya qonulması Şuşa, Cəbrayıl, Zəngəzur və Cavanşir qəzaları general-qubernatoruna və Daxiliyyə Nəzarətinin Qazax qəzasında bulunan vəkili-xüsusisi ilə vilayati-aidə [aidiyyətli vilayətlər] valiləri üzərinə tərəttüb edir. İşbu qərardad Bakı üçün "Azərbaycan" qəzetəsində elan olunduğu gündən və məhəllati-aidəsi [aidiyyətli yerlər] üçün isə dəvairi-məhəlliyyənin [yerli dairələrin] kəndi təsviblərinə [qərarlarına] nəzərən təyin etdikləri vəsaitlə [vasitələrlə] elan olunduğu gündən etibarən qanun hökmünə daxil olur.

***3 həziran 1919 sənə, Bakı***
***Daxiliyyə naziri***

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin məlumatı**

Lion - Fransada iğtişaş getdikcə artır. Bu iğtişaş başında sosialistlər durmuşlardır. Parisdə dəmiryol halı çox böhranlıdır. Şəhərdə intibahnamələr [vərəqələr] yapışdırılmışdır. İntibahnamələrdə tətilçilər məzəmmət edilərək denilir ki, tətilçilər almanların nəfinə [xeyrinə] işləyib bilatəxir [dərhal] sülh əqd edilməsinə [bağlanmasına] mane olurlar.

**Bolşevik cəbhələrində**

Moskva - Şərq cəbhəsi. Novouzensk dairəsində bizim hissələr Aleksandrovkanı işğal etmişlər. Ufa səmtində bizim qoşunlar Ufa nəhrinə yetmişlərdir. Bu nəhir Ufanın 20 verstliyindədir. Sarapul dairəsində biz Nadzori-Abrosov xəttinə çıxmışıq. Bu yer Sarapulun 40 verstliyindədir.

- Petroqrad dairəsində bizim hissələrimiz müharibə ilə Krasnoqorkinin 10 verstliyində Ust-Ruditsanı işğal etmişlərdir. Cənub tərəfdə bizim qitəatımız Krasnoye Selonun 10 verstliyinə çəkilmişlərdir. Cənub cəbhəsində Mariupol səmtində bizim hissələr düşmənlərin güclü qüvvətlərinin təzyiqi ilə Berdyanskı düşmənlərə tərk etmişlərdir. Miller[ovo] səmtində bizim hissələr Çertkovo mövqi-fini [stansiyasını] tərk etmişlərdir.

- Tsaritsın [Volqoqrad] cəbhəsində Krimomujdinski mövqifinin qərb cəhətində, Tsaritsının 55 verstliyində Çervlenni mövqifinin cənub tərəfində şiddətli müharibə davam edir.

Daşkənd - Qırmızı qoşunlar tərəfindən Türküstanda Tecen şəhəri işğal edilmişdir. Tərəfimizdən təqib edilən düşmənlər İran tərəfinə qaçmaqdadırlar.

*(Royter acentəliyindən)*

**Rusiya kəndçiləri arasında üsyan**

Royter ajansına mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, rus kəndçiləri hər yerdə bolşeviklərin əleyhinə qiyam edirlər. Xüsusən Volqa nəhri boyunda və Mərkəzi Rusiyada bu qiyam ciddiləşmişdir. Moskvada Şura hökuməti artıq əndi-şəyə [təşvişə] düşmüşdür. Hökumət əhaliyə təklif edir ki, Kolçakla mübarizəyə girişsinlər.

**Polşa əsgərləri**

Berlin - Erzberqer general Foşa bir nota göndərərək bəyan edir ki, Almaniya Hökumətinə bildirildiyinə görə, Polşa qoşunları istəyirlər ki, Poznan ilə Yuxarı Sileziyaya hücum etsinlər. Erzberqer notasında əlavə edir ki, hərgah polyaklar bu planlarını vücuda gətirərlərsə, Almaniya hökuməti Almaniya-Polşa müahidənaməsinin [sazişinin] saxlanacağına məsul ola bilməz və Almaniya hökuməti heç bir vaxt Polşa qoşunlarının irəliləməsinə müsaidə verəmməz.

**Amerika drednotu**

Nyu-Yorkdan xəbər verirlər ki, "Tennessi" drednotu suya salınmışdır. Bu gəmi 32 min ton həcmindədir. Gəminin qiyməti 50 milyon dollardır. Drednotda 12 ədəd 14 düymə [düym] top vardır.

**Vilhelmin istidası [xahişi]**

İmperator Vilhelm Almaniya hökumətinə müraciət edərək Qərbi Prussiyada olan mülkünə qayıtmasına müsaidə istəyir.

**Rusiya-Finlandiya sərhədi**

Londondan xəbər verirlər ki, bolşeviklər Rusiya-Finlandiya sərhədini bağlamışlardır. Nəticədə finlər dəxi eyni təşəbbüsdə bulunmuşlardır. Bu gün rəsmi olaraq finlərin bəhri [donanma] bayrağı qaldırılmışdır.

**Münhenin işğalı**

Madriddən xəbər verirlər ki, qızğın müharibədən sonra hökumət qoşunları Münhen şəhərini işğal etmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Təsəvvür edildiyinə görə, Dördlər Şurası Almaniyanın əks-təklifinə cavab verdiyi münasibətilə müşkülata düşmüşdür. Bu təkliflər bir həftə müzakirə edildikdən sonra, mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Klemanso bugünkü iclasda demişdir ki, o ancaq Almaniyaya verilən sülh şəraitinin az bir yerlərinin dəyişilməsinə razı ola bilər. Çünki Fransa Palatası, həmçinin Fransa əhalisi güzəştdə bulunmağın qəti surətdə əleyhinədirlər. Lloyd Corc güzəştdə bulunmağın lazım olduğunu göstərməkdədir. Onların arasında qalmış olan Vilson həmçinin Klemanso şəxsində mümaniətə [çətinliyə, maneəyə] düçar olmuşdur. Lloyd Corcun rəyincə, hərgah sabahkı iclasda ümumi saziş hüsula gəlməzsə, sülh müahidənaməsi [sazişi] bir çox münasibətlə təbdil edilməlidir [dəyişdirilməlidir]. Çox mümkündür ki, düşənbə [bazar ertəsi] gününə kimi ancaq cavab hazır olsun.

**İtaliyanın Sülh Konfransına dəvəti**

Üç dövlət nümayəndəsi Şurası İtaliyanı Sülh Konfransına dəvət etmişdir ki, yenə Sülh Konfransında öz mövqeyini tutsun. İtaliyanın Sülh Konfransına dəvət edilməsinə görə təsəvvür edilir ki, İtaliya bu təklifi qəbul edəcəkdir və sülh müahidənaməsi almanlara verilən kimi münasibat başlanacaqdır.

**Şərqi Afrika müstəmləkəsi**

Londondan xəbər verirlər ki, Belçika heyəti sədri Himans ilə Almaniyanın Şərqi Afrikadakı müstəmləkəsinin müqəddəratını müzakirə etmək üçün Milner Parisə dəvət edilmişdir. Belçika heyəti xəbər verir ki, Vilson və Himans Şərqi Afrika mandatı məsələsini Milner ilə bərabər müzakirə etməyi qərara almışlardır.

**Almaniya və sülh**

İyunun 8-də Berlindən xəbər verirlər ki, sülh müahidənaməsindən hasil olan təsirə görə, üç gündür ki, birja bağlanmışdır. "Montaq çaytunq" qəzetəsi xəbər verir ki, bütün Almaniya firqələri sülh müahidənaməsini bu surətdə qəbuledilməz bir şey hesab edirlər.

**Sülh şəraitinə əlavə**

London - Sülh şəraitinə olan əlavədə denilir ki, mütarikə [atəşkəs] elan edildiyi andan Almaniya hökuməti istila qoşunlarının məxaricini verməlidir. Birinci olaraq bu xərclər verilməlidir. İkinci xərc isə müharibədən Müttəfiqlərə toxunan xəsarətlərin ödənməsidir. Mal xaric etmək barəsində Müttəfiqlər lazım bildikləri şərtləri qoyacaqlar. Almaniya Bolqariyaya, Türkiyəyə, Avstriyaya və Macarıstana müharibə zamanı müavinət olmaq üzrə verdiyi pulları Müttəfiqlərə verməlidir. Müharibədən qabaq Almaniyanın Türkiyə, Bolqariya və Avstriya-Macarıstandan olan iddialarını və bu dövlətlərlə bağlanan müahidə haqlarını Müttəfiqlərə güzəşt etməlidir.

**Belçika borc istəyir**

London - Belçika dəvairində [dairələrində] deyirlər ki, hərgah bilatəxir [dərhal] Belçikaya 100 milyon lirə istiqraz [borc] verilməzsə, Belçikanı gözlənilən bədbəxtlikdən mühafizət etmək olmaz. Əhvalın qayət kəskin olduğundan, Rəisi-vükəla Delakruaya və sair Belçika nazirləri Parisə varid olmuşlardır [gəlmişlər]. Xəbər verilir ki, Paris Sülh Konfransında olan Belçika mürəxxəsləri [nümayəndələri] Fransaya məlum etmişlər ki, hərgah istənilən kredit Belçikaya buraxılmazsa, o zaman Belçika sülh müahidənaməsini [sazişini] imza edə bilməyəcəkdir. Üçlər Şurası Belçikaya müavinət etməyə hazır olduqlarını izhar etmişdir [bildirmişdir]. Belçika nümayəndələri bu əhvalı öz dövlətlərinə məlum etmişlərdir.

**Macarıstan məsələsi**

Paris - Bu gün Dövlətlər Şurası Macarıstan qoşunlarının Çex-Slovakiyaya soxulmalarının nə qədər dəhşətli bir iş olduğunu müzakirə etmişdir. Alınmış olan məlumatdan anlaşılır ki, hər iki tərəf vüsətli iqdamatda [geniş təşəbbüsdə] bulunurlar. Bu işlərə Romaniya dəxi iştirak edir. Macarıstan məsələsi sülh əqdində Müttəfiqlərin zəhmətini daha çox artırır.

**Sülh Konfransında ixtilaf**

Paris - Lloyd Corc tərəfindən göstərilən maddələr barəsində sülh nümayəndələrinin arasında sazişlik olmadığına görə, Dövlətlər Şurasında daima ixtilafi-rəy [fikir ayrılığı] olur. Sülh Konfransının işləri tamamilə dayanmaq ehtimalı vardır. İşlər getdikcə ciddiləşir. Zira nümayəndələr güzəştdə bulunmaq istəməyirlər. Bunlar özlərinin davada iştirak etdiklərini və dava üzündən xəsarət gördüklərini meydana qoyurlar.

## İSTANBULDA HƏYƏCAN

Vilson prinsipinin haqqında tətbiq olunacağını mütəvəkkilanə [təvəkküllə, ümidini Allaha bağlayaraq] və saf bir türk etiqadı ilə bəkləyib duran Osmanlı türkləri Paris Konfransının Türkiyə haqqındakı haqsız və hələ İzmir xüsusundakı qansız qərarına qarşı, coşmuş məmləkətin hər tərəfində qələyan və həyəcanlarla dolu mitinqlər, protesto nümayişləri icra etmişlərdir. Ən böyük nümayişlər İstanbulda vaqe olmuş. Aldığımız türkcə qəzetələrdən "İzmir işğalı münasibətilə" vaqe olan nümayişlərin surəti-cərəyanını aşağıya dərc ediriz.

"Zaman" qəzetəsi yazır ki:

İzmirin işğalını protesto etmək üzrə Fateh parkında müəzzəm [böyük] bir mitinq əqd edilmiş və bu mitinqə minlərcə türk və müsəlman, erkək və qadın iştirak eyləmişdir. Mitinqin icrasından xəbərdar olan və əsasən üç gündən bəri qəlbləri qanayan türk və müsəlmanlar dün saat 1-dən etibarən Fateh parkında Bələdiyyə dairəsi önündə təcəmmö etməyə [toplaşmağa] başlamış və pək qısa bir müddət zərfində mitinqə iştirak edənlərin ədədi 40-50 min kişiyə [nəfərə] baliğ olmuşdur [çatmışdır].

Saat 3-ə doğru Bələdiyyə dairəsinin üst qatındakı balkonun tərəfində mövcud pəncərələrdə ay-yıldızı siyah birər bayraq asılmış və bu lövheyi-matəm [matəm lövhəsi] bütün hazirunu [orada olanları] ağlatmışdır.

Bir az sonra balkonun qapısı açılmış və Hüquq fakültəsi namına iradi-nitq edən [nitq söyləyən] [Əhməd] Səlahəddin bəy, haqqımızda rəva görülən müamiləni [rəftarı] bütün mövcudiyyəti-qəlbiyyəmizlə protesto etmək üzrə əqd olunan mitinqin xitamından sonra hər kəsin dağılması lazım gəldiyini bəyan və əfradi-millətin [millət fərdlərinin] təzahürat və müstədəyatını [tələb və istəklərini] xaki-payi-şahanəyə [padşaha] ərz etmək üzrə bir heyətin Sarayi-hümayuna [Padşah sarayına] ezam olunacağını təbliğ eyləmişdir.

Mütəaqibən [onun ardınca], Xalidə Ədib [Adıvar] xanım möhtəz və müəssir [titrək və təsirli] bir səda ilə bərvəchiati [aşağıdakı kimi] bir nitq irad eyləmişdir:

*"Türklər, müsəlmanlar!*

*Türk və müsəlmanlar bu gün ən qara gününü yaşayır. Gecə qaranlıq bir gecə. Fəqət insanın həyatında sabah olmayan gecə yoxdur. Yarın, bəlkə, müşə'şə' [dəbdəbəli], parlaq bir sabah olacaqdır. Yalnız işıq gəldiyi vaxt gözümüzü günəşə qaranlığı görən bayquşlar kimi açmayalım. Millət eyi və fəna günlər gördü. Günah dəqiqələri və şanlı dəqiqələr yaşadı. Fəqət, qardaşlar və qadınlar, o qədər qan axıtdıq ki, bu qan bütün dünyanın günahını yıxayacaq qədər təmiz və məbzuldur [çoxdur]. (Hazirun arasında qələyan [Camaat arasında həyəcan].) O qan bizim vəzifəmizi təyin etdi, bizə bir vəzifə buraxdı. Xanımlar, sizin əlinizdə tüfəng, top yox, yalnız haqq və Allah var! (Alqışlar) Tüfəng və top düşər, haqq və Allah baqidir [əbədidir, qalıcıdır]. Topun üzünə tükürəcək qədər övladlar, analar, qəlbimizdə eşq və iman və millət duyğusu var, heç qorxmayacaqsınız!*

*Xanımlar, türklər, müsəlmanlar, silahla çalışammazsınız; haqq və Allah sizinlədir. Dünyada millət sifətinə layiq bir millət olduğumuzu erkək, qadın, hətta ixtiyar və çocuqlarımıza qədər isbat etdik. Bu gün məmləkətimiz təqsim [parçalanmaq] təhlükəsi qarşısındadır. Addım-addım ədədən kəndi dunumuzdakı [sayca bizdən aşağıda olan] millətləri başımıza əfəndi [ağa] yapmaq istəyirlər. Bu gün İzmir, yarın Konya, o biri gün İstanbul. Sonra müsəlman dünyasının başı olan türk susdurulmuş, əsrlərcə Avropanın istədiyi şey hüsul bulmuş [əmələ gəlmiş] olacaqdır. Binaənileyh [ona görə], Avropaya qarşı mövcudiyyətimizi göstərmək və səsimizi, haqqımızı eşitdirmək üçün bu gün qüvvətli və mətin bir millət halında bulunmaq lazımdır.*

*Arxadaşlar, müsəlmanlar, türklər! Bu gün buraya toplanan bizlərin bir vəzifəmiz var. Biz sözümüzü onlara dinlədəmməyiz. Sözümüzü padşahımıza dinlədəriz. Və milləti ən çox təmsil edəcək bir Kabinə [Hökumət] istəriz. Zira istəyəcəyimiz bəsit və ülvi bir haqdır. Padşahımıza xalqın hissiyyatını təbliğ edər və deriz ki, iştə, qara bir gün yaşayırız. Bu gün hərkəs susmuşdur. Və türk müsəlman, padşahının ətrafına toplanmışdır.*

*Bütün aləmi-islam, həpimiz ruhumuzun infialını [həyəcanını, coşmasını] burada izhar ediriz. Hissə malik olan millətlər ölməzlər, öldürüləmməzlər. Ölsələr, bəsübə'dəlmövtə [ölümdən sonra dirilişə] malik olarlar. Duyğusu, hissi olmayanların təkrar dirildiyini görürüz. Nasıl olur da, bu müəzzəz [əziz] hissi darülfünunda, burada izhar etmiş olan bir millət qaldırıla bilər?*

*Biz müsəlmanlar Allaha etiqad və onun ədalətinə imanımız vardır. Zaman bizimlə bərabər olacaqdır və Cənabi-Haqq haqqımızı istehsal edəcəkdir. Haqq kəlməsi həm hüququmuzu, həm Cənabi-Kibriyanı [Allahı] ifadə edir. Hissiz qadın türk qadını deyildir."*

Bədəhu [sonra] Təhsin Fazil bəy bərvəchizir bir nitq irad etmişdir [aşağıdakı kimi bir nitq söyləmişdir]:

*"Qardaşlar!*

*Pək dərin hörmətlərlə təqdis etdiyimiz [müqəddəsləşdirdiyimiz] camelərimiz, mədrəsələrimiz, bütün müqəddəsatımız [müqəddəs dəyərlərimiz], sevgili İzmirimiz, həpsi, həpsi iştə bu gün yalançı bir haqq və ədalət naminə zorla əlimizdən alınır, boğazlanır, irzimiz, namusumuz çiynənir [tapdalanır], yaşamaq haqqımız qəsb olunur.*

*Ey türk!*

*700 sənəlik səltənətin qəlbinə endirilmək istənən paslı xəncər səni milli vəzifənə dəvət edir. Pək əla bilirsən ki, İzmir dədələrinin qəhrəmanlığı ilə yoğrulmuş Anadolumuzun bir beşiyi, bir yatağı, nəhayət, bir məzarıdır. Bu gün İzmirsiz bir Anadolu ruhsuz bir cəsəddir. Vətən bu gün üçün səndən sükunət, yarın üçün həyat və hərəkət bəkləyir.*

*Qardaş!*

*Bu gün düşmənlərin yayqaralarından [hayküyündən] saqın kədərlənmə və bil ki, səni fəlakətə, inqiraza [çöküşə] sürükləyəcək kədərindir. Saqın bədbin olma."*

Mütəaqibən [onun ardınca] Hüseyn Raqib bəy bir nitq irad etmiş və demişdir ki:

*"Aydın efesi və onun əsabiyyəti-qövmiyyəsi [milli təəssübkeşliyi, milli qeyrəti] öylə bir ustura [ülgüc] mahiyyətindədir ki, onu udmaq istəyənlərin qırtlağını yırtar. Bizimlə bərabər yaşamaq istəməyənlər üçün qapılarımız açıqdır. Gəldikləri yerə gedə bilərlər. Fəqət biz kəndi yurdumuzda heç bir millətin bizə hakim, bizə əfəndi olaraq yaşamasına təhəmmül edəmməyiz [dözə bilmərik]. Bizi qovmaq istəyənlərin haqqı satır və kötük olacaqdır."*

Bunlardan sonra daha bir çox nitqlər irad edilmiş və təzəhürati-milliyyədən [milli tələblərdən] zati-həzrətişəhriyarini [padşah həzrətlərini] xəbərdar etmək üzrə mabeyni-hümayuna bir heyəti-məxsusə [xüsusi bir heyət] ezam edilməsi qərargir olduqdan [qərarlaşdırıldıqdan] sonra mitinqə nəhayət verilmişdir.

**Mitinq heyəti Sarayi-hümayunda**

Mitinq heyəti tərəfindən müntəxəb [seçilmiş] heyət dün Sarayi-hümayuna gedərək sərqərini-həzrəti-padşahi Yavər paşa tərəfindən böyük bir təəssürlə [mütəəssir, kədərli, duyğulu bir halda] istiqbal edilmişdir [qarşılanmışdır].

Heyət mitinq qərarını zati-həzrəti-şəhriyariyə iblağ eyləmiş [bildirmiş] və tərəfi-şahanədən izhari-təəssür buyurulmuşdur [padşahın mütəəssir olduğu, kədərləndiyi bildirilmişdir].

Heyət bədəhu [sonra] ezaz və ikram edilmiş [əzizlənmiş və hörmət görmüş] və ərzi-şükran ilə övdət etmişdir [təşəkkürünü bildirməklə geri qayıtmışdır].

## DAĞISTANDA

**Şimali Qafqaziyanı dabravollardan boşaltmaq əmri**

**(Xüsusi)**

Cənubi Rusiyanı (Şimali Qafqaziyanı) Dabravol ordusundan boşaldıb tezliklə Dabravol ordusunu Rusiyaya çəkmək haqqında Yekaterinodarda olan Cənubi Rusiya Qüvayi-müsəlləhəsi [Silahlı qüvvələri] Baş komandanından 1073 nömrəli bir əmrnamə alınmışdır. Baş komandan elan edir ki, vətənin xilası vahid komandanlıqla, vahid və ali hökumətdən asılıdır. Baş komandan xəbər verir ki, o özü də Rusiya dövlətinin Baş hökmdarı və Rusiya ordularının Baş komandanı olan admiral Kolçaka tabe olur.

**Butayevin həbsi**

Dağıstan Hökumətinin sabiq naziri [Aslambek] Butayev öz işlərini bitirməkdən ötrü Tiflisdəki Zaqafqaziya Konfransından qayıtdıqda, iyunun 13-də Petrovsk mövqifində [stansiyasında] dabravol [könüllü] əsgərləri tərəfindən həbs edilmişdir.

**Teymurxanşurada**

Teymurxanşuradan [Buynakskdan] xəbər verirlər ki, mühimmati-hərbiyyənin [silah-sursatın] və qeyri ləvazimatın kazaklara verilməsi haqqındakı xəbərlər əhalini həyəcana salmışdır. Şeyx Əli Hacı [Akuşinski] bu xəbərin doğru olmağını soruşub, Dağıstan əhalisinin müsəlləh [silahlı] surətdə hücum edəcək ehtimalı olduğunu göstərir. General [Mikayıl] Xəlilov cavab məktubu və əmrnamə nəşr edib, bu şayiələrin əsilsiz fikirlər olduğunu göstərmişdir. Əhali arasında müşahidə edilən həyəcana görə Teymurxanşuraya Dabravol ordusu hissələri gəlmişdir. Hökuməti camaat tərəfindən intixab edilmiş [seçilmiş] nümayəndələrə verməkdən ötrü Dağıstan hökmdarı ramazan ayının 5-də Teymurxanşurada ictima [yığıncaq] dəvət edilməsi binagüzarlığını [sərəncamını] vermişdir. Həmin ictimaya general Erdeli də gələcəkdir.

**Admiral Kolçakın əks-təklifi**

Petrovskdan alınmış son xəbərlərə görə, şəhərdə admiral Kolçakın nimrəsmi [yarı rəsmi] surətdə olan cavabı şəhərin divarlarına yapışdırılıb və ağızda da şaye olmaqdadır [şayiə kimi danışılmaqdadır]. Bu cavab bolşeviklərin başçısı olan Lenindir.

Admiral Kolçak şimdilikdə Rusiyada davam edən Vətəndaş müharibəsinin Rusiya üçün mühlik [təhlükəli, öldürücü] bir şey olduğunu etiraf edərək, firqə münaziəsindən [çəkişməsindən] nəşət etmiş [irəli gəlmiş] olan qan tökülmənin dayandırılmasını lazım bilir. Fəqət yalnız sosialist firqələri başçılarından hökumət təşkil edilməsinə razı olmayıb, Kolçakın rəyinə görə, hökumətə yalnız firqələrdən deyil, hər bir siyasi cərəyan nümayəndələri daxil olmalıdırlar. Sonra Kolçak tələb edir ki, bolşeviklər əllərində olan silahı təslim edərək bütün rus cəbhələrində hərəkati-hərbiyyəni dayandırsınlar. Bundan əlavə, tələb olunur ki, ancaq edam cəzası tərk edilib, bolşeviklər gələcəkdəki Məclisi-Müəssisana müti olsunlar. Axırda Kolçak bunu da bəyan edir ki, hərgah bolşeviklər sazişə gəlməsələr, dabravolların şiddətli təcavüzlərinə düçar olacaqlar və gələcəkdə bolşeviklər Ümumrusiyanın Fövqəladə Divanına veriləcəkdirlər.

## BAKIDA DÜNKÜ QƏLƏYANİ-HƏMİYYƏT

Azəri türkləri müqəddəratlarını əllərinə aldıqları gündən şimdiyə qədər kəndi hakimiyyət və millətlərinin, hürriyyət və istiqlaliyyətlərinin bəhəqq [həqiqi] qiymətini təqdir və mühafizeyi-mövcudiyyətə malik olmaq haqqını da ehqaq [haqqını verən, o haqqa layiq olan] və əbədiyyən də haqq və hakimiyyət və istiqlaliyyətə layiq bir millət olduğunu mütəəddid [çoxsaylı] dəfələr göstərmiş, sırası gəldikcə yenə göstərəcəkdir.

Bundan məqsəd, Rusiya hökumətinin Qafqaz millətlərində qətiyyən bir haqqı və millətlərin isə rus istibdadına əsir olmağa dəxi heç bir məcburiyyətləri olmadığı halda, o mənhus idarə bu millətlərin hüquqi-milliyyə və hüquqi-sərihələrini [açıq-aşkar hüquqlarını] qəsb və hər şeydən məhrum bir istibdad əsarətinə məhkum eyləmişdir. Bilaxirə [sonra], şu millətlərin səlaməti və hüquqi-məğsubələrinin istirdadı [qəsb edilmiş hüquqlarının geri alınması] xüsusunda, saheyi-ədalətin isə o həlqeyi-mələnətdən təxlis ilə [o lənətli halqadan xilas olmaqla] haqqı həqiqətən təzahür yolunda məhzən [məhz] aləmi-mədəniyyət və aləmi-insaniyyətə bir xidmət olmaq üzrə milyonlarca məhəbbətkaranın [məhəbbət bəsləyənlərin] xunrizanə [qanlı] çarpışmaları ilə meydana gələn rus inqilabı Qafqazda bulunan miləl və əqvama [millətlərə və tayfalara] maddi və mənəvi bir səlahiyyət və sərbəstiyi-tammə [tam bir sərbəstlik] bəxş eylədi.

İştə, bu səlahiyyət və sərbəstlik sayəsində hər millət bulduğu mühit daxilində haqq və hakimiyyət və millət və hüquqi-hökmraniləri ilə qayeyi-amallarını kəndi əllərinə aldılar.

Şu şərtlə ki, irəlidə müstəqillən yaşamaq kimi bir üsuli-idarənin təmini cəhətində müqtəzi şəraiti haiz olan [lazım gələn şərtləri özündə daşıyan], daha doğrusu, daimi surətdə mövcudiyyətini göstərən bilcümlə miləl və əqvamdan ötədən bəri məskun və mütəvəttin [bir yerdə yerləşmiş və bir yeri özünə vətən tutub yaşayan] yoluna gəldiyi mühitdə hər qövm mənsub bulunduğu millət və milliyyətindən münfək və mütəfərriq [ayrılmış və qopmuş, uzaqlaşmış] bulunmamaq və başlı-başına idarə olmaq haqqını da kəsb eyləmək [qazanmaq] şərti ilə bu kimi hüquq və şəraiti cəm olan millətlərin elani-məşrutiyyətdən sonra müctəmiən [birgə] və müstəqillən idarə olmaq haqqına malik olmalarından dolayı Qafqazda bir qaç hökumət meydana gəldi.

İştə bu səbəbdən olaraq Qafqaz hökumətlərinin hüququnu mühafizə eyləmək və hər bir millətin müqəddəratını kəndi əlinə tövdi [tapşırmaq] və eyni zamanda da bir millət digər bir millətin bir qarış torpağına əl uzatmasına və bu kimi məsaildən mütəvəllid [məsələlərdən irəli gələn] qarışıqlar zühuruna meydan verilməmək üçün Qafqazdakı gənc hökumətlərin istiqlaliyyətlərinin müvəqqətən himayəsi düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən təmin və bu vəsilə ilə şimdiyə qədər yenə hami sifəti ilə Qafqazda hami dövlətlərin ordusu bulunur.

Şurası şayani-ərzdir [qeyd edilməlidir] ki, bugünkü gündə Qafqazda hüquqi-miləl olduğu üçün hər hanki bir millət təksiri-nüfusca [əhalinin sayına görə] əksəriyyətə malik olduğu halda həmhüdud bulunduğu hər hanki bir hökumətə əksəriyyətlə iltihaq eyləmək [qoşulmaq] fikrindəki sərbəstiyi-amalü əfkarına [arzu və düşüncə sərbəstliyinə] malikiyyəti hissi ilə bu fikrin tərvicinə mümaniətə [rəvac tapmasına mane olmağa] heç bir kimsənin haqq və düxulu [dəxli] olmayacağını gərək Rusiya inqilabi-kəbiri [böyük Rusiya inqilabı] və gərəksə düvəli-hamiyyə [himayəçi dövlətlər] bu xüsusu məqul [mümkün, ağlabatan] və milli bir səlahiyyət vermiş ikən, Denikin[in] Dağıstanı işğal ilə təkrar rus istibdadını diriltməsi, xülasə, Qafqazda zühura gələn bu kimi amali-məfsədətcuyanə hərəkatın [fitnəkarlıq məqsədi güdən hərəkətlərin] alət və səbəbi-iqası [icra edilməsinin vasitə və səbəbi] rus müstəbidlərinin və Denikin misilli düşmənlərinin fikri-xainanələrini tərvicə [xaincə planlarına rəvac verməyə] çalışmalarına heç bir məna verilməyir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 16 iyun (Bazar ertəsi günü) tarixli 205-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Halbuki dağıstanlılar, hüquqi-millisinin mühafizəsi uğrunda ta əvvəlcə rusun köklü istibdadında belə 25 sənə mütəmadiyən [fasiləsiz] qan tökmüşdür. O vaxtlar belə mövcudiyyətini göstərmişdir. Hüququnun müdafiə və istirdadı [əldə edilməsi] üçün çalışan və çarpışan bir millətin haqqı heç bir vaxtda kətm edilməmişdir [gizlədilməmişdir, üstü örtülməmişdir].

Hürr məmləkətlərə təkrar rus istibdadını soxacaq və kəndisinə bir mövqe işğal edəcək demək, bir taqım ünsürü ətrafına toplayaraq əsassız bir məqsədin və məntiqsiz bir hərəkatın nəticeyi-əliməsindən mütəvəllid [əzablı nəticəsi səbəbindən] Qafqazda Denikinin xəyanəti rollarında tökülən qanların, sönən xanimanların səbəbi həp istibdadı diriltmək deyilmidir?

Hənuz vücuda gəlmiş gənc hökumətlərin saheyi-aləminə siyahlar [qaralar] və gəncineyi-həyatına xatimələr [həyat xəzinəsinə son vermək], tərəqqi və təfəyyüzünə [inkişafına və yüksəlməsinə] maneələr, iqbal və istiqbalı [bəxti və gələcəyi] ilə hürriyyət və istiqlaliyyətinə sədlər çəkmək və zərbələr vurmağa qalxışmaq şöylə dursun, bunların müqəddəratları ilə pəncələşərək məhvinə çalışmaqla ölmüş bir rus istibdadına təkrar can verməkmi istəyirlər?

Lakin yenə Denikinin dediyi olmadı. Denikinin bundakı istifadəsi ancaq bir cinayət hürriyyəti olmuş oldu. Denikin Dərbəndə qədər gəldi. Denikin gələmməzdi. Denikini gətirdilər. Denikini gətirən əsbab [səbəblər] isə [Mikayıl] Xəlilov və əmsalı misilli [bənzərləri kimi] xaini-din və xaini-millət olan alçaqlardır. Bunu isə bilsinlər ki, Qafqazdakı 30-40 milyon islamın ağ ciyəri Azərbaycan isə, qaraciyəri Dağıstandır. Bu iki cüz heç bir vaxt bir-birindən ayrılmaz. Netəkim də ayrılmadı. Dağıstanlılar o vaxt məğlub olmuşdusalar, fəqət ruhları ölməmişdi.

Bu Dağıstan məsələsi əhalimizdə o qədər bir qələyan [həyəcan] hüsula gətirdi ki, hətta dünkü gün Bakıda bilümum [bütün, ümum] əhalimiz və bütün fəhlələrimiz, ümumiyyətlə tətil və bir əhli-səlib [xaçlılar] kimi bir ordu təşkil edərcəsinə əllərindəki hürriyyət və istiqlaliyyətlərinin nümuneyi-müməssili [timsalı, nişanı] olan rəngarəng bayraqlarla Bakı şəhərinin hər tərəfin[d]ə – əvvəla ingilis qərargahının, sonra da Parlamanın önündə Denikin və sayəsi olan xainlərin əleyhinə mitinqlər və nümayişlər əqd [təşkil edərək] və minlərcə zükur və ünasın pişi-ənzarında [kişilər və qadınların gözü qarşısında] meydana bir atəşpareyi-cəladət [cəsarət qığılcımı] kimi atılan natiqlərin və o həmiyyətməndanın [vətən və millət qeyrəti çəkənlərin] söyləməkdə olduqları atəşin və hərarətləri nitqlərinin hər kəlmə və fəqərəsində [bəndində] təkrar-təkrar "Qəhr olsun Denikin", "Qəhr olsun xainlər" misilli təhriki-qələyan [təhrikedici, qızışdırıcı] kəlmələrinin südurunda [meydana çıxışında] hazirunun yekzəban və yekfikir [camaatın bir ağızdan və həmfikir olaraq] və mərbut [bir-birinə bağlı] bir qəlblə xalisanə olaraq [ürəkdən, səmimiyyətlə] "Qəhr olsun" nidaları ilə təsdiq və iştiraki-amal və iştiraki-əfal [niyyət və əməllərə qoşulması] və dəqiqələrcə sürəkli davam edən şiddətli alqışlar da bu millətin nasıl bir yaşamaq haqqına mühiqq [layiq] və nasıl bir mühafizeyi-mövcudiyyətə malik və hökumət və istiqlaliyyətinə nə kimi bir zəhir [dayaq] və müin [köməkçi] olduğunu bu kərə yenə göstərmiş olduğu əzm ilə mövcudiyyətini isbat eylədi.

Hökumətin və Parlamanın isə hakimiyyət və istiqlaliyyətinin əmnü mühafizəsi [təmin edilməsi və qorunması] uğrunda nasıl bir köks gərəcəyi və nə dərəcə gərmiyyətdə bulunacağı [nə qədər hərarətlə çalışacağı] keçənki Məclisi-Məbusanda vermiş olduqları vəd və təminatlarla qərarlarından anlaşılmış və bu vəd və qərarlarının da həqiqətən amil [təsirli] olduqları təqib edilməkdə olan məsai [səy] və ittixaz edilə gələn tədabir və təvəssül [daimi surətdə həyata keçirilən tədbirlər və görülən işlər], əsasən göstərir, demək ki, nə millətin hökumətə qarşı bir deyəcəyi qaldı və nə də hökumətin millətə.

Hökumət millətinə hakim və millət isə hökumətinə köməkçi olunca, hər şeydə istehsali-müvəffəqiyyət [müvəffəqiyyətin əldə edilməsi] Allahdandır.

Öylə isə, yaşasın mərbutiyyət [bağlılıq, sədaqət]. Var olsun milliyyət, həmiyyət. Qəhr olsun xain fikirlər.

*Çubuqçuzadə Yusif Camal*

## QARABAĞ MƏSƏLƏSİ

Qarabağ məsələsinin sülh və asayişlə həll edilməsi xüsusunda nə qədər qəzetələrdə məqalələr, nəsihətlər yazıldısa da, siyasi məhfillərdə [dairələrdə], məclislərdə və Parlamanda nə qədər mübahisələr, sübut və dəlillər gətirilib Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olması danışıldısa da, ağıl və məntiqlə işi həll etməkdən həmişə uzaq qaçan daşnaklar axirüləmr [axırda] genə də yüzlərcə fəqir və bigünahların qanlarına bais olub, yüzlərcə uşaqları atasız qoyub, xanimanları viran qalmağa bais və səbəb oldular.

Qarabağa general-qubernator təyin edilmiş [Xosrov bəy] Sultanov cənabları budur tamam dörd aydır ki, gah Şuşadakı ingilis nümayəndələri ilə və gah bizzat [şəxsən] ermənilərin sərkərdə və nümayəndələri ilə mülaqatda bulunub [danışıqlar aparıb], məsələnin qan tökülməksizin həll edilib qurtarmasına çalışmaqda idi. Dəfəatla [dəfələrlə] yığıncaqlar, iclaslar olub, laəqəl [heç olmasa] ingilislərin özləri dedikləri kimi, Sülh Konfransının axırına kimi Qarabağın hökuməti erməni və müsəlmanlardan mütəşəkkil bir idarənin əlinə tapşırılmasına da inadlı ermənilər genə də razı olmayırdılar. Bu razı olmamaqları bir tərəfə dursun, hətta Şuşada oturub bütün Qarabağın Ermənistanını [Qarabağın ermənilərini, ermənilər yaşayan yerlərini] çulğalayıb, hər iki-üç həftədən bir milli qurultaylar qurub əhalini dinc və sakit öz işinə getməyə buraxmayırdılar. Bütün bu günahlar həman beş-altı nəfər İşxanyanlar ilə Şahnazaryanların inad və hisslərinin nəticeyi-mənhusələri [pis, nəhs nəticələri] idi ki, axirüləmr iyunun 5-dən başlayıb genə Qarabağ səhralarını, dağlarını və meşələrini günahsız insan qanına və ahü-naləyə boyadı.

Şuşada olan Milli Komitənin "siyasəti" nəticəsi olaraq bu axırlarda heç bir gün yox idi ki, Şuşanın ətraf kəndlərinin yavuqluğundan keçən Şuşa yollarında ermənilər müsəlmanlara hücum edib qətl-qarət etməmiş olsunlar. Böylə ayrı-ayrı ittifaqlar [hadisələr] çoxalıb axırda ümumi bir partizan davasına mübəddəl olmuşdu [çevrilmişdi]. Ermənilərin hücumları, gündüz günorta çağı beş-altı nəfər yol ilə keçən müsəlmanların mal və atları ilə bir yerdə oğurlanması və hətta meyitlərinin də verilməməsi hətta ingilisləri də heyrətə salmışdı. Bu axırlarda çöldə, yollarda olan hadisələr yavaş-yavaş şəhərə də sirayət etmişdi.

İyunun 2-də üç nəfər müsəlmanlardan şəhərin erməni hissəsində tutulub tərki-silah edilməsi camaatı bir az həyəcana salmışdı. Bu tərəfdən də şose ilə gedən köçərilərə erməni hissəsi tərəfindən daimi güllələr atılıb və hərdənbir hücumlar edilib at, qoyun oğurlanması da əfkari-ümumiyyəyə [ictimaiyyətə] pək fəna təsir etməkdə idi.

Şuşanın erməni hissəsində müsəlmanlara olan hücumlar, hədələr o qədər artmışdı ki, poçta, dövləti xəzinə [dövlət xəzinəsi] və sair dövləti idarələrə müsəlmanların gediş-gəlişi kəsilmiş kimi idi. Hətta erməni hissəsində Azərbaycan hökumətinin tərəfindən nəşr edilmiş təzə pulları da qəbul etməyib, alış-veriş etməyirdilər.

Qarabağın və baxüsus [xüsusilə] Şuşa şəhərinin əhvalını və həyati-ictimaiyyəsini bilənlər özləri biləcəklər və təsəvvür edəcəklər ki, iş bu məqama yetişəndə həyati-ümumi hanki bir halətdə olar. Ermənilər qəsdən və əmdən [bilə-bilə] get-gedə əfkarı [fikirləri] və ruhları həyəcana salıb, dəstə-dəstə bazarlarında və şəhərin kənarlarında gəzməklə özlərinin bir hücuma və ya davaya hazırlanmaqlarını sübut edirdilər.

Ayın 5-ci günündə müsəlman hissəsində olan bir neçə nəfər erməni sənətkarları, dərzilər, xərratlar, xəncər, tüfəng ustaları saat 10 tamam olan kimi qapılarını bağlayıb əcələ ilə öz məhəllələrinə getdilər. Bu əhvaldan yarımca saat keçməmişdi ki, erməni hissəsindən əvvəlcə meydançadan, sonra kazarma və Üçmıx tərəfindən tüfənglər açılıb, köçərilərə və müsəlman hissələrinə güllələr yağdırılmağa başlanıldı. Dərhal ermənilər dəstələrlə öz səngərlərinə çəkilməyə başladılar. Bununla bərabər, yüz nəfərə kimi müsəlləh [silahlı] ermənilər Zastav tərəfdə köçərilərin səlamətliyi üçün və onları yola salmaq üçün qoyulmuş mühafizə dəstəsinə hücum edib onları tərki-silah etməyə qəsd etmişlər. Bunların arasında bir az atışma olub, üç-dörd nəfər əsgər və bir nəfər də zabit yaralanıb, axırda bir nəfər əsgər tərəfindən açılmış əl bombası ilə hücum edənlərdən bir neçəsi yaralanıb, yerdə qalanı da qaçmağa üz qoyublar.

İşin əvvəlində qarmaqarışıq düşən kimi ermənilər hücum edib köçərilərdən bir neçə nəfər kişi və övrət və bir qədər də malqaralarını tutub öz aralarına aparmışlar.

Bu əhvalat əhaliyə yetişən kimi dükan-bazar bağlanıb, hərə tüfəngini götürüb bir türfətüleyndə [bir göz qırpımında] səngərləri tutub davaya amadə [hazır] oldular. Şuşadakı batalyonun cavan əsgərləri ildırım kimi hücum edib əhali ilə bir yerdə erməni hissəsinin qabağında olan, ermənilərin ən mühüm olan Üç-mıx adlı səngərlərini işğal etdilər. O gün sübhdən başlanmış atışma axşamadək davam etdi.

Bu arada ingilislərin nümayəndələri gəlib general-qubernatora vədə verdilər ki, işi sülhlə qurtarmaq üçün qubernator hanki tələbləri edərsə, onlar erməniləri məcbur edəcəklər ki, tələbat qəbul edilsin. Bu əhvalatdan sonra əhalini sakit edib cuşxüruşa gəlmiş milli qələyanı [aşıb-daşan milli həyəcanı] saxlamaq istəyən general-qubernator həzrətləri olmazın zəhmət və məşəqqətlərlə ancaq ikinci gündə atışmanı kəsib sakitlik sala bildi. Ermənilərin həyasızlıq dərəcəsinə çatmış qaba hərəkətləri, orada-burada namərdanə hücumları əhalini o qədər təngə gətirmişdi ki, uşaqdan böyüyə kimi hamı istəyirdi ki, birdəfəlik bu işə bir xitam çəksinlər.

General-qubernatorun ingilislər vasitəsilə erməni hissəsinə verdiyi ultimatumu hələlik bu iki mətləbdən ibarət idi: Birisi, ermənilərin Mərkəzi Milli Komitəsi əzalarının [üzvlərinin] Azərbaycan dairəsindən nəfy [sürgün] edilmələri və ikincisi, Azərbaycan qoşunu ilə erməni hissəsindəki kazarmanın işğal edilməsi. Ultimatumun əvvəlinci maddəsi həman gün əmələ gətirilib, ingilislər erməni Mərkəzi Komitəsinin 4 nəfər üzvlərini həbs edib general-qubernatorun idarə nümayəndəsi ilə Azərbaycan sərhədinə kimi nəfy edilməyə göndərildi. İkinci maddə üçün iki gün vaxt istənildi ki, orada olan erməni qaçqınları oradan çıxarılıb kazarma təmir edilsin. Ancaq bu maddələr qəbul ediləndən sonra qubernatorun tərəfindən təyin edilmiş nümayəndə Səməd bəy Cəmillinski və bir neçə nəfər də ingilis zabitləri müsəlmanların səngərlərini gəzib qubernatorun hökmünü və atışmanın kəsilməsini onlara elan etdilər.

Ayın 7-də sübh saat 6-da ultimatumun ikinci hissəsi də qövldən feilə gəldi [həyata keçdi]. Şuşada olan batalyon və general-qubernatorun xüsusi konvoyu (kürdlər) nizamla batalyon komandirinin təhti-komandasında [komandası altında] olaraq erməni hissəsinə keçib kazarmanı işğal etdilər. Bu iş tamam şəhərin həyati-ümumisinin genə də öz qaydasına keçməsinə bais oldu. Məlum oldu ki, şəhərdə olub daimi əhalini qarışdıran və Azərbaycanın ziddinə gedən ermənilərdən bir çoxu həmin gecə şəhərdən çıxıb qaçıblar.

Bu intriqaçı və müfsidlərin [fitnəkarların] şeytənətkaranə halları nəticəsiz qalmadı. Həman o adamların təşviqləri ilə yol ilə keçən köçərilərə Qaybalı kəndində hücum olubmuş. Əvvəlinci gündə Qaybalı kəndlilər hücum edib köçərilərdən bir neçəsini öldürübmüşlər. Üçüncü gündə köçərilərin dalısı da gəlib güclənəndən sonra onlar özləri bir yerə yığılıb həman Qaybalı kəndə hücum ediblər. Axırda ermənilər qaçıb, arvad-uşaqlarını qoyub meşələrdə gizləniblər. Köçərilərdən kəndə girib həman kəndi yandırmağa başlayıblar.

Bu əhvalat qubernatora çatan kimi filfövr [dərhal] öz adamlarını göndərib kəndi yanmaqdan saxlamaq istəmişsə də, amma iş işdən keçibmiş. Odur ki fövri [dərhal] həman kənddən qaçan arvad-uşaqları yüz nəfərə kimi qubernatorun adamları yığıb öz mənzilinə gətiriblər. Qubernator bunlara artıq mehribanlıq edib, dərhal çörəklərini verdirib istirahətlərinə çalışmışdır. Həmin tövr hücum edib köçərilərlə dava başlayan Bəhlul, Kərkicahan və Daşaltı kəndləri də köçərilər tərəfindən əhatə edilib yandırılmaq istənildiyi zaman qubernator xəbər tutub bu kəndləri yanmaqdan xilas etmişdir.

İndi bu saat Şuşada sakitlikdir. Həyat öz ümumi qaydasına girmişdir. Lakin şayiə və rəvayətlər var ki, ermənilər dəstə bağlayıb Əsgərana hücum etmək istəyirlər.

Təzədən vüqu bulacaq əhvalatı yazaram.

*Məhəmməd Sadıq Axundzadə*

## BAKI XƏBƏRLƏRİ

**"Xalq sözü"**

Bu gün saat 2-də hər gün gündüzləri nəşr olunmaq üzrə türk dilində "Xalq sözü" adında yeni bir qəzetə nəşr ediləcəkdir.

**Çay fabrikasının qapanması**

Neçə vaxt bundan əqdəm [qabaq] Bakıda açılmış olan çay və qəhvə fabrikası gözlənilən surətdə mal istehsal etmədiyi müayinə və təsdiq edildiyindən, Bakı qubernatoru sərəncamı ilə qapanmışdır. Fabrika məhsulatı Bələdiyyə İdarəsinin Tibb-səhiyyə şöbəsi təbibləri tərəfindən işlənməyə lüzumsuz və zərərli olduğu təhqiq edilmişdir.

**Tacirlərin ərizəsi**

Bakıda olan bir çox tacirlər ərizə ilə qubernatora məlum etmişlər ki, onlar Lənkəranda külli miqdarda meyvə və qeyri mallar almışlardır. İndi həman malları Bakıya gətirmək mümkün olmadığından zaye olur. Bunu nəzərə alaraq tacirlər malların Bakıya gətirilməsindən ötrü gəmi verilməsini xahiş edirlər. Tacirlər Lənkəranda bir çox yerlərdə bağ və bostan aldıqlarını dəxi əlavə edirlər.

**Həbsdən azad**

Bakı qalabəyisi [komendantı] tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, Bakı sakini Hacı Vahab Hacı Abbas oğlu öz oğlanlarını əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edildiyindən həbsə alınmışdı. İndi məzkurun [adı çəkilən şəxsin] oğlanları gəlib əsgərliyə yazıldıqlarından, özü həbsdən azad edilmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

- Pirşağı kəndi əhlləri Vəliməhəmməd Hacı Əbdüssalam oğlu oğlunu əsgərlikdən qaçırmaqda müttəhim edildiyindən altı ay müddətinə həbsə alınmışdır.
- Nardalan kəndi əhlləri Kərbəlayi Əbdülbaqi Hacı Qədir oğlu, Məşhədi Abutalıb Məhəmmədəli oğlu və Sadıq Əmanulla oğlu öz oğlanlarını əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim və oğlanları gəlincəyə qədər məhbus edilmişlərdir.
- Hövsan kəndi əhli Məhəmmədrəhim Atakişi oğlu öz oğlunu gizlətməkdə müttəhim edilərək oğlu gəlincəyə qədər həbsə alınmışdır.

**Sürgün**

Bakı qalabəyisinin binagüzarlığına görə, Babacan Osipov, Andrey Kolesnikov, Qramov, Lavrentiyev, Babayev və Cahangir Qasım oğlu asayişi-ümumini pozmaqda müttəhim və müzirr [ziyankar] şəxslər olduqları üçün Bakıdan sürgün edilirlər.

**10 000 manat mükafat**

Neçə vaxt bundan qabaq Bakıdakı Azərbaycan qoşun hissələrindən neçə nəfər əsgər ilə zabit Hacıağa Qasımov əslihə [silah] tutulan gəmini mühafizə üçün oraya təyin edilmişlərdi. Qasımov gəmidən bir çox şeylər oğurlayıb və tənbehdən qorxaraq 37 nəfər süvari əsgərləri özü ilə bərabər Bakıdan aparıb gizlənmişdir. Qaçaqlar getdikləri yollarda bir çox qarətlərdə bulunmuşlardır. Onları axtarmaq üçün ciddi tədbirlər ittixaz edilmişsə [təbirlər görülmüşsə] də, nəticə verməmişdir. İndi Bakı qarnizon naçalniki məlum edir ki, zabit Qasımov nə yerdə olduğunu bilən şəxslər tezliklə naçalnikə xəbər verməlidir. Həmin xəbəri gətirən şəxsə hökumət tərəfindən 10 000 manat mükafat veriləcəkdir.

**Saxta sənədlərlə pul almağa qəsd**

Bakı təhərri [axtarış] polis müdiri qubernatora məlum etmişdir ki, neçə gün bundan əqdəm [qabaq] neçə nəfər naməlum şəxslər saxta sənədlər vasitəsilə xəzinədən külli miqdarda pul almaq istədikləri haqqında məlumat alaraq öz agentələrindən bir nəferini orada növbəyə qoymuş və həman şəxslər 550.400 manat pul alıb getdikdə sənədlərinin saxta olduğunu kəşf və özlərini tövqif [həbs] etmişdir. Göstərilən məbləğ xəzinəyə qaytarılıb və şübhə üzrə orada qulluq edən bir nəfər dəxi tövqif edilmişdir [tutulmuşdur].

**2 milyon manat qarət**

Naberejnı küçədə Dadaşovun dokunda sükunət edən Böyükxanım Dadaşovanın evinə 8 nəfər naməlum şəxslər gəlib təhərri [axtarış] polis məmurları adlanaraq axtarış icra edərək getmişlərdir. Onlar getdikdən sonra xanım evindən 2 milyon manatlıq cəvahirat və pul qarət edilməsini kəşf etmişdir. Bədəfkarları tövqif etməkdən [cinayətkarları tutmaqdan] ötrü təhərri polis müdiri tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**İkinci uçastok ev komitəsində**

Bolşoy Krepostnoy küçədə, 47 nömrəli evdə olan ikinci uçastok ev komitəsi həman uçastokda yaşayanlara xəbər verir ki, ikinci uçastokda olan kor uşaqların siyahısı yazılmaqdadır. Ev komitələrinə təklif edilir ki, az bir zamanda kor uşaqların siyahısını uçastok komitəsinə göndərsinlər.

**Türk Müəllimləri İttifaqında**

- Türk Müəllimləri İttifaqının ümumi iclası, hazırlanmış və idarə tərəfindən təsdiq olunmuş ibtidai məktəblərin proqrammasını təsdiq etdi. İdarə şu proqrammanı Maarif Nəzarətinə göndərərək rica etmişdir ki, Nəzarət təsdiq edib tezliklə nəşr etsin, ta ki hər bir kitab təlif edənlər [yazanlar] şu proqrammaya mütabiq [uyğun] kitab təlif etsinlər. Hər bir məktəb şu proqrammadan Nəzarətdən istəyə bilər. Deməli, gələn sənə ümum məktəblərdə tərtib olunmuş proqramma üzərinə tədris başlanıb, hər bir yerdə bir qaydada müntəzəm surətdə dərs olacaqdır. Ali-ibtidai məktəblərin proqrammasının tərtibi müəllim əfəndilərin tətilindən dolayı eylül [sentyabr] ayına kimi təxir edildi.
- Eylül ayından başlayaraq Türk Müəllimlər İttifaqı təlimə dair bir cəridə [qəzet] nəşrinə mübaşirət edəcəkdir [başlayacaq]. Binaənileyh [ona görə], hər bir müəllim şu cəridə üçün tətildən istifadə edərək məqalələr hazırlamalıdırlar, ta ki işə mübaşirət edən zaman məattəlçilik olmasın.
- Müəllimlərdən xahiş olunur ki, hər kəsin ərzaqdan artıq parası qalıbsa, bu gün saat 9-dan 11-dək gəlib aparsın.
- Türk Müəllimləri İttifaqına müraciət etmək istəyənlər[dən] təvəqqe olunur ki, iyulun 1-dək Bakı Birinci Realnı məktəbinin müəllimi Abdulla Şaiq Talıbzadə həzrətlərinə müraciət etsinlər. Çünki İttifaqın sədri Ağa bəy İsrafilbəyzadə iki ay müddətinə məzuniyyətdə bulunacaqdır və Bakıda olmayacaqdır.

**Azərbaycan nümayəndəsi**

Azərbaycan Cümhuriyyətinin Ukrayna siyasi nümayəndəsi [Yusif] Vəzirov cənabları bolşeviklər[in] Odessanı işğal[ın]dan sonra İstanbula azim olmuşdur [getmişdir]. Nümayəndə hal-hazırda İstanbuldadır.

**Doktorların hərbi xidmətə alınması**

Aldığımız mövsuq [etibarlı] məlumata görə, yaxın zamanda Azərbaycan torpağında yaşayan bütün doktorlar siyahı edilərək hərbi xidmətə cəlb ediləcəklərdir.

**Dabravolların həbsi**

Srağagün İnqilab Komitəsi acentələri tərəfindən iki nəfər Dabravol ordusuna [Könüllü orduya] mənsub şəxs tövqif edilmişlərdir [tutulmuşlar]. Onlarla bərabər yüz minə baliğ [yaxın] Denikin parası tutulmuşdur. Məzkurlar [deyilən şəxslər] həbsə alınmışlardır. Məqsədləri Azərbaycanda, xüsusən Bakıda Dabravol ordusu mənafeyinə təbliğat və təşkilat yapmaq imiş.

**"Yardım alayı"nın pulemyotçu bölüyü**

Könüllü ehtiyat "Yardım alayı" cənbində [nəzdində] 150 kişidən ibarət pulemyotçu bölüyü təşkil edilir. Həmin bölüyə 25 yaşından 45 yaşınadək sağlam və salamat bədən sahibi şəxslər qəbul olunurlar. Bölüyün qədəri 150 kişidən artıq olmayacaqdır. Yazılmaq istəyənlər hər gün səhər saat 9-2 və axşam 4-6 kimi "Fani" kontorunda "Yardım alayı" Komitəsinin sədri İsmayıl Faniyə müraciət edə bilərlər.

## AZƏRBAYCANDA

**Şəkidən**

Həmin həziran ayının 9-da Yevlaxdan Şəkiyə gedərkən Şəki ilə Yevlax arasında vaqe "Trud" nam məhəldə [yerdə] bədəfkarlar [cinayətkarlar] faytonçunun 100 min rublə qiymətində olan dörd atını, 10 min rublə nağd pulunu, miniklərin hər əşyasını və külli miqdarda para aparmışlardır. Bu kimi əhvallar ara-sıra vaqe olmaqdadır. Məhəlli [yerli] idarə isə bu xüsusda gözəçarpan bir tədbirə girişməyir. Zamanın əhəmiyyətini nəzərə almayaraq böylə xəyanətlərlə vətən övladını bir daha cəfa və bəlaya düçar edən xainlərə tədabiri-şədidənin ittixazı [şiddətli tədbirlərin görülməsi] üçün hökumətin nəzərini cəlb ediriz.

*Əbdürrəhim Ağakişizadə*

## İDARƏYƏ MƏKTUB

"Azərbaycan" qəzetəsinin 13 həziran nömrəsində 4-cü dairə müfəttişliyi pristavı Kərimbəyov və müavini Axundov əleyhinə Bakı polismeysterinə bir Malışev namın şikayət verməsi barəsində məlumat dərc edilmişdi. Üç ay bundan əvvəl, həqiqətən, Malışev imzası ilə Bakı polismeysterinə bizim əleyhimizdə bir donos verilmişdisə də, donosçu kəşf edilməyərək polismeysterliyə lazımi məlumat verilməklə iş ləğv edilmişdi. Malışevdən əlavə iki nəfər müsəlmanın imzası da vardı ki, onları axtardıqdan sonra kim olduqları və nərədə sakin olduqları belə məlum olmadı. Əlbəttə ki, donos qərəzi-şəxsiyyə [şəxsi qərəz] əsası üzrə verilərək uydurma imzalarla imza edilmişdi. Bu işdə və bizim bilkülliyyə [tamamən] töhmətdən ari [günahsız] və xidmətimizdə hüsn-əməl [yaxşı əməl] sahibi olduğumuz meydana çıxmaqla töhmətlər [ittihamlar] rədd edildi.

*Pristav Kərimbəyov və müavini Axundov*

"Azərbaycan" qəzetəsi idarəsi tərəfindən Piri Mürsəlzadəyə qəzetənin mühərriri olduğunu təsdiq üçün verilmiş olan şəhadətnamə itibdir. Bununla həman şəhadətnamənin etibardan saqit olduğu [etibardan düşdüyü] elan edilir.

*б.*


**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Moskvada təcrübə görmüş diş həkimi K. S. Kolandskaya-Sanuxat kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi**
**R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

**Təzə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

"imperator Vilhelm": Alman impertoru II Vilhelm nəzərdə tutulur.

***Sülh ətrafında***

"Himans": qəzetdə "Gimans" kimi getmişdir.

***İstanbulda həyəcan***

"etmişlərdir" yerinə "edilmişdir" getmişdir.

"xaki-payi-şahanəyə": "padşaha"; hərfən "padşahın ayağının torpağına" deməkdir.

"Aydın efesi": "Efe" sözü Türkiyənin qərbində, İzmirin cənubundakı Aydın vilayətində "qəhrəman, igid" mənasında işlədilir.

"satır": kötük üzərində ət doğramaqda istifadə edilən, enli ağızlı böyük bıçaq.

"mabeyni-hümayun": Sarayda, padşahın hökumət işləri ilə məşğul olduğu, yanına gələnləri qəbul etdiyi yer.

"sər-qərini-həzrəti-padşahi": Sarayda, padşahın yanına gələnləri qəbul etdiyi "mabeyn" adlanan yeri idarə edən, padşahla digər şəxslər arasında vasitəçilik edən adam; baş mabeynçi.

***Qarabağ məsələsi***

"İşxanyanlar ilə Şahnazaryanlar": İşxanyan Qarabağdakı Erməni Milli Şurasının sədri, Şahnazaryan isə üzvü olmuşdur.





# Mədəniyyət





● Ötən ilin uğurlu yekunları



## Mədəniyyətin, ədəbiyyatın inkişafı dövlət siyasətində xüsusi yer tutur

**Prezident İlham Əliyev daim mədəniyyət, ədəbiyyat və ictimai sahələrdə çalışanlara qayğı göstərir, onların əməyini yüksək qiymətləndirir. Dövlətimizin başçısının müvafiq sərəncamları ilə böyük tarixi şəxsiyyətlərin, mədəniyyət, elm və sənət adamlarının, yazıçı və şairlərin, ictimai-siyasi xadimlərin yubileyləri keçirilir, onların mədəniyyətimizin, ədəbiyyatımızın inkişafındakı xidmətləri orden və medallarla qiymətləndirilir. Təbiidir ki, bütün bunlar dövlətimizin bu istiqamətdə atdığı uğurlu addımların və mədəni irsimizə göstərdiyi qayğının bariz nümunəsidir.**

Azərbaycanda mədəniyyətə, ədəbiyyata, sənət və elm adamlarına, yaradıcı insanlara belə yüksək səviyyədə diqqət və qayğı göstərilməsi siyasətinin bünövrəsini Ümummilli Lider Heydər Əliyev qoymuşdur. Prezident İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu bu siyasəti uğurla davam etdirərək sənət adamlarının fəaliyyətini, ədəbiyyat və ictimai-siyasi xadimlərin əməyini daim yüksək qiymətləndirir. Onların ədəbiyyat və mədəniyyətimizin inkişafındakı xidmətləri nəzərə alınaraq yubileylərinin keçirilməsi və müxtəlif orden və medallarla təltif olunmaları haqqında sərəncamlar imzalayır.

Məhz belə yüksəksəviyyəli diqqətin, qayğının nəticəsidir ki, qədim və şərəfli tarixə, fəxr ediləsi ulu keçmişə, qürur duyulan zəngin irsə malik olan Azərbaycan mədəniyyəti, ədəbiyyatı Prezident İlham Əliyevin gələcəyə hesablanmış uzaqgörən siyasəti, diqqət və qayğısı nəticəsində yeni inkişaf yollarında uğurla addımlayır. Bunun da sayəsində indi milli-mənəvi dəyərlərimiz müasir dövrün tələbləri səviyyəsində həm qorunur, həm də mərhələ-mərhələ gələcək nəsillərə ötürülür. Bu istiqamətdə aparılan islahatlar bir daha sabahkı uğur və zəfərlərdən xəbər verir.

Prezident İlham Əliyevin imzaladığı Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafına xidmət edən sərəncamları bir daha onu göstərir ki, bu sahə hər zaman dövlət başçımızın diqqət mərkəzindədir.

Tarixdən məlumdur ki, 1926-cı ilin fevral ayında ölkəmizin paytaxtında I Türkoloji Qurultay keçirilib. Artıq bu qürurverici tarixi günün 100 illiyinin tamam olmasına az qalıb. Prezident İlham Əliyev həmin əlamətdar günün qeyd olunması ilə bağlı 22 oktyabr 2025-ci ildə sərəncam imzalayıb. Sərəncamda deyilir ki, I Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir.

Dövlət başçımızın sərəncamına uyğun olaraq hazırda I Türkoloji Qurultayın keçirilməsinin 100 illiyi ilə bağlı müvafiq tədbirlərin keçirilməsi ilə bağlı təşkilati işlər görülür.

Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyətinin, ədəbiyyatının inkişafına böyük töhfə verən sənət adamlarının da əməyi müntəzəm olaraq layiqincə qiymətləndirilir. Həmişə olduğu kimi, 2025-ci ildə dövlət başçımızın mədəniyyətimizin, ədəbiyyatımızın inkişafında böyük xidmətləri olan sənət adamları müxtəlif orden və medallarla təltif olunmuşdur. Dövlətimizin başçısının 11 oktyabr 2025-ci il tarixli sərəncamı ilə bəstəkar Sevil Heydər qızı Əliyeva Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə "Şərəf" ordeni ilə mükafatlandırılıb. Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Şəfiqə Haşım qızı Məmmədova Azərbaycan Prezidenti İlham Əliyevin 29 mart 2025-ci il sərəncamı ilə "İstiqlal" ordeni ilə təltif edilmişdir. Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Fəxrəddin Manaf oğlu Manafov "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə, Prezident İlham Əliyevin 22 noyabr 2025-ci tarixli sərəncamı ilə Vahid Əziz oğlu Cəfərov (Vahid Əziz) "Şərəf" ordeni ilə təltif edilmişdir.

Görkəmli şair və yazıçıların, tanınmış ictimai-siyasi xadimlərin yubileylərinin keçirilməsi ölkəmizdə artıq ənənəyə çevrilmişdir. Belə yubileylərin keçirilməsi ziyalıların əməyinin dövlət tərəfindən qiymətləndirilməsi, onların yaradıcılığına yüksək dəyərin verilməsi, gənc nəslə tanıtdırılması və təbliğ edilməsi kimi təqdir olunur.

2025-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud Məmmədibrahim oğlu İbrahimbəyovun anadan olmasının 90, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100, Azərbaycanın Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın (Fikrət Göyüş oğlu Qocayevin) anadan olmasının 90, Azərbaycan Respublikası Elmlər Akademiyasının təsisçilərindən biri, görkəmli alim və tanınmış ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130, görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120, Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyskinin 150, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun (Yusif Səməd oğlu Vəkilovun) 90 və başqa yazıçı, şair, dövlət xadimi, sənət adamlarının yubileylərinin keçirilməsi haqqında müvafiq sərəncamlar imzalamışdır. Dövlət başçımızın imzaladığı bu sərəncamlar aidiyyatı nazirlik və yaradıcı təşkilatlar tərəfindən yüksək səviyyədə icra olunmuşdur.

Prezident İlham Əliyev yalnız müasir ədəbiyyatımızın deyil, klassik Azərbaycan ədəbiyyatının görkəmli yazıçı və şairlərinin yubileylərinin keçirilməsi haqqında da sərəncamlar imzalayır. Bütün bunlar dövlətin ədəbiyyatımıza verdiyi dəstəyin, inkişafın bariz nümünəsidir.

Prezident İlham Əliyev 4 aprel 2025-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük maarifçilik ideyalarının banisi Seyid Əzim Şirvaninin anadan olmasının 190 illiyinin qeyd olunması ilə bağlı sərəncam imzalamışdır.

Dövlət başçımızın mədəniyyətimizin, ədəbiyyatımızın inkişafına böyük töhfə verəcək bu sərəncamların uyğun olaraq respublikamızın hər bir guşəsində həm müasir, həm də klassik yazıçı və şairlərin yubileyləri keçirilir, yaradıcılıqları haqqında geniş söhbət açılır. Müntəzəm olaraq keçirilən bu tədbirlər ədəbi və mənəvi dəyərlərimizin qorunması, gənc nəsillərə çatdırılması işində böyük rol oynayır. Prezident İlham Əliyevin imzaladığı bu sərəncamlar dövlət başçımızın xalqımızın ədəbi-bədii xəzinəsinə, mədəniyyətimizə, ədəbiyyatımıza verdiyi ən yüksək önəmdir və yüksək dəyərin göstəricisidir.

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

## Misirdə Şah İsmayıl Xətainin sağlığında köçürülmüş "Divan"ı aşkar edilib

**Şərq ölkələrinin kitabxana və muzeylərində Azərbaycan alim və ediblərinin əsərlərindən ibarət zəngin əlyazma kolleksiyaları mühafizə olunur. Bu baxımdan, Qahirədə yerləşən Misir Milli Kitabxanası və Arxivlər Mərkəzi xüsusi əhəmiyyət daşıyır.**



Bu barədə AZƏRTAC-a açıqlamasında Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Elnur Mustafayev bildirib. Onun sözlərinə görə, Misir Milli Kitabxanasında qorunan yüzlərlə Azərbaycan əlyazması arasında görkəmli dövlət xadimi və şair Şah İsmayıl Xətainin indiyədək elmə məlum olmayan bir "Divan" nüsxəsini tədqiqat zamanı aşkarlayıb.

O qeyd edib ki, Xətai irsinə aid əlyazmalar XVII-XVIII əsrlərdən etibarən tədqiq olunmağa başlanıb. XIX əsrədək Yaxın Şərq müəllifləri bu əlyazmalar haqqında əsasən səthi məlumatlarla kifayətləniblər. Sonrakı dövrdə Avropa və Rusiya şərqşünasları Xətai yaradıcılığının tədqiqində mühüm işlər görüblər. Xətainin əlyazmaları hazırda Bakı, Sankt-Peterburq, Paris, London, Berlin, Vatikan, Daşkənd, İstanbul, Tehran və Təbriz kimi mərkəzlərdə qorunur. Lakin indiyədək şairin sağlığında köçürülmüş "Divan"ının mövcudluğu elmə dəqiq məlum deyildi.

Elnur Mustafayev bildirib ki, Misirdə aşkarlanan "Divan"ın Xətainin sağlığında yazıya alındığını güman etməyə əsas verən ciddi əlamətlər mövcuddur: "Əlyazma dəri üzlüklə cildlənib, nəstəliq xətti ilə, zəngin təhzib və ornamentlərlə tərtib olunub. 39 vərəqdən ibarət nüsxədə Şah İsmayıl Xətaiyə aid 146 şeir yer alır. Əsərin katibi məşhur xəttat Sultan Əli Məşhədidir.

● Yusif Səmədoğlu - 90

## Yazıçı, ssenarist, ictimai xadim

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, əsərlərinə heç zaman oxucu marağı azalmayacaq Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun 90 illiyi tamam olur. O, doxsan il əvvəl Azərbaycanın böyük şairi, şeirləri, poemaları dillər əzbəri olan Səməd Vurğunun ailəsində dünyaya göz açmışdı. Kiçik yaşlarından bədii yaradıcılığa maraq göstərmiş Yusif Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatının nadir istedada malik yazıçılarından biri idi.**

**Görkəmli yazıçı Yusif Səmədoğlunun mövzusu həyatdan götürülmüş, bədii dəyərini heç vaxt itirməyəcək hekayələri, romanları bu gün də oxucuların diqqətini özünə cəlb edir, onları sehrinə salır. Çünki yazıçının təfəkküründən süzülüb gələn, qələmindən çıxan bu əsərlər insanın daxili aləmini daha da zənginləşdirir, ona mənəvi zövq verir, kamilliyə, paklığa, saflığa, haqq-ədalətə, mübarizəyə və qəhrəmanlığa səsləyir. Yusif Səmədoğlu yalnız nəsr əsərləri ilə deyil, həm də yüksək ustalıqla yazılmış film ssenariləri ilə də ədəbi aləmdə pozulmaz izlər qoymuşdur. Ədibin ssenarisi əsasında çəkilmiş filmlər bu gün də maraqla baxılır.**



Oxucuların daim əsərlərinə sevə-sevə müraciət etdiyi Yusif Səmədoğlu (Yusif Səməd oğlu Vəkilov) 1935-ci il dekabrın 25-də Bakı şəhərində anadan olub. Əslən Qazax rayonunun Yuxarı Salahlı kəndinin Vəkilovlar nəslindəndir. Ömrünün erkən çağlarından bədii yaradıcılığın sehrinə düşən Yusif Səmədoğlu 1953-cü ildə Moskvada SSRİ Yazıçılar İttifaqı nəzdində fəaliyyət göstərən M.Qorki adına Ədəbiyyat İnstitutuna qəbul olub. Gənc yaşlarından ədəbiyyat dünyasına uğurlu addımlar atıb. 1957-ci ildə həmin institutun IV kursundan Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə keçib.

Təhsilini uğurla başa vurduqdan sonra 1960-1965-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri vəzifələrində işləyib. 1965-1969-cu illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü olub. 1969-1976-cı illərdə "Azərbaycanfilm" kinostudiyasının direktor müavini vəzifəsində çalışıb. 1976-1987-ci illərdə "Ulduz", 1987-ci ildən "Azərbaycan" jurnalının baş redaktoru vəzifələrində işləyib. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (nəsr üzrə katib) seçilib. 26 noyabr 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının üzvü olub.

Zaman-zaman rəhbərlik etdiyi ədəbi-bədii jurnallardan milli düşüncənin daha da geniş yayılması üçün tribuna kimi istifadə etmiş Yusif Səmədoğlu insanpərvərliyi ilə seçilmiş və sevilmişdir. Sovet hökumətinin süquta uğradığı, ölkədə milli azadlıq hərəkatının və müstəqillik uğrunda mübarizənin alovlandığı zamanlarda həmişə ön sıralarda dayanmışdır. Buna görə də xalqın böyük hörmət və nüfuzunu qazanmışdır.

Tarixən həmişə belə olub. Xalq çətinə, dara düşəndə ziyalılar sinəsini qabağa verərək millətinin önündə gedirlər. Övladı olduğu xalqını düşdüyü bəlalardan qurtarmaq üçün dünyaya səs salır, haray qoparır, haqsızlığa qarşı etirazını bildirir, çəkinmədən mübarizə aparırlar. Bütün sülhsevər insanları, dövlətləri ədaləti müdafiə etməyə səsləyirlər.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə artıq tarixin səhnəsindən silinmiş Sovet İttifaqının qoşunları xalqımızın milli azadlıq arzularını qan içində boğmaq, qırğınlar törətmək üçün ölkəmizin paytaxtına soxularaq Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə atılmış oğul və qızlarını amansızcasına güllələbaran etdilər. Həmin gərgin günlərdə Yusif Səmədoğlu sovet qoşunlarının xalqımızın başına gətirdiyi bu qanlı faciəni "Azadlıq" radiosu vasitəsilə dünya ictimaiyyətinə çatdırmışdır. Ziyalı kimi öz borcunu layiqincə yerinə yetirmiş, o çətin günlərdə xalqının yanında olmuşdur.

Ümummilli Lider Heydər Əliyev ədibin 60 illik yubileyində çıxışı zamanı Yusif Səmədoğlunun bu müsahibəsinin önəmini xüsusi vurğulayaraq demişdir: "O vaxt - yanvarın 20-də mən çox həyəcan içində idim. "Azadlıq" radiostansiyasının verilişlərini tutdum və o verilişlərdən Azərbaycanda olan vəziyyəti özüm üçün müəyyən qədər aydınlaşdırdım. Xatirimdədir, Yusifin səsi ilə - yəni o, telefonla bəyanat vermişdi, - məlumat verdilər. O, Sovetlər İttifaqının böyük qoşun hissəsinin Bakıya girməsini "Azadlıq" radiostansiyasına telefonla nə qədər həyəcan hissi ilə bildirirdi. Qoşunların vəhşiliyindən, təcavüzkarlığından danışırdı. Mən bunları "Azadlıq" radiostansiyasından Yusifin səsi ilə özüm eşitdim... Güman edirəm ki, təkcə bu yox, - bu, sadəcə mənim şəxsən hiss etdiyim bir hadisədir, haldır, - ancaq Azərbaycanın o ağır dövründə, 20 Yanvar faciəsi ərəfəsində və 20 Yanvar faciəsi zamanı o aylarda, o illərdə Yusif Azərbaycanın milli mənliyini qorumaq sahəsində çox fədakar şəxslərdən biri idi və onun siyasi fəaliyyəti, ictimai fəaliyyəti çox olubdur..."

Yazıçı haqqında deyilənlər və yazılanlar bir daha onu göstərir ki, Yusif Səmədoğlunu həmişə xalqının taleyi, dünəni və sabahı düşündürmüşdür. Əsərlərini də elə bu ruhla, bu ovqatla, bu istək və amalla yazmışdır. Ona görə də onun düşüncəsinin məhsulu olan hekayə və romanları xalqın ürəyinə, qəlbinə asanlıqla yol tapmışdır. Yusif Səmədoğlu həcmindən asılı olmayaraq, qələmə aldığı bütün əsərlərində xalqının taleyi ilə bağlı onu narahat edən problemləri ətraflı işıqlandırmışdır. Onun həlli üçün yollar axtarmışdır.

Yusif Səmədoğlunun yaradıcılığından Vətən sevgisi qırmızı xətlə keçir. Yazıçı 1959-cu ildə "Yaddan çıxmış sözlər" novellasında, "Xəzri" hekayəsində cəsarətlə Vətənimiz üçün faciə olan mühüm tarixi hadisəni qələmə alaraq, "Türkmənçay - 1828-ci il" müqaviləsini yada salmış, oxucularını bu hadisəni daim xatırlamağa səsləmişdir.

Yusif Səmədoğlunun müxtəlif illərdə "220 nömrəli otaq", "Qalaktika", "Qətl günü" kitabları işıq üzü görüb. Yazıçı elə də çox əsər yazmayıb. Amma nə yazıbsa, ədəbiyyatda hadisəyə çevrilib, oxucu sevgisi qazanıb. Bir çox ədəbiyyatşünasların da qeyd etdiyi kimi, yazıçıya daha çox şöhrət gətirən Mirzə Cəlil, Əbdülrəhman bəy Haqverdiyev ənənəsinə sadiq qalaraq yazdığı "Qətl günü" romanı olub. Özündə mürəkkəb tarixi hadisələri əks etdirən bu əsər nəşr olunan illərdə cəmiyyətdə bir mayak kimi parladı. Kitab qısa müddət ərzində satıldı, cəmiyyətdə böyük əks-səda doğurdu. Roman maraqlı məzmunu və yazılış forması ilə oxucuların yaddaşında dərin iz qoydu. Əsəri oxuduqca göz önündə amansız repressiya illərinin dəhşətli səhnələri canlanır. Çox keçmədi ki, əsərin süjet xətti əsasında eyniadlı film də çəkildi. Təndiqçilər haqlı olaraq qeyd edirlər ki, əgər Yusif Səmədoğlu "Qətl günü" romanından başqa heç nə yazmasaydı, yenə də onun adı ədəbiyyatımızın tanınmış simalarının sıralarında çəkiləcəkdi. Çünki böyük mədəniyyət hadisəsinə çevrilən, həyat, dünya və insan haqqında yazılmış məşhur "Qətl günü" romanı ədibə təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da böyük şöhrət qazandırmışdır.

O da xüsusi olaraq qeyd edilməlidir ki, Yusif Səmədoğlu xalqımıza yalnız yazıçı kimi deyil, həm də istedadlı kinossenarist kimi də əzizdir. Görkəmli yazıçının Xalq şairi Səməd Vurğunun "Komsomol poeması" əsasında yazdığı "Yeddi oğul istərəm" ssenarisi filmin çəkiliş qrupu tərəfindən böyük sevgi və rəğbətlə qarşılanmışdır. Elə buna görə də çox keçmədən filmin çəkilişlərinə başlanılmışdır. Tamaşaçıların bu gün də böyük maraqla baxdıqları bu məşhur filmdə Gəray bəy obrazını canlandıran Xalq artisti Həsənağa Turabov o günləri tez-tez xatırlayaraq deyərmiş ki, Gəray bəy kino yaradıcılığında ən sevdiyi rollardan biridir. O həmin rola çəkildiyi üçün həmişə Yusif müəllimə minnətdarlıq edərmiş.

Prezident İlham Əliyev 4 sentyabr 2025-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun 90 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdır. Sərəncamda deyilir ki, Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardandır. Yüksək bədiilik nümunəsi olan dərin ictimai-mənəvi məzmunlu əsərləri, o cümlədən hekayələri, romanları və film ssenariləri ilə ədəbi prosesdə iz qoymuş yazıçının ötən əsrin 60-70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri vardır. Parlaq mədəniyyət hadisəsinə çevrilən, dünya və insan haqqında məşhur "Qətl günü" romanı ədibə Azərbaycanın hüdudlarından uzaqlarda da şöhrət qazandırmışdır. Yusif Səmədoğlu rəhbəri olduğu mühüm ədəbi-bədii məcmuələrdən milli düşüncə və ideyanın daha geniş yayılması üçün tribuna kimi istifadə etmiş, ölkədə azadlıq hərəkatının və müstəqillik uğrunda mübarizənin ön sıralarında dayanmış, xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə vətəndaş-ziyalı mövqeyi ilə seçilmişdir.

Ümummilli Lider Heydər Əliyev Yusif Səmədoğlunun yaradıcılığına yüksək qiymət verərək demişdir: "Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki o, böyük şair, böyük insan, böyük alim Səməd Vurğunun oğludur. Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük bir nemətdir, böyük bir xoşbəxtlikdir. Bəlkə elə bu bəs olardı. Ancaq bununla yanaşı, bu kökün üstündə, bu ailə ab-havasının içində böyüyüb, ərsəyə gəlib atasının yolunu davam etdirmək və cəmiyyətdə özünəməxsus, məhz özünəməxsus yer tutmaq, - bu, böyük xoşbəxtlikdir, cəmiyyətimizin içində insan üçün, şübhəsiz ki, nemətdir..."

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Yusif Səmədoğlunun yaradıcılığından söz açaraq demişdir: "Y.Səmədoğlunun fəaliyyəti Azərbaycan mühitində ədəbiyyatda böyük maraq yaratmaqla bərabər, həm də ictimai fikri formalaşdırmağa xidmət edirdi. Onun özü demokratik düşüncə sahibi olduğundan bütün yaradıcılığı bu ruha köklənir və ondan qidalanırdı".

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar görkəmli ədibin yaradıcılığının bəzi məqamlarından söz açaraq vurğulayıb ki, Yusif Səmədoğlu XX əsr Azərbaycan ziyalılığının ali keyfiyyətlərini öz şəxsiyyətində daşıyan, mənsub olduğu böyük bir nəsli təmsil edən istedadlı insan olub, həyatı boyu həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində durub, azadlıq, demokratiya, müstəqillik duyğusu ilə yaşayıb.

Professor Vaqif Yusifli görkəmli yazıçının yaradıcılığından bəhs edərkən bildirmişdir ki, Yusif Səmədoğlu ruhən, necə deyərlər, kök və qan qrupu etibarı ilə Səməd Vurğuna nə qədər oxşasa da, öz taleyini yaşamışdır. Yusif Səmədoğlu mənim və mənim kimi yüzlərin, minlərin, on minlərin sevdiyi, Azərbaycan və Səməd Vurğun qədər uca tutduğu, sözünü Tanrı qədər əzizlədiyi böyük bir insan idi.

Uzun çəkən xəstəlikdən sonra Yusif Səmədoğlu 1998-ci il avqustun 16-da dünyasını dəyişdi. Fəxri xiyabanda dəfn edildi. Ölümü ilə onu tanıyanları və sevənləri kədərləndirdi. Böyük yazıçı Azərbaycan xalqına "XX əsrin ən yaxşı Azərbaycan romanı" seçilən "Qətl günü"nü, həmçinin bir çox hekayəni, filmi və bir də tamamlaya bilmədiyi "Deyilənlər gəldi başa..." romanını yadigar qoyaraq əbədiyyətə qovuşdu.

Yusif Səmədoğlunun yaradıcılığı müxtəlif illərdə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Görkəmli yazıçı 1979-cu ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi", 1995-ci ildə "Şöhrət" ordeni, 1998-ci ildə "Azərbaycan Respublikasının Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Şəhid ailəsi Yeni ili yeni mənzildə qarşıladı

**Xalqımız və dövlətimiz böyük Zəfərin sevincini bizə doya-doya yaşadan, canları bahasına ərazi bütövlüyümüzü təmin edən, mübarək adlarını tarixə qızıl hərflərlə yazan şəhidlərin xatirəsini hər zaman uca tutur, məhəbbət və ehtiramla xatırlayır.**




Prezident İlham Əliyev şəhid ailələrinə qayğı və diqqətin dövlətin sosial siyasətində prioritet istiqamət olduğunu dəfələrlə bəyan etmiş, bu siyasətin uğurla həyata keçirilməsi üçün əlaqədar qurumlara konkret tapşırıq və tövsiyələr vermişdir. Bu istiqamətdə Mingəçevir şəhərində görülən işlər məmnunluq doğurur.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov şəhid Əli Nəsib oğlu Rzayevin anası Kamilə xanıma yeni mənzilin açarını təqdim etmişdir. Şəhərin M.Rəsulzadə küçəsindəki binada yerləşən təmirli mənzil istilik sistemi ilə təmin olunub, lazımi avadanlıq və mebellə təchiz edilib. İ.İsmayılov yeni mənzilin ilk qonağı olaraq Kamilə xanımı təbrik etmiş, ona xoş arzularını çatdırmışdır. Məişət rahatlığına qovuşan Kamilə xanım əhatə olunduqları qayğı və diqqətə görə dövlətimizə, onun rəhbərliyinə minnətdarlığını bildirmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyində strateji dayağa çevrilir

**"Azərbaycanın təbii qaz ixracının Avropa bölgəsində arealı son illərdə davamlı şəkildə genişlənməkdədir. Son 5 ili əhatə edən dövrdə Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Avropaya 50 milyard kubmetrdən artıq Azərbaycan təbii qazı ixrac olunub. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Avropa Birliyinin Rusiya qazına qarşı tətbiq etdiyi məhdudiyyətlər bu bazarda Azərbaycan qazının strateji əhəmiyyətini daha da artırıb".**



Bunu AZƏRTAC-a açıqlamasında Ankara Yıldırım Beyazıt Universitetinin Beynəlxalq İqtisadi İnteqrasiya kafedrasının əməkdaşı Kənan Aslanlı bildirib.

Ekspert qeyd edib ki, 2023-2025-ci illərdə Azərbaycan orta hesabla illik 25-26 milyard kubmetr təbii qaz ixrac edib ki, bunun da təxminən yarısı Avropa ölkələrinin payına düşüb. 2025-ci ilin sonuna olan məlumatlara əsasən, 8-i Avropa Birliyinin üzvü olmaqla, ümumilikdə 14 ölkə Azərbaycan qazını idxal edir. Bu göstərici ilə Azərbaycan boru kəməri vasitəsilə dünyada ən çox ölkəyə təbii qaz ixrac edən dövlətlərdən biridir.

"2024-cü ilin sonuna olan statistikaya görə, Azərbaycan Avropa Birliyinin illik ümumi qaz idxalının 4 faizindən çoxunu təmin edib və bu göstərici ilə ənənəvi olaraq AB bazarına qaz ixrac edən Böyük Britaniya və Qətər kimi ölkələrlə qısa müddətdə eyni səviyyəyə çatıb. Xüsusən də ciddi enerji çatışmazlığı ilə üzləşən ayrı-ayrı Şərqi, Cənubi və Mərkəzi Avropa ölkələrinin enerji balansında Azərbaycan qazı kritik rol oynayır. Hazırda Bolqarıstanın ümumi qaz idxalının 55-60 faizi Azərbaycan hesabına təmin olunur", - deyə K.Aslanlı bildirib.

Ekspert əlavə edib ki, Ukrayna üzərindən tranzit olaraq Rusiya qazını ala bilməyən Slovakiya kritik həddə çatan qaz tələbatının ödənilməsi məqsədilə 2025-ci ilin dekabr ayından etibarən Azərbaycan qazının idxalına başlayıb. Bu fakt Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolunun bariz göstəricisidir.

Kenan Aslanlı bildirib ki, Avropa ölkələrinin ərazisində yeni interkonnektorların inşası, əlavə kompressor stansiyalarının yaradılması ilə TAP boru kəmərinin illik ötürücülük gücünün planlaşdırılan 20 milyard kubmetrə çatdırılması və ölkənin qaz hasilatının qarşıdakı illərdə artım dinamikasını qoruyacağına dair proqnozlar Azərbaycan qazının Avropa bazarında strateji əhəmiyyətinin daha da yüksələcəyinə ciddi əsas yaradır: "Avropa Birliyinin ümumi qaz tələbatının və təbii qaz qiymətlərinin trayektoriyasının necə dəyişəcəyi də xüsusi əhəmiyyət kəsb edir. Bu amillər təbii qaz ixrac edən ölkələrin ixrac gəlirləri və enerji diplomatiyasının effektivliyi baxımından qaz ixrac infrastrukturu və hasilat həcmləri qədər mühüm parametrlər sırasında yer alır", - deyə ekspert vurğulayıb.

# Fransada 10 nəfər birinci xanımı təqib etməkdə təqsirli bilinib





**Paris məhkəməsi 10 nəfəri (8-i kişi və 2-si qadın) Fransa Prezidenti Emmanuel Makronun həyat yoldaşı Bricit Makronu təqib etməkdə təqsirli bilib. Təqsirləndirilən şəxslərin əksəriyyəti 8 aya qədər şərti həbs cəzası alıb. Bir nəfər məhkəməyə gəlmədiyinə görə tutulub və həbsxanaya göndərilib.**

Cəza alanların hamısı Fransanın birinci xanımının cinsi haqqında yalan xəbərlər, eləcə də Makronlar arasındakı 24 yaş fərqi haqqında "zərərli ifadələr" yaymaqda təqsirli bilinib. Hakim bildirib ki, bütün təqsirləndirilən şəxslər internetdə alçaldıcı və təhqiramiz şərhlər yazmaqla Bricit Makrona zərər vermək üçün açıq niyyətlə hərəkət ediblər.

Bricit Makrona qarşı feyk məlumatlar yayan 10 nəfərin arasında müxtəlif peşə sahibləri var. Təqsirləndirilən şəxslərin yaşları 41 ilə 65 arasındadır. Onlardan biri seçkili vəzifədə çalışan məmur, digərləri qalereya sahibi, müəllim və onlayn falçı, habelə sosial şəbəkələrdə Amandin Rua kimi tanınan 51 yaşlı Delfin J.-dir. Xatırladaq ki, Amandin Rua, özünü müstəqil jurnalist adlandıran Nataşa Rey ilə birlikdə, keçən il Bricit Makrona qarşı böhtan atmaqda ittiham olunmuşdu. 2021-ci ildə Rua və Rey "Yutub"da Bricit Makron adlı adamın heç vaxt mövcud olmadığını və əslində, onun "cinsi dəyişdirilmiş" qardaşı Jan-Mişel Tronyo olduğunu iddia etdikləri bir söhbət yayımlamışlar. Rey və Rua daha sonra apellyasiyalarını udmuş və onların barəsində çıxarılmış ilkin hökmlər ləğv edilmişdir. Lakin bəzi məlumatlara görə, Bricit Makron bu qərardan daha yüksək məhkəmə instansiyasına şikayət vermişdir.

Məlumat üçün bildirək ki, Bricit Makronun transgender olduğuna dair konspiroloji nəzəriyyələr 2017-ci ildə əri Emmanuel Makron Fransa Prezidenti olandan bəri yayılır. Bricit Makron gələcək əri ilə onun oxuduğu orta məktəbdə dərs deyərkən tanış olub. Cütlük 2007-ci ildə - gələcək Fransa Prezidentinin 29, xanımının 53 yaşı olduğu zaman evlənib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

22 yanvar 2026-cı il saat 15:00-a "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin (Bakı şəhəri, Ş.Bədəlbəyli küçəsi, 102) səhmdarlarının növbədənkənar Ümumi Yığıncağı çağırılır. Növbədənkənar Ümumi Yığıncaq Bakı şəhəri, Nəsimi rayonu, Süleyman Rüstəm, 9 ünvanında keçiriləcəkdir.

Cəmiyyətin səhmdarlarının növbədənkənar Ümumi Yığıncağının gündəliyi:

- "AtaSığorta" ASC-nin maliyyə vəziyyətinin müzakirəsi.
- Digər məsələlər.

Səhmdarların Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla Bakı şəhəri, Süleyman Rüstəm, 9 ünvanında tanış oluna bilər.

**Əlaqə telefonu: (+994 12) 936; E-mail: office@atasigorta.az**

*"AtaSığorta" ASC*

# Ankara YÜCE məktəblərində yanvar tematik ayı Azərbaycana həsr olunub

**Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi Ankara özəl YÜCE məktəbləri ilə Azərbaycan mədəniyyəti, tarixi və dilinin təbliği məqsədilə ortaq layihə həyata keçirilir.**




AZƏRTAC xəbər verir ki, bu məqsədlə Ankara özel YÜCE məktəblərində yanvar tematik ayı qardaş Azərbaycana həsr edilib və "Qafqazların incisi - qardaş ölkə Azərbaycan" adlandırılıb.

Bununla bağlı Ankara özəl YÜCE Məktəblərinin rəsmi səhifəsində paylaşım edilib. Paylaşımda bu ayın qəlblərimizi və qapılarımızı qardaş xalqımız olan Azərbaycana açırıq deyə qeyd edilib, birlikdə bu qədim torpaqların sirri, yerin altından yüksələn əbədi odların hekayəsi, Xəzər dənizinin sahilində inci kimi parlayan paytaxt Bakının əsrarəngiz gözəllikləri, Qafqazların incisi gözəl Azərbaycana həsr ediləcəyi bildirilir.

Qeyd edək ki, tematik ay zamanı Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən məktəblərdə bir aylıq milli mədəniyyətimiz və incəsənətimizi özündə əks etdirən "Azərbaycan stendi" təşkil olunacaq. Həmçinin Azərbaycan haqqında dərslər, müsabiqələr, viktorinalar, video təqdimatlar, sənədli film və bədii film nümayişləri, rəsm və foto sərginin təşkili, məktəbin kitabxanası üçün Azərbaycana dair zəngin kitab kolleksiyasının hədiyyə olunması nəzərdə tutulur. Eyni zamanda Azərbaycan nağıllarını təbliğ etmək üçün "Masal-Masal Türkiyə: türk dünyası, Azərbaycan" mobil telefonlar üçün onlayn tətbiq proqramının təqdimatı, Azərbaycan milli rəqslərindən ibarət konsert proqramının təşkili planlaşdırılır.

Məktəblilər bu ayda Qafqazın incisi Azərbaycanın zəngin mədəniyyəti, ədəbiyyatı, möhtəşəm abidələri, memarlığı, əsrarəngiz turizm imkanları, habelə müstəqil Azərbaycanın qazandığı böyük nailiyyətlərlə tanış olmaq imkanı əldə edəcəklər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


***"Çinar-2016" MTK tərəfindən Günel Firudin qızı Mustafayevanın adına verilmiş Sumqayıt şəhər Yeni Bulvar ərazisi ünvanında yerləşən giriş 1, 8-ci mərtəbə, 3 otaqlı, ümumi sahəsi 107.12 kv.m olan 38 nömrəli mənzilə dair 15.06.2023 tarixli, 023/310 nömrəli Maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, texnika elmləri doktoru, professor

**BAĞIR SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**İLQAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Səməd Bəşirliyə əzizi

**MƏLƏK VƏKİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**İLQAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 2723
Sifariş 2

Qiyməti 60 qəpik